13. Фараджева М.Н. К вопросу датировки наскальных изображений археологичексого комплекса Гобустан. Журнал İrs -Наследие. 2008, № 6 (36), с. 34-42; Ее же. Верхнепалеолитическое искусство Азербайджана. Мир наскального искусства. Москва, 2005, с. 254-259.
14. Исмаилзаде Г.С. Историко-художественный музей под открытом небом.
15. Исмаилзаде Г.С. Петроглифы Азербайджана как составная часть древнейшего искусства Азербайджана. Сб. статей Кавказ в контексте всемирной истории. Тбилиси, 1996, с. 61-63.
16. Исмаилзаде Г.С. Тюркский период в наскальных изображениях Азербайджана. Журнал «Культурное наследие». Астана, 2009.
17. Джафарзаде И.М. Наскальные изображения Гобустана. Сб. статей – Археологические исследования в Азербайджане, Баку, 1965.
18. Исмаилзаде Г.С. Тюркский период в наскальных изображениях Азербайджана. Журнал «Культурное наследие». Астана, 2009.
19. Мурадова Ф.М. К истории изучения знаков и тамги высеченных на камнях в Азербайджане. МКА, т. VIII, Баку, 1973, с. 185-190.
20. Джафарзаде И.М. Гобустан – наскальные изображения, с. 61, камень 91.
21. Наджафзаде А.Г. Гавалдаш. Журнал İrs -Наследие. Баку – Москва, 2008, № 6 (36).

22. Фараджева М.Н., Чашечные углубления Гобустана. Баку, 2007.
23. Тумбиль Н.Х.Римская надпись I века н.э. обнаруженная в пределах Азербайджана. Доклады Академии Наук Азербайджана. Баку, 1948.

## QOBUSTAN QAYAÜSTÜ TƏSVİRLƏRİNİN DÖVRÜ TƏSNİFATINDA XRONOLOJİ ARDICILLIQ MƏSƏLƏSİ

**Qüdrət İsmayılzadə**

### Xülasə

**Açar sözlər: Qayaüstü incəsənət, xronologiya, cızma üsulu, irs, qaya, döymə.**

Zəngin qayaüstü təsvirlərə malik Qobustanın dünya incəsənəti tarixində xüsusi yeri vardır. Elmi və bədii əhəmiyyət kəsb edən Qobustan rəsmlərində böyük zaman kəsiyinin ardıcıl inkişaf mərhələləri özünün əyani təsvirini tapmışdır. Son tədqiqatlarla müəyyən olunmuşdur ki, onların ən qədim nümunələri yuxarı paleolitdə çəkilmişdir. Daş dövürünün sonrakı mərhələlərində – mezolit və neolit dövrlərində qayaüstü incəsənət nümunələri daha da artmış, öz rəngarəngliyi və bədii xüsusiyyətləri ilə seçilmişdir. Qobustanda metal dövrünün bütün ardıcıl mərhələlərinə aid də təsvirlər aşkar olunmuşdur. Onların hər birində uzaq keçmişin iqtisadi və ictimai həyatı, mürəkkəb dünyagörüşü, mədəniyyət və incəsənəti əks olunmuşdur. Qobustan təsvirlərinin bir hissəsi orta əsrlərə ayrılıqda ilk və inkişaf etmiş orta əsrlərə və türk dövrünə həsr olunmuşdur. Burada hətta qədim Roma tarixinə aid də təsvir qeydə alınmışdır.

## ABOUT CHRONOLOGICAL SEQUENCES OF THE ROCK PAINTINGS OF GOBUSTAN

**Gudrat Ismailzadeh**

### Summary

**Key Words: Rock carving arts, chronology, heritage, rock, engrave.**

Historical territory of Azerbaijan is rich with ancient rock paintings. Gobustan has a special place in the history of world art. Systematic stages of big-time period have found its visual evidence in Gobustan paintings, which has a scientific and artistic significance. In recent studies it has been determined that the most ancient samples of them were engraved in the Upper Paleolithic Period. The rock art samples had increased even more, distinguished by their diversity and artistic fea-

tures in the later stages of Stone Age – Mesolithic and Neolithic periods. The paintings of all systematic stages of metal era have been found in Gobustan as well. The economic and social life, complicated outlook, culture and art of ancient times have been reflected in each of them. Some of the rock paintings of Gobustan have been dedicated to Early and High Middle Ages and Turkish period. Sample, even belonging to ancient Roman history has been engraved here.

.

# ŞİMALİ AVRASİYADA KURQAN DƏFN ADƏTİNİN YARANMA AREALI BARƏDƏ HİPOTEZLƏR

**Pərviz Qasımov**
(AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu)
gasimovparviz@yahoo.com

**Açar sözlər: kurqan, eneolit, tunc dövrü, Maykop mədəniyyəti, Leylatəpə mədəniyyəti.**

Əksər tədqiqatçıların fikrincə kurqan tipli dəfn abidəsini qurmaq ənənəsi yalnız yarımköçəri və köçəri maldarlar üçün xarakterik idi və bu ənənə eneolitin sonunda Şimali Avrasiya çöl zolağında, məhz maldar əhali arasında peyda olur [1, s.29; 2, s.207; 3, s.208; 4, s.14].

Şimali Avrasiyada kurqan dəfn adətinin genezis ocağının coğrafi lokallaşması barədə elmdə bu günədək mövcud olan fikirləri ümumiləşdirərək onları şərti olaraq dörd yerə ayırmaq mümkündür: “Cənubi Volqa – Cənubi Ural – Şimali Xəzər çöl arealı”, “Şərqi Avropa – Şimali Qara dəniz çöl arealı”, “Pont – Ön Qafqaz arealı” və “Leylatəpə–Maykop erkən kurqanlar mədəni bloku” mənşəyi hipotezləri.




Şəkil 1. Hipotezlərdə kurqan dəfn ənənəsinin yaranma arealları I.“Cənubi Volqa – Cənubi Ural – Şimali Xəzər çöl arealı”;II.“Şərqi Avropa – Şimal Qara dəniz çöl arealı”; III.“Pont – Ön Qafqaz arealı” ; IV.“Leylatəpə–Maykop erkən kurqanlar mədəni bloku”.

**“Cənubi Volqa – Cənubi Ural – Şimali Xəzər çöl arealı”**

Sələfləri Viktor Henin, Otto Şraderin, Vir Qordon Çayldın və xüsusilə, Ernest Valenin fikirlərini [5, s.5-6,27-29,31-32,85; 6, s.102-119] öz nəzəriyyəsində (“Kurqan hipotezi”) inkişaf etdirən Litva mənşəli amerikalı alim Mariya Gimbutasa görə, bu regionda yaranmış kurqan dəfn ənənəsi 4 dövr və 4 miqrasiya dalğaları ilə Avrasiyaya yayılmışdır [7; 8, s.387-425; 9, s.27] **(şəkil 1, I)**.

Eyni mövqedə, yəni kurqan dəfn adətinin həmin coğrafiyada yaranışı və xüsusilə, Yamnaya mədəniyyətinin Avropaya “şərqdən gəlmə” olması fikrində N.Y. Merpert [10, s.75,76;11, s.109], V.N. Danilenko [12, s.33, 40, 81], S.V. İvanova, V.Q. Petrenko, N.Y. Vetçinnikova [13, s.125], V. Derqaçev [14] və d. dururlar.

***Nəzəriyyənin tənqidi.*** Öz dövründə M. Gimbutasın nəzəriyyəsində “kurqan mədəniyyəti” və “vahid kurqan etnosu” barədə anlayışın əsassız olduğunu N.Y. Merpert [11, s.109] bildirmişdi. M. Gimbutasın kurqan dəfn ənənəsinin ilk protoformasının Samara mədəniyyətində formalaşması barədə fikri [8, s.391-392] öz dəqiq təsdiqini tapmır; Samara eneolit mədəniyyəti üçün kurqan örtüklü dəfn adəti xarakterik deyil [15].

İ.B. Vasilyevə görə, M. Gimbutasın fikrinə [8, s.392 - 393] zidd olaraq Xvalınsk mədəniyyətində kurqan dəfn adəti olmayıb [16, s.63].

ABŞ tədqiqatçısı Filip Kolun fikrincə istifadə edilmiş Tripolye məskənlərin yandırılması ya torpağın “cavanlaşdırılması”, ya da hansısa dini-kosmoqonik rituallar ilə əlaqədardır və bunu köçərilərin təcavüzü ilə bağlamaq olmaz [17, s.51-52]. O, göstərir ki, eneolit – erkən tunc dövrü ilk köçəri maldarların cənub və qərbə axınlarını, ətrafa xaos saçan, “Köhnə Avropanı” məhv edən süvari döyüşçülərin mövcudluğunu sübut edən faktlar yoxdur [17, s.140-141]. S.V. İvanovaya [18, s.333] və V.S. Titova görə, nəzəriyyədə sxematiklik özünü doğrultmur,proseslərin miqrasiya və invaziyalarla izahı çox sadə baxışdır. Proses daha mürəkkəb idi və prosesin izahı o qədər də asan görünmür [13, s.115].

İngilis tədqiqatçısı A. Hardinq kurqan mədəniyyəti barədə M.Gimbutasın nəzəriyyəsini israrlığında daha çox doqmatik olduğunu vurğulamışdır [9, s.27-28]. Müxtəlif dövrlərdə M.Gimbutasın arxeologiyada miqrasiyanın müəyyən edilməsi metodu D. Entoni, C. Çapman, P. Doluxanov, S. Konça və d. tərəfindən ciddi tənqid edilmişdi [19, s.201].

Eyni zamanda tənqidçilər M.Gimbutasın nəzəriyyəsindəki Qədim Avropanın Ana-Tanrıça və matriarxat haqqında fikirlərini elmə aid olmayan “eko-feminizm” kimi dəyərləndirmişlər [20, s.90-96]. J.C.Kerns və A. Hausler isə, Vale-Güntert-Gimbutas konsepsiyasının irqçi mahiyyət daşıdığını bildirmişlər [5, s.44-45].

**“Şərqi Avropa – Şimal Qara dəniz çöl arealı”**

V.A.Safronova görə, kurqan dəfn adəti ilk dəfə Avrasiyada e.ə.IV minilliyin 3-cü rübündə Qıfaoxşar Qədəhlər Mədəniyyətinin/QQM (arxeoloji ədəbiyyatda ingiliscə Funnel Beaker Culture/FBC) təsiri altında peyda olur. O, konkret olaraq müasir Moldovanın şimalını kurqan dəfn adətinin erkən ocaq arealı kimi göstərir [21, s.123,153-154,199-200,203] **(şəkil 1, II)**.

Y.Y. Rassamakinin kurqanaltı dəfnlərin Sredniy Stoq mədəniyyətinin sonunda ("post-Stoq" qrupunda) peyda olması fikrinə [18, s.331]əsaslanan L.S. Kleynə görə, kurqan tipli dəfn abidəsinin inşa ideyası sərdabə tikmək üçün sal qaya daşlarının az olduğu regiona Qərbdən gətirilir və sərdabənin torpaqdan inşası ilə bağlıdır [22].

Mariya Gimbutasın "kurqan nəzəriyyəsini" tənqid edərək, ukraynalı tədqiqatçı Y.Rassamakinə [23, s.63;24, s.303] görə, Şimali Qara dəniz çöllərinin maldar əhalisi monumental memarlıq (o cümlədən, kurqan) impulsunu Maykop-Novosvobodnaya (Şimali Qafqaz) mədəniyyətindən deyil, Cənub-Şərqi Avropadan (Kukuteni-Tripolye mədəniyyətindən) almışdır [24]. Bütövlükdə Y. Rassamakin köçəri çöl maldar mədəniyyətinin və kurqan dəfn adətinin qərbdən şərqə oturaq-əkinçi Avropa əhalisinin hərəkəti dinamikasında yarandığını göstərərək V.A. Safronovla və L.S. Kleynlə bu mənada, tam olmasa da, həmfikirdir [18, s.331-332; 4, s.13].

İlk dəfə T.Q. Movşa [25], daha sonra F.L. Kol [4, s.13], İ. Manzura [26], D.L.Teslenko [27, s. 81] da e.ə. IV minillikdə Şərqi Avropadakı iqlimin aridizasiyası ilə əlaqədar oturaq əhalinin köçəri maldarlığa keçməyə vadar olduğunu ("tripolyelilərin çölə hərəkəti") və bu kontekstdə kurqan dəfn abidəsinin yaranması fikrini bildirirlər.

***Nəzəriyyənin tənqidi.*** V.A. Safronovun çöl "meqalitik memarlığı", Yamnaya mədəniyyətinin Mərkəzi Avropadan gəlmə olması barədə fikirlərini, yol verdiyi konseptual ifratçılığı L.Kleyn tənqid etmişdir [22].

Y. Rassamakin öz hipotezinə gətirdiyi əsaslar sırasında radio-karbon analizi nəticələrinin problemliyini və həmçinin, həmdövr arxeoloji mədəniyyətlərin dövrləşməsindəki çətinlikləri də etiraf edir [27;28, s.127;29].

Digər tərəfdən, o, qeyd edir ki, erkən kurqanların protoforması hesab etdiyi kairnlərin göstərilən ərazilərdə tezliyi müəyyən edilməyib və onların arxeoloji sənədləşdirilməsi ürəkaçan durumda deyil [24, s.294-296].

Həmçinin, problemə həsr edilmiş tədqiqatlarda [30; 31; 32] biz heç zaman Cənub – Şərqi Avropanın neolit əkinçi əhalisinin yalnız öz potensialı hesabına transformasiyası barədə fikirləri müşahidə etmirik. Söhbət yalnız müxtəlif təsərrüfat daşıyıcılarının sintezindən, diffuzional proseslərdən gedə bilər.

**"Pont – Ön Qafqaz arelı"**

Bu hipotezi S.N. Korenevski irəli sürmüşdür. Onun nəzəriyyəsi ukraynalı tədqiqatçı N.S. Kotovanın konsepsiyasına əsaslanır **(şəkil 1, III)**.

N.S. Kotova göstərir ki, ilk kurqan dəfn adəti Şərqi Avropada Sredniy Stoq mədəniyyətinin şərq variantının (Kalmius və Don çayarası, Severski Donetsin hövzəsi) erkən dövründə (e.ə. 5300 – 4800-cü illərdə, Tripolye BI dövründə) ortaya çıxır. Bu dəfn adəti mədəniyyətin qərb variantında (Dneprboyu çöl və Azov boyunun qərbi) isə, bir qədər gec, orta dövrdə (e.ə. 4800 – 4350/ 4300-cü illər) peyda olur. N.S. Kotovaya görə, Sredniy Stoqun şərq variantında erkən kurqanaltı və kurqansız qrunt dəfnlərində bel üzərində cəsədin dizdən bükülü pozada yerləşdirilməsi, oxradan istifadə, dəfn xəndəklərinin döşəməsinə təbaşirin və kömürün/külün tökülməsi xarakterik idi. Şərq variantının üçüncü (e.ə. 4350/4300 – 4200-cü illər) dövründə isə, böyrü üstə bükülü poza, daş kromlex, keramikalı trizna qalıqları peyda olur. Tədqiqatçı erkən Sredniy Stoq kurqanaltı dəfnlərinin tarixini radiokarbon xronologiyasından daha çox stratiqrafik tipologiyaya əsaslanaraq təqdim edir və burada istinad kimi Tripolyenin dövrləşdirilməsini götürür. Həmçinin, N.S. Kotova Ön Qafqazın erkən kurqan dəfn abidələrini Sredniy Stoqluların Ön Qafqaza miqrasiyasının nəticəsi hesab edir [33, s.13-15;34, s.12-13,74].

N.S. Kotovanın ortaya qoyduğu tədqiqat nəticələri fonunda kurqan dəfn ideyasının qərbdən (Mərkəzi Avropadan) gəlmə olması barədə V.A. Safronov, L.S. Kleyn və d., həm də Şimali Xəzər, Volqa – Don arealı barədə M. Gimbutas və d. fərziyyələri öz aktuallığını itirir.

N.S. Kotovanın mülahizələrinə əsaslanan S.N. Korenevskiyə görə, e.ə. V minilliyin II yarısında, "Pont – Ön Qafqaz" birliyinin protoYamnaya mədəniyyəti kurqanaltı dəfn adətinin daşıyıcısı olan tayfalar qeydə alınır ki, onlar da daha əvvəlki Xvalınsk – Sredniy Stoq adətlərini davam etdirirdilər. İlk kurqanlarda dəfn tikililərinin ən geniş yayılmış forması çalalar idi, amma nadir də olsa katakombalara rast gəlmək olar [35, s.195].

S.N. Korenevski bildirir ki, beli üstə ayaqları bükülü poza neolit və erkən eneolitdə Azərbaycanda Kültəpə I (Naxçıvan), Leylatəpə mədəniyyətinə aid Poylu II məskəninin 1, 2 saylı dəfnlərində və İrandakı Təpəhissar nekropolunda aşkar edilib. Bu isə, həmin ritualın ümumi universal kontekstdə anlanılmasını şərtləndirir [34, s.92].

Korenevski erkən Maykop kurqanlarını e.ə. 40-37-ci əsrlərə, yəni e.ə. V minilliyin sonu, IV minilliyin I yarısına aid olduğunu ehtimal edir. MNB-nin kurqan adətinin çiçəklənmə dövrünü isə, e.ə. 37/36 – 34 əsrlərə aid edir [34, s.100-101].

***Nəzəriyyənin tənqidi.*** S.N. Korenevskinin özü də N.S. Kotovanın mülahizələrinə tənqidi yanaşaraq göstərir ki, Kotovanın Ön Qafqaz və Şimali Qara Dəniz sahili areallarındakı kurqan abildələrinin xronoloji sxemi yalnız arxeoloji analogiyalar üzərində qurulub və radiokarbon analizində dəqiqləşdirilməsinə böyük ehtiyacı vardır. Digər tərəfdən, Ön Qafqazda Sredniy Stoq mədəniyyətinin məskənləri aşkar edilməmişdir [34, s.12,13].

S.N. Korenevski hesab edir ki, məhz Dneprboyu, Volqa-Don çayarası və Ön Qafqaz ərazilərində quyularda və katakombalarda dəfnlər üzərində kurqan inşaasının ən erkən abidələri mövcuddur. Bu abidələrin sayı Ön Qafqaz və Şimali Qara dəniz sahilboyu çöllərdə 40-dan yuxarıdır. Amma bu kurqanların erkən yaşı (Çoqray II nekropolunun 12 saylı kurqanın 3 saylı dəfni, Tipki 2 saylı kurqanının 16 saylı dəfni və d.) hələ də yeni məlumatları tələb edir. Yəni, S.N. Korenevski bu dəfn abidələrinin dəqiq xronologiyasının, hətta onlar üzərində kurqan örtüyünün mövcudluğunun da tam aydın olmadığını da etiraf edir [34, s.19-43,59,62,67-68,114].

S.N. Korenevskinin əsas arqumentlərindən biri Tipki nekropolunun (RF, Stavropol diyarının Turkmenski rayonu) 2 saylı kurqanındakı 16 saylı qurbangahdır. E.ə 49-48-ci əsrlərə aid qurbangah Ön Qafqazda kurqanın yaranmasının e.ə. V minilliyin I yarısına aparıb çıxarır. Korenevski özü də vurğulayır ki, bir tarixə görə nəticə çıxarmaq doğru deyil. Amma S.N. Korenevski erkən kurqanların V minilliyin əvvəlində yaranması fikrini istisna etmir. Misal kimi, Çoqray I nekropolundakı 12 saylı kurqanın 3 saylı katakomb dəfnindən aşkar edilmiş artefaktları (daha qədim Mariupol sümük plastinlərinə oxşar) əsas gətirir. Amma bu abidənin radiokarbon dövrləşməsinin olmadığını, Tipki nekropolunun 2 saylı kurqanındakı 16 saylı qurbangahının və Çoqray I nekropolundakı 12 saylı kurqanın 3 saylı katakomb dəfnin erkən yaşının dəqiqləşdirilməsinə ehtiyacın olduğunu bildirir [34, s.62, 68]. Beləliklə, Maykop mədəniyyətindən əvvəl Cənub-Şərqi Avropada kurqanların mövcudluğuna dəlil kimi gətirilən xronologiya problemlidir.

Digər tərəfdən N.S. Kotovanın kurqan dəfn abidəsinin yaranmasınadək Pont çöllərində mövcud Xvalınsk dəfnlərinin qədimliyinə gətirdiyi radiokarbon tarixlərinə münasibət də birmənalı deyil. Bu baxımdan Y.Y. Rassamakin bildirir ki, Xvalınsk dəfnlərinin erkən tarixləri ilə kalibrlənmiş radiokarbon analizinin verdiyi fərqlər,tarixlərin təkrarən yoxlanılması ehtiyacını ortaya qoymuşdur. O, Kotovanın təqdim etdiyi tarixləri şübhə altına alır. N.İ. Şişlina isə, Xvalınsk tarixlərini "rezervuar effektini" nəzərə alaraq yenidən analiz etmiş və cavan tarixlər (əvvəlki ilə müqayisədə radiokarbon 300 – 350 il ?!) almışdır [29, s.289-293].

2007-ci ildə N.İ. Şişlina özünün fundamental tədqiqatında bu məsələyə toxunaraq RFEA Coğrafiya İnstitutunun radiokarbon analizi laboratoriyasının qüsurlarını qeyd etmişdi. Onunla razılaşmadığına baxmayaraq S.N. Korenevski də həmin laboratoriyanın texniki qüsurlara malik olmasını istisna etməmişdir [36, s.86, tablo 2a, qeyd,89 – 91].

D. Y. Telegin isə, Xvalınsk mədəniyyətinin daha qoca olduğunu bildirir və bu iddia nəinki, Korenevskinin qurduğu modeli, eləcə də bütünlüklə Yamnaya qədər və Maykopa qədər Pont-Ön Qafqaz eneoliti barədə formalaşmış baxışları ciddi şübhə altında qoyur [37, s.118]. Görünən budur ki, bi-

rincisi, Xvalınsk mədəniyyətinin mütləq xronologiyası problemlidir. İkincisi, Ukrayna və Rusiya radiokarbon analizi mərkəzlərinin nəticələrinə münasibət birmənalı deyil.

Həmçinin, S.N. Korenevski "Pont – Ön Qafqaz" blokunun genetik əcdadı hesab etdiyi Sredniy Stoq və Xvalınsk mədəniyyətində dəfn adəti, heç də onun göstərdiyi [34, s.92-96] standartlara malik homogen deyildi. Əvvəla, Xvalınsk mədəniyyətində oxra ilə heç də skeletin ayaq altları deyil, kəllə və çanaq sümükləri boyanırdı, cəsədlərin hamısı beli üstə bükülü vəziyyətdə deyil, həm də sağ və ya sol böyrü üstə, yarımoturaq və oturaq vəziyyətdə dəfn edilmişlər. Həm də, təkrar dəfn də izlənilib [16, s.64-65;38]. Repinsk mədəniyyətində erkən kurqanaltı dəfnlərdəki skeletlər isə, bel üstə uzadılmış vəziyyətdə idi [39, s.28-29].

M.V. Rısin isə, Maykop mədəniyyətinin radikarbon xronologiyası, Maykop öncəsi "Basma Muncuqlu Keramika mədəniyyəti" barədə S.N. Korenevskinin gətirdiyi əsasları bütünlüklə şübhə altına alır. Bu kontekstdə o, S.N. Korenevskinin radiokarbon tarixləri ilə subyektiv manipulyasiya etdiyini, rezervuar effektini nəzərə almadığını bildirir və ümumiyyətlə, MNB-nin erkən dövrünü e.ə. IV minilliyin II yarısı – III minilliyin əvvəlinə aid edir [40; 41].

**"Leylatəpə – Maykop erkən kurqanlar mədəni bloku"**

İlk dəfə N.Müseyibli Soyuqbulaq kurqanlarına istinadən bu fikiri irəli sürür [47; 48]. 2003 – 2004-cü illərdə isə, Y.N. Çernıx və L.B. Orlovskayanın Yamnaya mədəniyyətinə aid radiokarbon analizlərinin nəticələrindən gəldikləri qənaətə görə, Yamnaya mədəniyyəti ilə genetik bağlı olan çöl mədəniyyətlərində kurqan dəfn adəti Maykop mədəniyyəti çevrəsinə daxil tayfaların təsiri altında yaranmışdır[44, s.97; 45, s.260]**(şəkil 1, IV)**.

Y.N. Çernıxın fikrincə, Maykop mədəniyyəti yerli köçəri-maldarlara özündən əvvəl olmayan iki yenilik bəxş elədi: kurqan dəfn adətini və onlar tərəfindən istehsal edilən metal məmulatlarının formalarını [3, s.212,219]. Bu nəticə, Maykop mədəniyyətinə qədər kurqan dəfn adətinin Pont – Ön Qafqaz arealında, post-Sredniy Stoq və ya post-Xvalınsk mədəniyyətləri çərçivəsində yaranması barədə mövcud olmuş mülahizələri alt-üst edir. Həmçinin, Pont – Ön Qafqazın, yəni, Cənub – Şərqi Avropanın "eneolit erkən kurqanlarının" radikarbon analizlərinin dəqiqliyini şübhə altına alır **(şəkil 2)**.

Bir qədər sonra Q. F. Korobkova, M.V. Rısin və O.Q. Şapoşnikovanın müştərək tədqiqatında eyni fikir təkrar olundu [46, s.229-230;34, s.11-12]. Beləliklə, onlara görə, Yamnaya mədəniyyətinin ən qədim ocağı Volqa – Ural regionundadır, bu mədəniyyətdə ən qədim kurqanlar isə, Maykop mədəniyyətinin təsiri altında yaranır.

F. Kol və V.A. Trifonovun birgə məqaləsində şərti qeyd etdiyimiz Leylatəpə – Maykop çevrəsi erkən kurqanları (Soyuqbulaq, Kavtisxevi, Si




Şəkil 2. Qədim Yamnaya və Maykop mədəniyyətləri üçün kalibrlənmiş radiokarbon tarixlərin ehtimal məcmusunun tutuşdurulması (Çernıx Y.N. və Orlovskaya L.B., 2004)

girdan və d.) regionda və Şimali Avrasiya çöllərində ən erkən kurqanlar kimi göstərilirlər [47, s.1577]**(şəkil 3)**.

| | | | | |
|---|---|---|---|---|
| Beta 221000 | Kurgan 9. Animal bone | 4810 +/- 40 BP | Cal BC 3660 to 3520 | Cal BC 3650 to 3630 and Cal BC 3570 to 3540 |
| Beta 221001 | Kurgan 8. Charcoal | 4990 +/- 40 BP | Cal BC 3930 to 3860 and Cal BC 3810 to 3670 | Cal BC 3790 to 3710 |
| Beta 226237 | Kurgan 11. Charcoal | 5020 +/- 40 BP | Cal BC 3950 to 3700 | Cal BC 3930 to 3870 and Cal BC 3810 to 3760 |
| Beta 232338 | Kurgan 14. Animal bone | 4880 +/- 40 BP | Cal BC 3710 to 3630 | Cal BC 3700 to 3640 |

Şəkil 3. Soyuqbulaq kurqanlarının radiokarbon tarixləri (Müseyibli N., 2014)

Hal-hazırda, N. Müseyibli kurqan dəfn adətinin Leylatəpə mədəniyyəti çevrəsində, Şərqi Anadolu və Şimali Mesopotamiya eneolit mədəniyyəti-

nin zamana və məkana görə, Cənubi Qafqazdan keçərək şimala hərəkəti dinamikasında yaranması hipotezini irəli sürmüşdür [48, s.80]. Amma tədqiqatçı Cənub – Şərqi Avropanı ayrıca eneolit kurqan dəfn adəti ocağı kimi qəbul edir [48, s.75-76].

***Nəzəriyyənin tənqidi.*** Bu hipotezin ən böyük tənqidçisi S.N. Korenevskidir. Onun Maykop mədəniyyətinə qədər Ön Qafqazda və Sredniy Stoq mədəniyyətinin şərq blokunda yaranması barədə fikrinə gətirdiyi mübahisəli dəlillər yuxarıda qeyd edilmişdir.

Nəzəriyyənin ikinci tənqidçisi, N.L. Morqunovadır. O və digər tədqiqatçılar Y.N. Çernıx və L.B. Orlovskayanın gəldiyi nəticələrlə razılaşmayaraq, Yamnaya mədəniyyətinin MNB-yə münasibətdə qədimliyinə və ya həmdövrlüyünə əsas kimi keramikanın, yəni qeyri-üzvü materialın radiokarbon analizi metodunu irəli sürmüşlər. 2005-ci ildə tədqiqatçı N.P. Saluqina və 2011-ci ildə Y.N. Çernıx və L.B. Orlovskaya Yamnaya mədəniyyəti üçün keramikanın radiokarbon analizindən alındığı nəticələrin şübhəli olmasını və bunu süni surətdə abidələrin qədimləşdirilməsi tendensiyası kimi qeyd etmişlər. Buna baxmayaraq N.L. Morqunova analiz üçün götürülmüş keramika nümunələrinin lil və balıqqulağı hissəciklərindən təmizləmə metodunun artıq mövcud olmasını iddia edir. Həmin metodla təmizlənmiş keramika nümunələrinin radiokarbon analizinə əsaslanan N.L. Morqunova iddia etmişdir ki, Yamnaya kurqanları Maykop kurqanlarından cavan ola bilməzdi və hər iki mədəniyyətin kurqanları ən azından həmdövrdürlər, həmçinin, erkən Yamnaya kurqanları Maykop mədəniyyətilə təmasda Ön Qafqazda deyil, Volqa – Ural arealında yaranmışlar. Bu cür mülahizə təmamilə, Y.N. Çernıx və L.B. Orlovskayanın gəldiyi nəticələrdən fərqlənir.

Amma N.L. Morqunova “sığorta” məqsədi ilə digər etirafı da etmişdir. Belə ki, tədqiqatçıya görə, lil və yanmış balıqqulağı ovuntusundan təmizlənmiş Yamnaya keramika nümunələrinin radiokarbon analizi digər materialların radiokarbon analizi göstəricilərilə üst-üstə düşmür; bəzən abidəni “cavanlaşdırır”, bəzən “qocaldır”[49, s.8-9,12,19- 20].

Beləliklə, cari dövr üçün kurqan dəfn adətinin yaranma arealı barədə bunları deyə bilərik:

1) Son radiokarbon analizlərinə görə, Leylatəpə –Maykop mədəni çevrəsinə aid kurqanlar ən erkən kurqan tipli abidələrdir. Leylatəpə –Maykop mədəni çevrəsi öz dövrü üçün kurqan dəfn ənənəsinin ayrıca və müstəqil yaranma ocağı kimi dəyərləndirilməlidir. Bizim fikrimizcə, kurqan dəfn adəti məhz Leylatəpə - Maykop çevrəsində yaranır, daha sonra Cənub – Şərqi Avropa son eneolit – erkən tunc mədəniyyətlərində (Sredniy Stoq və Yamnaya) isə, bu adətin peyda olması Leylatəpə - Maykop erkən kurqanlar blokunun mədəni təsiri ilə bağlıdır.

2) Leylatəpə –Maykop mədəni çevrəsindən tam fərqli digər kurqan tipli abidə adətinin müstəqil ocağı kimi e.ə. V minillikdə Kerni (və ya Serni, Şimali Fransa ovalığı, Paris hövzəsi) mədəniyyəti arealını göstərmək olar. Amma Leylatəpə – Maykop mədəni çevrəsindən fərqli olaraq Kerni mədəniyyəti kurqan örtükləri yerüstü meqalitik tikililər üzərində qurulurdu. S. Korenevski qeyd edir ki, e.ə. IV minilliyə aid Avropanın meqalitlər üzərində erkən kurqan örtüklərinin strukturu barədə məlumatlar çox azdır. E.ə. IV minilliyin sonu –III minilliyin əvvəllərində Qaytanlı Keramika Mədəniyyətinin Mərkəzi Avropada yaranışına qədər onlar barədə nə isə dəqiq bir şey demək mümkün deyil [34, s.60,117]. Həmçinin, Kerni abidələri ilə əlaqəli, biz Y. Rassamakinin qeyd etdiyi [24, s.293] kimi, "kurqan" termininin dəqiqləşdirilməsi problemi ilə üzləşirik.

**Ədəbiyyat**

1. Белов А. Ф., Ляшко С. И. Об одном из аспектов возникновения курганного погребального обряда степей Восточной Европы //Древности степного Причерноморья и Крыма, Сборник научных трудов, т. II, Запорожье, 1991, с. 28 – 30
2. O'Shea, J., Milner, C.M.,. Material indicators of territory, identity and interaction in a prehistoric tribal system. In: Parkinson, W.A. (Ed.), The Archaeology of Tribal Societies, vol. 15. International Monographs in Prehistory, Ann Arbor, Mich., 2002, pp.200-226
3. Черных Е.Н. Степной пояс Евразии: Феномен кочевых культур, Москва., 2009, 624 с.
4. Гей А.Н., О характере, критериях и векторах миграционных процессов бронзового века циркумпойтийской зоны / КСИА, вып.223, 2009 г., с. 13 – 19
5. Häusler, A., 2003, Nomaden, Indogermanen, Invasionen. Zur Entstehung eines Mythos, Orientwissenschaftliche Hefte 5. Mitteilungen des SFB „Differenz und Integration" 3, Halle-Wittenberg, Orientwissenschaftliches Zentrum der Martin-Luther-Universität. Sign.: II, wh 17, 130 p.
6. Чайлд Г. Арийцы. Основатели европейской цивилизации. Москва., 2007, 270 s.
7. Gimbutas M. "Prehistory of Eastern Europe, Part I. Mesolithic, Neolithic and Copper Age cultures in Russia and the Baltic area". American School of Prehistoric Research, Peabody Museum, Harvard University, Bulletin No. 20 Cambridge, Massachussetts, 1956, 241 p.
8. Гимбутас М. Цивилизация Великой Богини: мир Древней Европы, Москва., 2006, 572 с.
9. Harding Anthony The tumulus in European prehistory: covering the body, housing the soul, Ancestral Landscapes: BURIAL MOUNDS IN THE COPPER AND BRONZE AGES (Central and Eastern Europe – Balkans –

Adriatic – Aegean, 4th-2nd millennium BC) Udine, May 15th-18th 2008, Lyon: Maison de l’Orient et de la Méditerranée, DL 2011, pp. 21 – 30
10. Мерперт Н.Я. Древнейшие скотоводы Вольжско-Уральского меж-дуречья, Москва.,1974, 173 с.
11. Мерперт Н.Я. Древнеямная культурно-историческая область и вопросы формирования культур шнуровой керамики // Восточная Европа в эпоху камня и бронзы, Москва., 1976, 103 – 129 с.
12. Даниленко В.Н. Энеолит Украины, Киев, 1974, 176 с.
13. Иванова С. В., Петренко В. Г., Ветчинникова Н. Е. Курганы древних скотоводов междуречья Южного Буга и Днестра. Одесса, 2005, 207 s.
14. Дергачев В.А. Два этюда в защиту миграционной концепции // Stratum plus. 2000, № 2. с. 188–236
15. История Самарского Поволжья с древнейших времен до наших дней. Каменный век / гл. ред. П.С. Кабытов . Самара :Изд-во Самар. Науч. центра РАН, 2000 , 311 с.
16. Васильев И.Б. Хвалынская энеолитическая культура Волго-Уральской степи и лесостепи (некоторые итоги исследования) // Вопросы археологии Поволжья, Самара, 2003, вып.3, ss. 61 – 99
17. Kohl, Philip L. The Making of Bronze Age Eurasia, Cambridge University Press, 2007, XXIII + 296 pp.
18. Иванова С.В. Исторические реконструкции и археологические реалии (ямная культурно-историческая область) // Наукові праціісторичного факультету ЗДУ, вип. XVII, Запоріжжя, 2004, с. 330-359
19. Frachetti M. D. Migration Concepts in Central Eurasian Archaeology // Annual Review of Anthropology, 2011, vol. 40, pp. 195-212
20. Anthony, David W. Nazi and eco-feminist prehistories: ideology and empiri-cism in Indo-European archaeology // P.L.Kohl and C.Fawcett (eds) “Natio-nalism, Politics and the Practice of Archaeology”, London: Routledge, 1995, pp. 82 – 96
21. Сафронов В.А. Индоевропейские прародины, Горький, 1989, 398 с.
22. Клейн Л. С. Древние миграции и происхождение индоевропейских народов Санкт-Петербург, 2007, 226 с. (əlyazma hüququnda)
23. Rassamakin Yu. Aspects of Pontic Steppe Development (4550-3000 BC) in the Light of the New Cultural-chronological Model // Ancient interactions: east and west in Eurasia/K.Boyle, C.Renfrew, M.Levine (eds.). – McDonald Institute Monographs, University of Cambridge, 2003, pp. 49 – 73
24. Rassamakin Yu. Eneolithic burial mounds in the Black Sea Steppe from the first burial symbols to monumental ritual architecture // Ancestral Lands-capes TMO 58, Maison de l’Orient et de la Méditerranée, Lyon, 2011, pp. 293-305
25. Мовша Т.Г. Взаємовідносини степових і землеробських культур в епоху енеоліту – ранньобронзового віку // Археологія, 1993,№ 3. Київ, с. 36-51

26. Manzura I. Kurgan Tradition in the Copper Age of Eastern and Central Europe: Comparative Analysis // ANCESTRAL LANDSCAPES: BURIAL MOUNDS IN THE COPPER AND BRONZE AGES (Central and Eastern Europe – Balkans – Adriatic – Aegean, 4th-2nd millennium BC) Udine, May 15th-18th 2008, (ABSTRACTS), Lyon : Maison de l'Orient et de la Méditerranée, DL 2011, p.19
27. ТесленкоД.Л. Об эволюции мегалитических сооружений в Северном Причерноморье и Приазовье (энеолит-ранний бронзовый век) // Матеріалита дослідження з археології Східної України. Від неоліту до кіммерійців: Зб. наук. праць/ Гол. ред. С.М.Санжаров, Вип.7, Луганськ: Вид-во СНУ ім. Даля, 2007, с.76-85
28. Late prehistoric exploitation of the Eurasian steppe by Levine M., Rassamakin Y., Kislenko A., Tatarintseva N., Cambridge,1999, 216 p.
29. Рассамакин Ю. Я. Новые даты к абсолютной хронологии эпохи энеолита степного Причерноморья (предварительная информация) // Археологический альманах, № 20, Актуальные проблемы первобытной археологии Восточной Европы, Материалы конференции посвященной 100-летию со дня рождения С. Н. Бибикова (1 – 3 октября 2008 года, Алушта, Крым, Украина, Донецк,Издательство «Донбасс»,2009, с. 289-296
30. Шмаглий Н.М., Видейко М.Ю. Курганы и проблема исчезновения трипольских протогородов // Древнейшие общности земледельцев и скотоводов Северного Причерноморья (V тыс. до н.э. – V в.н.э.), Киев, 1991, с. 55 – 56
31. Мовша Т.Г. Проблема взаимопроникновения степных и древнеземледельческих культур в эпоху энеолита и раннебронзового века // Древнейшие общности земледельцев и скотоводов Северного Причерноморья (V тыс. до н.э. – V в.н.э.), Киев, 1991, с. 56 – 58
32. Манзура И.В. Культурные общности восточноевропейских степей и Юго – Восточной Европы в эпоху энеолита – ранней бронзы // Древнейшие общности земледельцев и скотоводов Северного Причерноморья (V тыс. до н.э. – V в.н.э.), Киев, 1991, с. 58 – 60
33. Котова Н.С. Культурно-історичні процеси у північному Причорномор`ї у VI – V тис. до н.е., Автореферат дисертації на здобуття наукового ступеня доктора історичних наук, Київ – 2010, 30 с.
34. Кореневский С.Н. Рождение кургана (погребальные памятники энеолитического времени Предкавказья и Волго-Донского междуречья), Москва., 2012, 256 с.
35. Кореневский С. Динамика культурных поселенческих и погребальных комплексов древнейших земледельцев и скотоводов Предкавказья на фоне развития военизации общества в эпоху энеолита и раннего бронзового века (обзор проблемной ситуации) // Azərbaycanda Kültəpə abidəsinin kəşfinin 60 illiyinə həsr olunmuş "Qafqazın erkən əkinçilik

mədəniyyətləri” adlı beynəlxalq elmi konfransının (Bakı, 03 – 06 noyabr 2011) məqalələr toplusu, Bakı, 2012, ss. 195 – 200

36. Кореневский С.Н. Современные проблемы изучения Майкопской культуры // Археология Кавказа и Ближнего Востока. Сб. к 80-летию члена-корреспондента РАН, профессора Р.М. Мунчаева, Москва., 2008, с. 71 – 122
37. Телегин Д. Я. О хронологии и периодизации культур неолита и медного века Юго-Запада Восточной Европы. Понятие о нео-энеолитическом времени региона // Проблемы хронологии и этнокультурных взаимодействий в неолите Евразии (хронология неолита, особенности культур и неолитизация регионов, взаимодействия неолитических культур в Восточной и Средней Европе). — СПб: ИИМК РАН, 2004, с. 106 – 121
38. Шишлина Н. И. Северо-западный Прикаспий в эпоху бронзы (V–III тысячелетия до н.э.), Автореферат диссертации на соискание ученой степени доктора исторических наук, Москва, 2008, 48 с.
39. Юдин А.И. Культурно-исторические процессы в эпохи неолита и энеолита на территории Нижнего Поволжья, Автореферат диссертации на соискание ученой степени доктора исторических наук, Ижевск, 2006, 46 с.
40. Рысин М. Б. Проблемы хронологии и периодизации майкопских памятников Северного Кавказа (радиокарбонные датировки и традиционная археологическая типология) // Культуры степной Евразии и их взаимодействие с древними цивилизациями (Материалы международной научной конференции, посвященной 110-летию со дня рождения выдающегося российского археолога Михаила Петровича Грязнова), книга 2, Санкт-Петербург, 2012, с. 107-112
41. Рысин М. Б. Проблемы хронологии и периодизации древних культур Кавказа (радиокарбонная «революция» и традиционная археологическая типология) // Археологические вести, Ин-т истории материальной культуры РАН, вып. 18, СПб., 2012, с. 204 -231
42. Müseyibli N.Ə. Ağstafa rayonunda son eneolit dövrü kurqanları // «Azərbaycan arxeologiyası» jurnalı, Bakı, 2005, say 1-4, ss. 11-17
43. Мусеибли Н.А. Курганный могильник позднего энеолита у с. Союг Булаг в Азербайджане // Российская Археология, № 1, 2012, с. 16 – 25
44. Черных Е.Н., Орловская Л.Б. Радиоуглеродная хронология Древнеямной общности и истоки курганных культур // Российская Ахеология, № 1, 2004, с. 84 – 99
45. Черных Е.Н., Орловская Л.Б. Феномен Майкопской общности и ее радиоуглеродная хронология // Археология Кавказа и Ближнего Востока. Сб. к 80-летию члена-корреспондента РАН, профессора Р.М. Мунчаева, Москва., 2008. с. 259 - 275
46. Коробкова Г.Ф., Рысин М.Б., Шапошникова О.Г., 2009. Проблемы изучения древнеямной культурной общности в системе исследования Михайловского поселения // Stratum plus, № 2, 2005–2009. Кишинев, с.10 – 267

47. Kohl Ph., Trifonov V. The Prehistory of the Caucasus: Internal developments and external interactions // The Cambridge World Prehistory, edited by Colin Renfrew and Paul G. Bahn, 2013, Vol.III, part.7: pp. 1571-1595
48. Müseyibli N. Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri. Bakı, Nafta-Press, 2014, 140 s.
49. Моргунова Н.Л. Радиокарбонная хронология ямной культуры Волжско-Уральского междуречья // КСИА, Москва, 2013, с. 5 – 23

# HYPOTHESES ABOUT THE AREA OF ORIGIN OF KURGAN (BURIAL MOUND) TRADITION IN NORTHERN EURASIA

**Parviz Gasimov**

## Summary

**Keywords: burial mound, kurgan,barrow, Chalcolithic, Bronze Age, Maikop culture, Leylatepe culture.**

According to the most of the researchers, the tradition of constructing of burial mound first appeared among nomadic and semi-nomadic tribes of cattle-breeders at the steppes of northern Eurasia, at the end of the Chalcolithic period. Summing these thoughts we can divide them into four groups :**"Southern Volga – Southern Ural - Northern Caspian steppe area", "Eastern Europe - North Black Sea steppe area", "Pontic - Pre-Caucasus area", "Leylatepe-Maykop early kurgans unit"**.

In the article listed underlying arguments and criticism of opponents of those theories. Especially the last two theories are very relevant.

**"Pontic - Pre-Caucasus area"**

The hypothesis proposed by S.N. Korenevsky based on the results of the study of N.S. Kotova. According to the hypothesis, the origin and formation of the kurgan funeral tradition is localized in the area of the east variant of the SrednyStog culture at the end of VI and the beginning of V millenniums BC. According S.N. Korenevsky, the tribes of cultural community of "Pontic - Pre-Caucasus" (proto-Yamna, proto-Maykop) continued the tradition of Khvalynsk – SrednyStog.

***Criticism of the hypothesis.*** Critics have doubts about the data of the chronology of the kurgans on which this hypothesis is based. Also, the chronology of the Khvalynsk culture is problematic. It should also point out the technical and methodological errors of radiocarbon laboratories of the Institute of Environmental Geochemistry of National Academy of Sciences of Ukraine and the Institute of Geography, Russian Academy of Sciences.

**"Leylatepe-Maykop early kurgans unit"**

Firstly, N. Museibli approached closer to this hypothesis due to kurgans of Soyugbulag. At the moment according to his conception, kurgan burial tradition appeared in the dynamics of movement of East-Anatolian and North-Mesopotamian cultures through the South Caucasus to the North. But he assumes that Southeast Europe was a separate hotbed of kurgan burial rite.

Also E.N. Chernykh and L.B. Orlovskaya based on radiocarbon data concluded that the kurgan rite in the steppe cultures had appeared under the influence of the Maykop culture, which, according to the received dates (3950-3300 BC.), had a very late age. These conclusionshad been supported by G.F. Korobkova, M.B. Rysin, O.G. Shaposhnikova, Ph.L. Kohl, V.A. Trifonov.

***Criticism of the hypothesis.*** The arguments of critics of the theory are quite debatable.

At the present time, the above mentioned enable us to note two conclusions:

1) According to the radiocarbon data, the kurgans of the Leylatepe- Maykop circle are supposed to be the most ancient. For its time, the Leylatepe- Maykop cultural area should be considered as a separate centre appearance of the kurgan burial tradition. In our opinion, the rite of burial mound emerged under the influence of Leylatepe-Maykop culture unit in the late Chalcolithic - Early Bronze in the cultures of South-East Europe (Sredny Stog and Yamna cultures).

2) The area of Cerny culture (France) is supposed to be another centre appearance of the kurgan funeral tradition, or we have a clear problem in the definition of this type of monuments known as "kurgan".

## ГИПОТЕЗЫ ОБ АРЕАЛЕ ВОЗНИКНОВЕНИЯ КУРГАННОГО ПОГРЕБАЛЬНОГО ОБРЯДА В СЕВЕРНОЙ ЕВРАЗИИ

**Парвиз Гасымов**

### Резюме

**Ключевые слова: курганы,энеолит,бронзовый век,Майкопская культура, Лейлатепинская культура.**

Большинство исследователей придерживаются мнения, что курганный погребальный обряд возник в энеолите в среде полукочевых и кочевых скотоводов степей Северной Евразии. Суммируя предположения исследователей, условно можно показать 4 основные гипотезы локализации «прародины» курганного погребального обряда: **«Южно-волжский – южно-уральский – северокаспийский степной ареал», «Восточно-европейский – Северо-причерноморский степной ареал», «Понто – предкавказский ареал», «Лейлатепинско-майкопский блок ранних курганов».**

В статье перечислены основные доводы и критика оппонентов теорий. Особо актуальны две последние теории.

**«Понто – предкавказский ареал»**

Гипотеза выдвинута С.Н. Кореневским на основании результатов исследования Н.С. Котовой. По гипотезе очаг возникновения и формирования курганной погребальной традиции локализован в ареале восточного варианта Среднестоговской культуры в конце VI – в начале V тыс. до н.э. По С.Н. Кореневскому племена «понто-предкавказской» (протоямной, домайкопской) культурной общности продолжили хвалынско – среднестоговские традиции.

***Критика гипотезы.*** Критики указывают на сомнительность данных по хронологии курганов на основании которых выдвинута данная гипотеза. Так же проблематична хронология Хвалынской культуры, вызвавшая острый спор между учеными. Критики также отмечают технические и методологические погрешности радиоуглеродных лабораторий Института Геохимии Окружающей Среды НАН Украины и Института Географии РАН.

**«Лейлатепинско-майкопский блок ранних курганов»**

Ближе к данной гипотезе подошел Н. Мусеибли на основе данных Союгбулагских курганов. В данное время по его концепции, курганный обряд появился в динамике передвижения восточно-анатолийских и северно-месопотамских культур на север. Но он считает, что Юго-Восточная Европа была отдельным очагом курганного погребального обряда.

Также Е.Н. Черных и Л.Б. Орловская на основе радиоуглеродных данных пришли к выводу о том, что курганный обряд у степных культур появился под влиянием майкопской культуры, которая, согласно полученным датам (3950–3300 гг. до н.э.), не имеет очень древний возраст. Предположение ученых ставит вопрос полного пересмотра хронологий степных культур Понто – Южно-уральских неолитических и энеолитических культур. Выводы Е.Н. Черных и Л.Б. Орловской были поддержаны Г.Ф. Коробковой, М.Б. Рысиным, О.Г. Шапошниковой, Ф. Колем, В.А. Трифоновым.

***Критика гипотезы.*** Доводы критиков теории довольно спорны.

На текущее время учитывая вышесказанное, можно сделать два вывода:

1) По данным радиоуглеродных анализов курганы лейлатепинско-майкопского круга являются самыми древними. Для своего времени лейлатепинско-майкопский культурный ареал должен рассматриваться как отдельный, независимый очаг появления курганного погребального обряда. По нашему мнению, в поздне энеолитических – раннебронзовых культурах Юго-Восточной Европы (в восточном варианте Среднестоговской и Ямной культурах) курганный обряд погребения появился под влиянием лейлатепинско-майкопской культуры.

2) Другим отдельным очагом формирования курганного погребального обряда возможно был ареал культуры Серни (Франция), или же мы имеем явную проблему в определении данного типа памятников этой культуры как «курганы».

# О ПОГРЕБАЛЬНЫХ ПАМЯТНИКАХ НАХЧЫВАНА ЭПОХИ ПОЗДНЕЙ БРОНЗЫ И РАННЕГО ЖЕЛЕЗА

**Бахлул Ибрагимли**
(Институт Археологии и Этнографии НАН Азербайджана)
ibrahimlib@mail.ru

**Ключевые слова: Нахчыван, погребальный памятник, поздняя бронза, раннее железо.**

Вторая половина II тыс. до н. э. и первая половина I тыс. до н. э. для Южного Кавказа характерны резкими изменениями в политике и экономике, а также в материальной и духовной культуре. Значительная часть религиозных представлений древних племён была отражена в погребальном обряде. Обнаруженные нами погребальные памятники дают возможность воссоздать погребальный обряд эпохи поздней бронзы и раннего железа со всеми процессиями и ритуалами, иногда до мельчайших его деталей.

На территории Нахчыванской АР Азербайджана хорошо изучены погребальные памятники, расположенные в устье реки Гиланчай, притока Аракса. Самые ранние погребения обнаружены на могильниках Пловдага. Здесь исследованы 6 некрополей, которые охватывают периоды от ранней бронзы до античного времени. На Пловдаге могильники расположены рядом с поселениями и охватывают территорию в несколько раз превышающие площадь самого поселения. Здесь три уровня могил последовательно перекрывают друг друга. Самые нижние могилы обнаруженные в центральной и северо-восточной частях могильника подкурганные грунтовые, расположены прямо на строениях поселения периода ранней бронзы (рис.2). Эти ранние Пловдагские курганы небольшие, круглые в плане с земляным насыпом. Диаметр этих курганов не более 3-х метров. Круглые или четырехугольные в плане (1,7х1,0 м) могильные ямы заглублены в землю на 0,7-1,2 м. Вокруг могильной ямы на поверхности земли выкладывалось кольцо – кромлех диаметром до 9 м (9, 86-89). Камни кромлеха кургана крупные, высота некоторых из них достигает до 1,0-1,2 метра.

В этих грунтовых погребениях на глубине 0,7-1,2 м обычно лежал один скелет в скорченном виде на правом (женщины) или на левом (мужчины) боку, головой, в основном, на восток. Вокруг скелета лежали несколько глиняных сосудов. Среди находок можно отметить серо-черноглиняную керамику, изделия из кости и редко, из меди. В относительно больших могилах рядом со скелетом, в частности у голо-

вы, были обнаружены останки (череп и кости конечностей) мелкого рогатого скота.

Почти во всех грунтовых погребениях в правой руке покойного находилась сероглиняная грубоформованная чаша.

Эта традиция бытовала у древних племен Нахчывана и в энеолитическом периоде и видимо сохранилась до конца эпохи ранней бронзы. Могилы с аналогичным погребальным обрядом были раскопаны О.А.Абибуллаевым в энеолитическом слое поселения Кюльтепе I. По его описанию, в Кюльтепе I «...погребенный в сильноскорченном положении лежит на левом боку (мужчина – Б.И.), головой к северу. Руки согнуты в локтях и приподняты к лицу… Чашечка лежала на руке погребенного. Она вылеплена очень грубо из глины с примесью соломы. Обжиг неравномерный, черепок красновато-желтого оттенка с черной прослойкой в изломе. Дно плоское, стенка чуть выпуклая, расширяется к отверстию. Венчик прямой, не выраженный. Поверхность шероховата» (1, 48, №24). Как видно из описания, не только тип могилы и положение скелета, но и керамический инвентарь (особенно, чаша на руке покойного) очень схожи по форме и фактуре материалам подкурганных грунтовых погребений Пловдагского могильника. Кстати, данный признак погребального обряда в других памятниках Южного Кавказа пока не отмечен.

У некоторых курганов с восточной стороны кромлеха была пристроена маленькая четырехугольная камера (0,3-0,5 м х 0,6-0,8 м), условно названная археологом Г.М.Аслановым «жертвенником». Стены и перекрытия жертвенника сложены из разных каменных плит. В них, кроме нескольких глиняных сосудов, ничего не было обнаружено.

Археологические исследования показывают, что Пловдаг имеет свои локальные особенности, которые пока еще не встречены в других памятниках куро-аракской культуры и в культурах средней и поздней бронзы, вне территории Нахчывана.

На Пловдагских могилах на всем протяжении эпохи бронзы прослеживается устойчивый погребальный обряд. Более или менее существенные изменения в нем появляются в конце III тыс. до н.э. и где-то XV-XIV вв. до н.э. Следует отметить, что и после этих изменений продолжали существовать и даже развиваться (например «жертвенники») основные атрибуты погребального обряда предыдущих периодов.

Итак, ранние могилы Пловдага имеют следующие характерные особенности:

1. Эти могилы курганного типа (диаметр до 9-ти м) с кромлехом в основании.

2. Имеют грунтовую четырехугольную или круглые в плане погребальную яму, заглубленную в землю 0,7-1,2 м.

3. Покойник захоронен в скорченном положении головой почти всегда на восток (с незначительными отклонениями на юг).

4. Почти во всех грунтовых погребениях в правой руке покойника находилась глиняная чаша.

5. Некоторые могилы, кроме основной погребальной камеры, имеют еще пристроенную с восточной стороны небольшую камеру – «жертвенник», содержавшую только керамику.

6. Керамика грунтовых погребений, расположенная вокруг скелета, в основном, серо-черная, серо-коричневая, изготовленная лепным способом. Имеются грунтовые погребения с розовоглиняной, качественной, расписной керамикой.

7. В подкурганных грунтовых погребениях украшения встречаются очень редко, а оружие вообще отсутствует.

В некрополе Пловдаг особую группу занимают могилы с наземной четырехугольной каменной обкладкой вокруг погребения. Стратиграфически они расположены между подкурганными грунтовыми погребениями и подкурганными каменными ящиками. Обнаружено всего три таких погребения, ограбленных и разрушенных. Более или менее удовлетворительно сохранилось погребение, расположенное на северо-западной окраине некрополя Пловдаг. Это погребение четырехугольное в плане, камера которого состоит из четырех вертикально поставленных плит. Камера на расстоянии до одного метра окружена обкладкой рядами каменных плит. Вход погребения с западной стороны. На участке перед западной стеной каменные плиты вставлены на ребро, с уклоном к входу погребения. Этим подчеркнуто месторасположение входа погребальной камеры. Перекрытие не сохранилось, погребение было ограблено. Не тронут был только юго-восточный угол камеры. В погребальной камере было обнаружено парное захоронение. Кости плохо сохранились и перемешались. По нетронутым костям можно было определить, что скелеты лежали в скорченном положении, лицом к западу, головой на юг. В юго-восточном углу найдено два грубосделанных, розовоглиняных сосуда с геометрическими орнаментами полихромной росписью.

Основные характерные черты этих погребений:

1. Над этими погребениями не зафиксирована курганная насыпь.

2. Вокруг погребения имеется обкладка каменными плитами.

3. Стены погребений состоят из специально отобранных больших каменных плит.

4. Камеры этих погребений перекрыты большими каменными плитами.

5. Вход этих погребений с западной стороны.

6. Покойник ориентирован головой на юг.

7. Керамика этих погребений розовоглиняная, расписная.

Эти погребения существенно отличаются от других погребений могильника Пловдаг. По конструкции и инвентарю можно предположить, что эти погребения являются предшественниками погребений некрополя Халы-Кешан с многократными захоронениями.

На некрополе Пловдаг относительно хорошо исследованы курганы XVI-XII вв. до н.э. Они занимают верхний слой памятника. Диаметр курганов от 3-х до 10-ти, а высота до 1,5 м. В основании кургана кромлех, сложенный из каменных плит. В центре кромлеха находится камера размером 0,7х1,8м, глубиной до 1,0 м, сложенная из каменнных плит и перекрытая огромными каменными глыбами. Восточная стена сложена из одной или двух плит, верхняя из которых всегда превышает перекрытия погребения на 20-30 см. Это обстоятельство прослеживается почти во всех подкурганных каменных ящиках (по этим камням можно определить ориентировку захоронения). С целью облегчения работ восточная стена или сужается или уменьшается с помощью вертикально поставленных плит. Кстати, при помощи этих камней археолог до очищения внутри камеры заранее может определить пол покойного. У мужских погребений сужается восточная сторона камеры, а у женских - западная. Во всех курганах между кромлехом и восточной стеной находился дромос, стены которого неаккуратно сложены из каменных плит.

Во всех подкурганных каменных ящиках обнаружено одиночное зхоронение (рис.1). Покойник находится в скорченном положении головой на восток, мужчины на левом, женщины на правом боку. Инвентарь находится у головы и перед лицом покойника. За спиной покойника ничего не клали, как это было принято в подкурганных грунтовых погребениях. Керамика представлена красноангобированными и чернолощенными сосудами. Следует отметить, что сосуды крупного размера, находящиеся и в погребениях и в жертвенниках, имели небольшое отверстие на дне. Этот элемент погребального обряда встречается в погребениях периода средней и поздней бронзы, в склепах раннего железа и в кувшинных погребениях античного периода. Видимо это сделано для предотвращения повторного использования данного сосуда. Кроме керамики в погребениях были обнаружены цельнолитые бронзовые кинжалы ближневосточного типа, бронзовые четырехвыступные булавы, бронзовые браслеты и кольцо, наконечники стрел из

обсидиана и кремня и различные бусы. Среди украшений привлекает внимание большая эллипсовидная бусина (диаметр-1,4см), выпуклая с обеих сторон, имеющая орнамент в виде прочерченных параллельных линий, расходящихся от центра и серебряный удлиненный шестиугольник (3,0x5,4см). Оба украшения находились в центре ожерелья, составленного из сердоликовых и пастовых бус и видимо, носили особое значение.

К каждому кургану с восточной стороны был пристроен жертвенник, камера которого, в свою очередь помещалась в центре отдельной каменной кладки небольшого диаметра. Есть курганы, в которых площадь жертвенника несколько раз превышает площадь самого погребения. Эти камеры были четырех или пятиугольной формы, стенки сложены из таких же камней как погребальная камера. В жертвенниках находились обычно красноглиняные и чернолощеннные сосуды (10, 86). В юго-западном углу почти всех четырехугольных камер-жертвенников находится кюп розового цвета с плоским дном, шаровидным туловом и прикрепленным непосредственно к тулову плоским ленточным венчиком.Аналогичный сосуд найден в могильнике Чалипирагореби (№76). Исследователи датируют их приблизительно второй половиной XV-XIV вв. до н.э. (2, 57-58). Чернолощенные сосуды с биконическим туловом и "пальчиковым» вдавленным орнаментом на плечиках находят себе аналогию среди керамики северо-западного Ирана.

Интересно, что в некоторых курганах рядом с кромлехом были обнаружены сероглиняные крупные казаны. Назначение этих казанов не ясно. Сперва мы подумали, что они являются детскими кувшинными погребениями. Но отсутствие человеческих костей даёт возможность предположить, что их использовали на поминках, проводимых у кургана. После похорон тут же был засыпан дромос и насыпь кургана. Поминки, ритуалы, процессии и другие похоронные церемонии, вероятно, совершались на территории самого могильника. Об этом свидетельствуют специальные площадки с настилом, вышеуказанные крупные глиняные котлы и кости животных, обнаруженные по всей территории могильника.

По конструкции курганов, которая позволяет точно определить очередность работ последнего этапа похоронных процессий, можно сказать, что могила с кромлехом была подготовлена заранее. Итак, на Южном Кавказе уже к началу поздней бронзы существовал единый погребальный обряд, с незначительной разницей. Дело в том, что в памятниках Грузии и Армении зафиксирован обряд кремации, чего не было в Пловдагских могильниках.

Близкие по конструкции и материалам к Пловдагским исследова-

ны курганы на Дигомской равнине на могильнике Намгаламица (2, 60-62), могильнике Лори-Берд (7, 411-414) и Верин-Навер и на Апшеронском полуострове (3, 74-75). Во всех этих памятниках встречаются курганы с жертвенником. Они аналогичны не только по конструкции, а также по археологическим находкам. Курганы Пловдага, Чалипираго-реби, Намгаламица и Лори-Берда датируются XV-XIII вв до н.э.

На Пловдаге начиная с конца II тысячелетия до н.э. курганы постепенно исчезают и не соблюдается единая ориентировка при сооружении жертвенников. Появляются новые типы погребений с каменным настилом вокруг них.

Начиная с О.А.Абибуллаева,исследовавшего Кюльтепе I, все археологи отмечали недостаточное археологическое изучение региона. Даже хорошо изученные памятники пока не позволяют решить все существующие проблемы в изучении эпохи ранней бронзы. В этом отношении раскопки Пловдага могут существенно изменить положение. Комплексные исследования поселений и могильников позволят проследить развитие всех элементов материальной культуры от начала III тыс. до н.э. до конца II тыс. до н.э.

С конца II и начала I тыс. до н.э. происходят резкие изменения в погребальном обряде, соответственно меняются и типы погребений. С этого времени возникает оригинальный тип погребальных сооружений с выделенными жертвенниками и многократными захоронениями в одной камере. Эти ранние семейные склепы были изучены в некрополе Халы-Кешан (4, 7-10).

Каждый погребальный комплекс некрополя Халы-Кешан состоит из склепа прямоугольной формы (1,0-1,2х1,5-1,7м) с захоронением и инвентарем, а также отдельной камеры(жертвенник, ближе форме квадрата-0,8 х 0,8м; 1,0 х 1,0м) лишь с набором глиняных сосудов. Стены склепов сооружены, в основном из комбинации вертикально и горизонтально поставленных плит, а стены жертвенников только вертикально поставленных. Плиты перекрытий сохранились лишь на некоторых жертвенниках. Поверхность вокруг каждого склепа и жертвенника на расстоянии до 1,5 м окружена обкладкой, край которой оформлен рядами длинных прямоугольных камней. Керамика представлена, в основном розовоглиняными, редко серо-черными сосудами. На некоторых сосудах встречается небрежно выполненный расписной геометрический орнамент. Расписной одноручный красноглиняный сосуд на поддоне почти идентичный по форме обнаруженным в Гейтепе В, в могиле К (5, 144,табл.34,рис.38) и в Динхатепе III (11, 46,рис.13). Сосуды подобного типа связываются с Хасанлу V и датируются XII-XI вв. до н.э. (6, 195-197). К ранним типам относятся заколки с волютооб-

разно закрученной головкой и кинжал с плоским черенком с отверстием для закрепления рукоятки. Этот тип кинжалов, характерный для Нахчыванского региона, был широко распрастранен и по всему Южному Кавказу.

Изучение выявленного материала позволяет датировать некрополь Халы-Кешан концом II - и началом I тысячелетия до н.э. (4, 42).

Более развитые формы склеповых погребений были изучены в некрополе Мунджуклутепе. Этот некрополь расположен недалеко от некрополя Халы-Кешан на невысоком (4-5м) холме с ровной поверхностью (размером 40х60м). Выявленный материал представляет продолжение и развитие существующей здесь ранее культуры и при сохранении основных форм керамики и металлических изделий, прослеживается появление новых элементов и усовершенствуется строительство погребальных сооружений (4, 14).

На некрополе Мунджуклутепе каждое погребальное сооружение состоит из двух самостоятельных помещений: прямоугольного склепа, содержащего захоронение и сопровождающий инвентарь, и квадратной в плане, камеры – жертвенника, с набором керамических изделий. С восточной и западной стороны каждого склепа, в стене оставлялся проём, к которому вёл узкий проход, так же аккуратно сложенный из плит. Дно входного проёма, выложенное камнем, выше уровня дна склепа. Проём закрывался вертикально поставленной плитой служившей дверью. Она как бы продолжала стену, но легко убиралась и облегчала повторный доступ внутрь склепа. Как показали раскопки, склепы предназначались для многократных захоронений и содержали до 14 скелетов (4, 15). Судя по единичным нетронутым скелетам можно сказать, что захоронения производились в сильно скорченном положении на боку, руки сложены перед лицом, головой на север. Все склепы были в большой или меньшей степени ограблены несколько раз, причем, последние грабители попали в них, разрушив верхнее перекрытие, вследствие чего камеры были заполнены каменными обломками, черепками и фрагментами изделий, перемешанными с землей. Некоторые жертвенники использовались для повторного захоронения. Видимо, не для всех покойников были построены жертвенники.

Каждый жертвенник содержит до 15-20 сосудов. Они расположены симметрично, рядами от более крупных и высоких к небольшим. Для каждого жертвенника характерен горшок с небольшим отверстием на дне, «чайник» с коленчатым свободно стоящим или соедненным с краем венчика мостиком сливом, ваза на полой конической ножке, плоская подстава на трех упорах в форме ноги или полой конической ножке, кувшин с ручкой, миски различной глубины и величины, кубки.

Многие изделия, в частности миски, вместо ручек имеют небольшой вертикальный или горизонтальный налеп в виде «ушка» со сквозным отверстием. Керамика представлена изделиями серо-черного и желтовато-розового цвета. Почти все сосуды жертвенников изготовлены лепным способом довольно небрежно, многие из них кособоки, не устойчивы, часто имеются технические дефекты. Керамика из склепов представлена теми же формами, но более тщательной выделки (4, 16).

Металлический инвентарь склепов представлен бронзовыми изделиями в виде браслетов, колец, заколок, гривен, серег из бронзовой проволоки изогнутой меандром или проволки с нанизанными бусами, различной величины пуговиц, пятью бронзовыми стрелами и двумя кинжалами (4, 16-17).

Склепы с многократными захоронениями на территории Нахчывана известны из Кызыл-Ванка, но они датируются последними этапами средней бронзы. Синхронные погребения с Мунджуклутепинскими исследованы в могильнике Каракундуз Восточной Анатолии. Погребения могильника Каракундуз датируются началом I тыс. до н.э.

Расположение могильника Мунджуклутепе, конструкция погребальных сооружений, обособленные жертвенники и специальные входные проёмы склепов, а также богатый инвентарь позволяют высказать предположение о том, что некрополь Мунджуклутепе принадлежал правящей династии.

На территории Нахчывана на протежении первого тысячелетия до нашей эры наряду со склепами продолжали существовать и одиночные погребения, а начиная с V-IV вв. до н.э. появились кувшинные погребения. Кувшинные погребения долины реки Гиланчай(приток Аракса) имеют свои локальные особенности. Так как они находились под курганами, почти идентичными Пловдагским, несмотря на большой отрезок времени между ними (8, 140). Взрослые захоронены, в основном, в хозяйственных кюпах (рис.3). Кувшины по форме разные: среди них есть сосуды имеющие шаровидное тулово, плоское дно, широкое горло с отогнутым наружу венчиком и две ручки прикреплённые одним концом к тулову, а другим концом к краю венчика.

В крупных хозяйственных кюпах покойник лежит в скорченном положении, головой на запад, лицом к югу. На уровне плеч была обнаружена розовоглиняная полусферическая чаша с плоским дном. В кувшинных погребениях не соблюдается единая ориентировка. Раскопки памятника Сумбатан показали, что кувшинные погребения расположены компактно(группами) и существовали одновременно с каменными ящиками и грунтовыми погребениями.

Итак, погребальные памятники долины реки Гиланчай дают ценные сведения по истории и культуре древних племён Нахчывана.

## Литература

1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку. издательство «Элм», 1982, 315 с.
2. Абрамишвили Р.М., Абрамишвили М.Р., Башакидзе Т.Р., Пхаладзе Б.К., Гигуашвили Н.И., Даташвили М.Г., Султанишвили И.Б., Туриашвили Д.В. Раскопки в Тбилиси. Полевые археологические исследования в 1987. Тбилиси, Мецниереба, 1995, с.55-62 (объём сборника с таблицами 380 с.).
3. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, издательство «Элм», 1991, 256 с.
4. Асланов Г.М. Ибрагимов Б.И., Кашкай С.М. Древние некрополи Хараба-Гилана. Баку, издательство «Нурлан», 2002, 64 с. (с таблицами 137 с.).
5. Burton-Brown T. Excavations in Azerbaijan, 1948. London, 1951,279 p.
6. Dyson Robert H. Notes on Weapons and Chronology in Northern Iran around1000 B.C. “Dark Ages and Nomad”. de I`Institut historique et archèologique nèerlandais à Istanbul, 1964, pp.195-197.
7. Devedjian Seda. Lori Berd (Bronze Moyen). Erevan, Editions “Guitoutiun” de IANS RA, 2006, 462 p.
8. Ибрагимли Б., Гадирзаде Г. Новые находки на поселении Сумбатан. Археологические исследования в Азербайджане, 2009. Баку, издательство «Xəzər Universiteti», 2010, сс. 138-142.
9. Ибрагимли Б. Изучение памятников Пловдага. Материалы конференции, АЭФ Кавказа. Махачкала, 2007, издательство «Эпоха», сс. 86-89.
10. Ибрагимов Б., Кашкай С., Медведская И. Раскопки некрополя Пловдаг II. Эдубба вечна и постоянна. Материалы конференции, посвященной 90-летию со дня рождения И.М. Дьяконова. Санкт-Петербург, издательство Государственного Эрмитажа, 2005, сс. 86-93. (объём сборника 266 с.).
11. Muscarella O.W. The Iron Age at Dinkha Tepe, Iran. Bulletin of the Metropolitan Museum of Art., v.9,1974.pp.68-72.
12. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тбилиси, Изд –во Акад. наук Грузии. ССР, 1941. 491с.

# NAXÇIVANIN SON TUNC – ERKƏN DƏMİR DÖVRÜ QƏBİR ABİDƏLƏRİ HAQQINDA

**Bəhlul İbrahimli**

## Xülasə

**Açar sözlər: Naxçıvan, qəbir abidələri, son tunc, erkən dəmir.**

Naxçıvan ərazisində, Gilan çay vadisinin qəbir abidələri nisbətən yaxşı tədqiq olunmuşdur. Burada ilk tunc dövründən antik dövrə qədər uzun bir xronoloji dövrü əhatə edən 6 nekropol aşkar edilib tədqiq olunmuşdur. Gilan çay vadisində ən qədim qəbirlər Plovdağ nekropollarında aşkar olunmuşdur. Plovdağ nekropollarında tunc dövrünün bütün mərhələləri ərzində dəfn adəti sabit qalmış, bəzi əsaslı dəyişikliklər e.ə. III minilliyin sonlarında və e.ə. II minilliyin ikinci yarısında baş vermişdir.

Qeyd etmək lazımdır ki, tunc dövrü dəfn adətinin əlamətləri uzun müddət qorunub saxlanmış, bəzi elementlər (məs: qurbangahlar) isə daha da inkişaf etmişdir.

Beləliklə, Plovdağın qədim dövr qəbirlərinin aşağıdakı xüsusiyyətləri vardır:

1. Bu qəbirlər kromlexi olan kurqanlardır.
2. 1,2 m-ə qədər dərinlikdə yerləşən dördbucaqlı və ya dairəvi planda olan qəbir çuxuru vardır.
3. Mərhum, demək olar ki, əsasən başı şərq istiqamətində dəfn edilmişdir.
4. Torpaq qəbirlərin hamısında mərhumun sağ əlində gil kasa vardır.
5. Qəbirlərin çoxunun qurbangahı vardır.
6. Torpaq qəbirlərin keramikası skeletin hər tərəfinə düzülmüşdür. Daş qutu qəbirlərdə isə keramika skeletin ancaq qarşısına qoyulmuşdur.
7. Torpaq qəbirlərdə bəzək əşyalarına çox az, silaha isə heç rast gəlinmir.

Plovdağ nekropollarında bir qrup qəbirin yerüstü hissəsinə dördbucaqlı planda daş döşənmişdir. Hələlik, üç belə qəbir aşkar edilmişdir ki, onların da hamısı dağıdılmış vəziyyətdədir.

Bu qəbirlərin əsas xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

1. Bu qəbirlərin kurqanı yoxdur.
2. Qəbirlərin yerüstü hissəsinə daş döşənmişdir.
3. Qəbirlərin divarları xüsusi seçilmiş daş plitələrdən qurulmuşdur.
4. Bu qəbirlərin kameraları iri həcmli sal daşlarla örtülmüşdür.
5. Bu qəbirlərin girişi qərb tərəfdəndir.
6. Mərhum başı cənub istiqamətində dəfn edilmişdir.
7. Bu qəbirlərdən çəhrayı gilli, boyalı keramika tapılır.

Beləliklə, Gilan çay vadisi qəbir abidələrinin tədqiqi Naxçıvanın qədim tayfalarının tarixi və mədəniyyəti haqqında qiymətli məlumatlar verir.

# ABOUT LATE BRONZE AND EARLY IRON SEPULCHRAL MONUMENTS OF NAKHCHIVAN

**Bahlul Ibragimli**

## Summary

**Keywords: Nakhchivan, sepulchral monuments, Late Bronze, Early Iron.**

Tombstones of Gilan valley of Nakhchivan have relatively been explored well. 6 necropolis been found and studied covering the long chronological period from Early Bronze Age to Antiquity have. The earliest tombstones have been discovered at Plovdag's burial grounds. During all phases of the Bronze Age funeral tradition remained stable and some major changes occurred in the end of the third and second half of second millennium in Plovdag necropolis.

It should be noted that the signs of the Bronze Age burial traditions have been preserved for a long time, some elements (such as altars) has developed even more.

So, Plovdag's early graves have the following typical peculiarities:

1. They are graves of burial mound type (with diameter up to 9 meters) and a cromlech at the basement;
2. They have ground-based rectangular burial hole 0.7 meters to 1.2 meters deep;
3. The deceased is buried in a writhed position with head almost always eastward (insignificantly bent toward the south);
4. An earthenware cup was found on the deceased's right hand in nearly all burial mounds;
5. Some graves, except for the main burial chamber, are attached, on the eastern side, by a small chamber – altar – that contained ceramic items only;
6. Ceramics placed around a skeleton in the tombs are primarily gray-black baked earthenware items. There are also burial mounds containing good-quality, painted pink earthenware ceramic things
7. In sub-mound tombs, decorations are met seldom, with any weapons at all.

Graves with ground-based rectangular stone facing around the tomb form a particular group in necropolis Plovdag. Stratigraphically, they are located among sub-mound interments and sub-mound stone boxes.

Main typical features of these interments are as follows:

1. No mound embankment has been found above these tombstones;
2. The above-ground portion of the graves are covered with stones
3. The walls of graves has been erected with specially selected stone slabs;
4. The chambers of the graves have been covered by large stone slabs;
5. The entrance of the graves are located at the western side;
6. The head of the deceased was buried in a southerly direction;
7. The painted ceramics with pink clay are found from the graves;

So, burial monuments along the extent of River Gilanchay give valuable information about history and culture of Nakhchivan's ancient-era tribes.



Рис.1. Подкурганный каменный ящик



Рис.2. Подкурганное грунтовое погребение



Рис.3. Подкурганное кувшинное погребение

# DƏMİRÇİ NEKROPOLUNUN ERKƏN DƏMİR DÖVRÜ KERAMİKASI

**Zeynəb Quliyeva**
(AMEA Naxçıvan Bölməsi)
zeyneb_guliyeva@yahoo.com

**Açar sözlər: Naxçıvan, erkən dəmir dövrü keramikası, Dəmirçi nekropolu, göbələkşəkilli çıxıntılar, ornament.**

Naxçıvanın Erkən Dəmir dövrü abidələri içərisində özünəməxsus yeri olan Dəmirçi nekropolu eyni adlı kəndin şimalındakı Sarıdaş yaxınlığında, Naxçıvan-Sədərək yolunun sağ tərəfində yerləşir. 1967-ci ildə təsadüf nəticəsində aşkar edilən abidə dağıntıya məruz qalsa da yerüstü materialları ilə arxeoloqların diqqətini cəlb etmişdir. İlkin araşdırmalar zamanı abidənin təxminən 6 ha-lıq sahəni əhatə etdiyi və şərq-qərb, şimal-cənub istiqamətində salınmış daş qutu tipli qəbirlərdən ibarət olduğu müəyyənləşdirilmişdir (10, s. 522). 1998, 2001-ci illərdə nekropoldan müxtəlif ölçülü sal daşlar, boz rəngli keramika nümunələri aşkar edilmiş və abidə haqqında informasiya xarakterli bir neçə məqalə (5, s. 71-74), tezis (7, s. 38-40) dərc edilmiş, lakin geniş tədqiqat aparılmamışdır.

Müxtəlif vaxtlarda bu ərazidə tikinti məqsədilə daş çıxarılarkən tapılan maddi-mədəniyyət nümunələri kənd sakinləri tərəfindən toplanaraq mühafizə edilmişdir. Abidədən toplanan yerüstü materialların AMEA NB-nin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun muzeyində saxlanılan nümunələri çap olunmuş (8, s. 22), lakin bəziləri ayrı-ayrı sakinlərin evlərində toplandığından elmi tədqiqatdan kənarda qalmışdır. Kənd sakinlərindən T.Novruzov və H.Ələkbərov tərəfindən mühafizə edilən saxsı məmulatının bir qismi bütöv halda olan küpə, kasa, çölmək və xeyrələrlə, digər qismi isə qədəh, badya və digər qabların fraqmentləri ilə təmsil olunur.

Dəmirçi keramikası içərisində orjinallığı ilə fərqlənən qablardan biri xaricə doğru 0,7 sm hündürlükdə çıxıntılı oturacağa malik olan qabdır. Ağız kənarı xaricə tərəf əyilmiş, kiçik xətlərlə naxışlanmışdır. Ovalvari gövdəsini dalğavari formada dövrələyən sünbülşəkilli ornament çərtmə üsulla çəkilmişdir (Şəkil 1, 2). Boz rəngdə olan bu qabın hündürlüyü 8 sm, ağzının və oturacağının diametri 8 sm, divarının qalınlığı 0,7 sm-dir. Küpələrdən biri bütöv, digərlərinin fraqmentləri əldə olunmuşdur. Formalarına görə bir-birindən fərqlənirlər. Birinci qrupa aid olan küpə boz rəngli, geniş ağızlıdır. Ağzı xaricə tərəf əyilən bu qabın boğaza yaxın hissəsində üfüqi istiqamətdə şüaşəkilli naxışlar salınmış, bir qədər yuxarıda isə şaquli istiqamətdə 6 ədəd üçbucaq şəkilli ştamp salınmışdır (Şəkil 1, 4). Bu tip ornament Dəmirçi nekropolundan çox da uzaq olmayan Oğlanqala keramikasında da aşkar edil-

mişdir (4, şəkil 2, 4). İkinci qrupa aid olan küpə silindrik boğazlı olub, ağzının kənarları xaricə qatlanmışdır. Sarı-boz rəngli bu qabın çiynində Xocalı-Gədəbəy mədəniyyətinə xas olan göbələkşəkilli qulp (rudiment) yerləşir. Gövdəsinə bir cərgə dalğavari naxış salınmış, naxışlardan yuxarıda isə 2 cərgə sünbül şəkilli ornament arasında 4 cərgə batıq xətt qabı dövrələmişdir. Silindrik boğazlı Dəmirçi keramikasının digər nümunəsi üzərində incə cızma naxışları olan şarşəkilli gövdəyə malik lüləli qabdır (Şəkil 1,1). Naxçıvanın digər abidələrində bu tipli keramikaya rast gəlinmir. Üçüncü qrupa aid olan küpə uzun boğazlı olub, çiyin hissəsini dövrələyən iki cərgə batıq xətdən boğazına doğru qabartma xətlər çəkilmişdir. Küpənin ağız kənarı yuvarlaq olub xaricə doğru meyillidir. Zərif kannelyur ornamentlə naxışlanmış kup fraqmentlərinin analoqlarına Bayəhməd və Kolanı (2, şəkil 35, 7; 23, 10) nekropollarının, həmçinin Naxçıvanın Dəmir dövrünə aid digər abidələrinin materialları içərisində rast gəlinir.

Çölməklər 3 nümunə ilə təmsil olunmuşdur. Onlardan biri boğazsız və şarşəkilli gövdəyə malik olması ilə fərqlənir. Ağzına yaxın qulaqcıq formalı qulpları vardır. Boz rəngdə olan bu küpənin çiynində qulplarla paralel olaraq 3 cərgə batıq dalğavari naxış salınmışdır. Çölməklər fraqment şəklində əldə olunsalar da həmdövr materiallara əsasən onların formasını bərpa etmək mümkündür. Çölməklərdən biri bikonik formaya malik olub, oturacağında kiçik deşik açılmışdır. Çəhrayı gilli olub xarici boz anqobla örtülmüşdür. Qabın gövdəsində kiçik nöqtələrdən ibarət iki cərgə şüaşəkilli ornament




Şəkil 1. Dəmirçi nekropolunun Erkən Dəmir dövrü keramikası.

çəkilmişdir. Dəmirçi nekropolunda əldə olunan şar gövdəli, qulaqcıq şəkilli qulpa malik keramikanın oxşarlarına Elazığ-Bingöl bölgəsində yerləşən Tilenzit, Çinaz I (9, resim 4/24; 5/1) abidələrində rast gəlinir.

Cəmi 3 nümunə ilə təmsil olunan kasalardan biri boz rənglidir. Gövdəsindən yuxarı hissəsini 2 cərgə batıq dalğavari ornament dövrələyir (Şəkil 1, 3). İkinci nümunə formasına və ornamentinə görə bir qədər fərqlidir. Qara rəngdə olan bu qabın boğazına zərif relyefik şəkildə 6 cərgə dalğavari xətt çəkilmişdir (Şəkil 1, 5). Qabın hündürlüyü 7 sm, ağız diametri 18 sm, oturacağının diametri isə 10 sm-dir. Digər kasa naxışsız olsa da oturacağında olan iki çıxıntısı ilə diqqəti cəlb edir. Çıxıntılar bir-birinə paralel olaraq yerləşdirilmiş və üfüqi istiqamətdə deşilmişdir. Kasalar ümumi forma baxımından analoqlarını Zeyvə, Qalacıq abidələrinin materialları içərisində, Kolanı nekropolunun materialları arasında (2, şəkil 4, 1; 26, 9-13; 5, 1-2), həmçinin Bingöl-Samantəpə keramikası içərisində (9, resim. 22, 4) tapsa da yalnız oturacaqları onlardan fərqlənir. Belə ki, Dəmirçi kasasının oturacağında yerləşən üçkünc formalı balaca ayaqlara digər kasalarda rastlanmır. Qeyd etmək lazımdır ki, bu cür ayaqlara malik olan kasanın daha bir nümunəsi Dəmirçi nekropolunun AMEA NB-nin Arxeologiya və Etnoqrafiya Muzeyində saxlanılan materiallarının içərisindədir (Dəmirçi-2009, №5). Yalnız bu qabın fərqli cəhəti kiçik formalı üçayaqlı çıxıntılarının deşilməmiş olması və uzunsov dəstəyinin olmasıdır. Kasanın ağız hissəsi və oturacağı 4 cərgəli dalğavari qısa xətlərlə bəsit naxışlanmışdır. Qeyd etmək lazımdır ki, Naxçıvan abidələrindən yalnız Qızılburun abidəsində bu tipli qabın oval forması aşkar edilmişdir (2, şəkil 1, 27). Bu qablardan fərqli olaraq konik, silindrik-konik formalı kasaların bənzərləri Naxçıvanın Qarabulaq, Qalacıq, Kolanı (2, şəkil 4, 1; 26, 9) və digər həmdövr abidələrinin həmçinin, Şərqi Anadolunun Dilektepe, Yazıkonak, Yıldıztəpə abidələrinin materialları ilə oxşar xüsusiyyətlərə malikdir (9, resim: 5/5, 10; 5/6,9; 39, 5-7, 20).

Xeyrələr iki ədəddir. Dayaz formalı və kənarları getdikcə yığılan bu qablardan biri xaricdən kannelyur naxışla bəzədilmiş, oturacağına çərxi fələk işarəsi salınmışdır. Qabın ağız kənarında iki cərgə basma xəttin arasına ziqzaq və dalğalı ornamentlər salınmışdır və iki yerdən bir-birinə paralel, kiçik ölçüdə deşilmişdir. Digər xeyrə formasına görə birincini xatırlatsa da bir qədər kobud formada hazırlanmış və naxışsızdır. Kasaların hər iki tipi Sədərək keramikası (12, foto 71), Zeyvə, Qarabulaq abidələrinin Şərur Tarix-Diyarşünaslıq Muzeyində saxlanılan eksponatları (ŞTDM. Inv.№89-91), Şahtaxtı yaşayış yeri (2, şəkil 86, 1-2), həmçinin Mingəçevir kurqanı (3, şəkil 89, 3) və digər həmdövr abidələrin materialları ilə oxşarlıq təşkil edir.

Cəmi bir nümunə ilə təmsil olunan qədəhin gövdədən aşağı hissəsi salamat qalmışdır. Halqadabanlı olan qabın oturacaq hissəsi içəriyə doğru batıqdır və naxışsızdır. Halqadabanlı qablar Culfa, Şahtaxtı, Sarıdərə, Hakkıx-

lıq nekropollarından (2, şəkil 1, 49; 2, 20; 13, 13; 19, 16-17) xeyli miqdarda aşkar edilmişdir.

Dəmirçi nekropolun keramika məmulatı Naxçıvanın Erkən Dəmir dövrünə aid olan abidələrdən, daha çox Qızılburun, Kolanı, Sarıdərə, Qarabulaq, Zeyvə nekropollarının, Azərbaycanın digər bölgələrinin Xocalı-Gədəbəy tipli abidələrinin materialları ilə oxşardır, həmçinin Urmiya gölü hövzəsi və Şərqi Anadoluda mövcud olmuş Dəmir dövrü mədəniyyətinin bəzi xüsusiyyətlərini özündə ehtiva edir. Lakin qonşu regionlarla qarşılıqlı əlaqələr fonunda öz lokal xüsusiyyətlərini qoruyub saxlayır. Bu xüsusiyyətlər qabların ornamentasiyasında da özünü biruzə verir. Sünbülşəkilli, dalğavari və düz xətlərlə salınan basma naxışlar, həmçinin çərxifələk işarəsi və kannelyur ornamentlər keramikanın naxışlanmasının yayılmış formalarından olub geniş tətbiq edilmişdir. Belə ornamentlər I Kültəpə (1, tab. XXXIII, 5, 14), Xələc (11, şəkil 67, 1-5), Şahtaxtı, Sarıdərə, Kolanı, Bayəhməd, Muncuqlutəpə (2, şəkil 1, 2,8; şəkil 2, 1-2,22; şəkil 13,7; şəkil 26,1-5; 27, 12,16; şəkil 35,4; şəkil 38,37) nekropollarından aşkar edilən keramika üzərində də aşkar edilmişdir. Dəmirçi keramikası üzərində batıq üçbucaqların timsalında nümayiş olunan damğalar Kür-Araz mədəniyyətinin türk damğaları (13, s. 24) qədim Şumer işarələri ilə oxşarlıq yaradır (6, MS 3026).

Saxsı məmulatları özündə lokal xüsusiyyətlərlə yanaşı qonşu regionların bəzi oxşar elementlərini də ehtiva edir. Bu faktor keramika nümunələrinin hazırlanmasında, onların quruluşunda və üzərindəki ornamentlərdə təcəssüm olunmuşdur. Dəmirçi nekropolunun materialları həmçinin Trakyanın Taşlıcabayır, Asıkhüseyin kurqanı və digər Anadolu kurqanlarından aşkar edilən (8, s. 158-159) materialları içərisində də geniş analogiyalar tapır. Bu oxşarlıqlar daş-qutu qəbirlərin quruluşunda, xüsusilə, onlardan üzə çıxarılan keramika nümunələrinin daha yaxşı bişirilməsində, konik və şarşəkilli formalı qablarda, çərtmə naxışlarla naxışlanmasında, dalğavari və ziqzaq naxışlarda öz əksini tapmışdır. Keramikada şüaşəkilli, kannelyur ornamentlər üstünlük təşkil edir, həmçinin ikiayaqlı, üçayaqlı, uzun dəstəkli, qablar da diqqəti cəlb edir.

Dəmirçi nekropolunun Erkən Dəmir dövrü keramikasının həmdövr abidələrin materialları ilə müqayisəli təhlili bu dövrdə Naxçıvan abidələri materiallarının lokal xüsusiyyətlərini aşkar etməyə imkan verir.

## Ədəbiyyat

1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванский АССР. Баку: Элм, 1982, 316 с.
2. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.

3. Baxşəliyev V.B . Azərbaycan arxeologiyası. Bakı: Elm, 2007, 240 s.
4. Baxşəliyev V., Ristvet L., Aşurov S., Gopnik H. Oğlanqalanın Dəmir dövrü mədəniyyəti. // AMEA-nın Xəbərləri, № 11, Bakı, Elm, 2009, s. 18-23
5. Bədəlov, Dəmirçi arxeoloji abidəsi. NDU Xəbərlər, 1999, s. 24-27.
6. Çığ M.İ.Sümer ve Türkler. Туркестанская Библиотека - www.turklib.ru – Turkistan Library.51 s.
7. Hüseynova S.A. Dəmirçi abidəsində aparılan arxeoloji tədqiqatlar haqqında. / 2000-2001-ci illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiya (çöl tədqiqatları və nəzəri problemlər) Tezislər. Bakı, Elm, 2002, s. 38-40
8. Quliyeva Z. Naxçıvanda Dəmirçi nekropolunun arxeoloji materialları. / Qarapapaqlar, 2014, Oktyabr, №10 (86), s. 22-26.
9. Mehmet Özdoğan. Taşlicabayir kazısı. s. 158-159. // Türkiye arkeolojisive Istanbul Universitesi (1932-1999), Ankara, 2010, 447 s.
10. Naxçıvan abidələri Ensiklopediyası. Naxçıvan: Əcəmi, 2008, 522 s.
11. Seyidov A., Baxşəliyev V., Məmmədov S., Aşurov S. Qədim Şərur. Bakı, 2012, 466 s.
12. Seyidov A., Baxşəliyev V. Sədərək. Bakı, Elm, 2011, 184 s.
13. Yengi M.R., Tuncay B. Kür-Araz mədəniyyəti və türk damğaları:Damğadan yazıya keçid. Bakı, 2013.

# EARLY IRON AGE CERAMICS OF DAMIRCHI NECROPOLIS

**Zeynab Guliyeva**

## Summary

**Key words: Nakhchivan, ceramics of Early Iron Age, Damirchi necropolis, mushroom-shaped, ornament .**

Monuments of Nakhchivan of the Early Iron Age are presented by settlements and funeral monuments. The main funeral monuments are necropolises of Ashagy Dashark, Garabulag, Gazkhan, Saridere, Kolani, Zeyva, Damirchi, etc. The necropolis Damirchi is located in the village with the same name in Sharur district of Nakhchivan Autonomous Republic. The necropolis was registered in 1967. Ceramics of necropolis Damirchi are presented by jugs, cups, pots and trays. The researches show that the ceramics of Early Iron differs from the Bronze Age with the unique nuances. This gray – black coloured ceramics has good baking, molding, and cut-in ornament. Cannelures, mushroom-shaped ledges and longs handles typical to the monuments of the Early Iron Age are among findings.

# КЕРАМИКА ЭПОХИ РАННЕГО ЖЕЛЕЗА НЕКРОПОЛЯ ДЕМИРЧИ

**Зейнаб Гулиева**

## Резюме

**Ключевые слова: Нахчыван,керамика раннего железа, некрополь Демирчи, грибообразные выступы, орнамент.**

Памятники Нахчывана эпохи раннего железного века представлены поселениями и погребальными памятниками, которые представлены некрополями Ашагы Дашарх, Гарабулаг, Газхан, Сарыдере, Коланы, Зейва, Демирчи и др.

Некрополь Демирчи расположен вблизи одноименного села Шарурского района Нахчыванской Автономной Республики. Памятник был обнаружен в 1967 г. Керамические материалы некрополя представлены кувшинами, мисками, чашками и подносами. Эта керамика с хорошим обжигом серочерного цвета и с врезным орнаментом. Нередко встречаются каннелюры, грибообразные выступы, длинные ручки, которые характерны для памятников раннего железного века.

# NƏRGİZTƏPƏDƏ İLKİN ARXEOLOJİ TƏDQİQATLAR

**Təvəkkül Əliyev, Bəhlul İbrahimli, Gülanə Hüseynova**
(AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu)
tavakkul55@yahoo.com, ibrahimlib@mail.ru, gulanahuseynova@mail.ru

**Açar sözlər: Qarabağ abidələri, Nərgiztəpə yaşayış yeri, Oğuz yurdu, qəbirüstü işarə və damğalar, türk mənşəli toponimlər.**

Qarabağın qədim və orta əsrlərə aid arxeoloji abidələri hələ XIX yüzilliyin sonlarından əcnəbi səyyah və tədqiqatçıların diqqətini cəlb etmişdir. Ötən əsrdə isə bu bölgəyə çoxsaylı ekspedisiyalar təşkil olunmuş, Azıx və Tağlar mağara düşərgələrində (Xocavənd rayonu), Qaraköpəktəpə (Füzuli rayonu), Üzərliktəpə (Ağdam rayonu) yaşayış məskənlərində, Şərifan şəhər yerində (Zəngilan rayonu), Xocalı kurqanlarında və b. abidələrdə fundamental tədqiqatlar aparılmışdır. Yerli mütəxəssislərlə (M.Hüseynov, İ.Nərimanov, Q.İsmayılzadə, R.Göyüşov, Ə.Cəfərov, H.Cəfərov və b.) yanaşı, uzun illər Qarabağ abidələrini öyrənmiş rus (akademik İ.İ.Meşşaninov, A.A.İessen, V.P.Lyubin), alman (E.Resler, Y.İ.Qummel), hətta erməni (K.X.Kuşnareva, O.A.Danielyan) tarixçiləri dönə-dönə bu abidələri Azərbaycan xalqının maddi irsi kimi dəyərləndirmişlər.

XX əsrin sonlarında erməni silahlı qüvvələri Qarabağın dağlıq hissəsini və ona bitişik ətraf rayonları zəbt etdilər. İşğal nəticəsində kütləvi terror və soyqırımla üzləşən yerli sakinlərlə yanaşı, bu ərazilərdə yüzlərlə abidə də vandalizmin qurbanı oldu. İslamiyyət dövrünə aid məscid, məqbərə və qəbiristanlıqlar məhv edildi, xristian dövrü memarlıq abidələri saxtalaşdırıldı. Artıq neçə illərdir ki, işğalçı rejim Qarabağda, o cümlədən Xocavənd rayonundakı Azıx paleolit düşərgəsində erməni izi axtarır, Ağdam rayonunda, Pənahəli xanın tikdirdiyi Şahbulaq qalası yaxınlığında Tiqranakert adlı mifik erməni şəhərinin “tapılması” haqda dünyaya car çəkir. Bu cəfəng “tədqiqatların” arxasında işğalçılıq niyyətlərini ört-basdır etmək cəhdinin dayandığı aydın görünür.

Qarabağın elmi ictimaiyyətə çoxdan bəlli olan arxeoloji abidələrindən biri də Xocavənd rayonundakı Nərgiztəpə yaşayış məskənidir. Bu abidə haqqında ilk məlumatı hələ XX əsrin ortalarında Mil-Qarabağ bölgəsində tədqiqat aparan Azərbaycan Arxeoloji Ekspedisiyasının rəhbəri, görkəmli alim A.A.İessen vermişdir (4, s.19). O, orta tunc dövrünə və antik dövr küp qəbirləri mədəniyyətinə aid keramika nümunələrinə əsaslanaraq Nərgiztəpəni çoxtəbəqəli abidə kimi qeydə almışdır. Lakin 60 ilə yaxın ötən bir dövr ərzində bu abidədə arxeoloji tədqiqat işləri aparılmamışdır.

2013-cü ildə Nərgiztəpə yenidən diqqəti cəlb etmiş, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Xocavənd rayonunun cəbhə xətti boyunca olan



ərazilərində ilkin kəşfiyyat-axtarış işləri aparmaq məqsədilə Nərgiztəpə arxeoloji dəstəsini təşkil etmiş, 2014-cü ilin əvvəllərindən isə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə bu abidədə intensiv tədqiqatlar başlanmışdır. Çöl səfərləri zamanı Nərgiztəpə və onun ətrafındakı sahələr nəzərdən keçirilmiş, vaxtilə I Qarabağ müharibəsi gedişində qazılmış səngərlərdən və əkin yerlərindən daş alət və saxsı məmulatından ibarət yerüstü materiallar toplanmış, bir sıra yeni abidələrin yeri müəyyənləşdirilmiş, əsas tədqiqat obyekti olan Nərgiztəpədə isə kəşfiyyat şurfları qoyulmuşdur.

Nərgiztəpə Mil düzündən qərbdə - Qarabağ silsiləsinin dağ ətəklərinin Mil düzü ilə kəsişməsində, Qaraçuğ dağının 7-8 kilometrliyində, Hunaşen çayından 0,7 km cənub-şərqdə təbii yüksəklik üzərində yerləşir. Onun hündürlüyü 8 m, sahəsi isə 1,3 ha-a yaxındır. Təpənin üstü yastı və yamacları maili olduğundan hər tərəfi abidələrlə örtülüdür. Bu ərazi Dağlıq Qarabağın Azərbaycanın nəzarəti altında qalan bir parçası kimi strateji əhəmiyyət kəsb edir. Buradan hazırda işğal altında olan keçmiş rayon mərkəzi Martunini, Kuropatkino qəsəbəsini və vandallar tərəfindən yandırılaraq dağıdılmış Muğanlı kəndinin qalıqlarını müşahidə etmək mümkündür. Xocavənd Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə 2011-ci ildə Nərgiztəpə yüksəkliyində Vətən uğrunda canından keçmiş 147 şəhidin xatirəsi şərəfinə abidə kompleksi yaradılmış, Azərbaycan bayrağı ucaldılmışdır.

Nərgiztəpənin ətrafında orta əsrlərə aid yaşayış yeri, tikili qalıqları və qəbiristanlıqlar var. Abidənin cənub ətəyindəki qəbirüstü daşlardan bəzilərinin üzərinə qazma üsulu ilə müxtəlif işarə və damğalar ( ox, kaman və s.), oyma naxışlar salınmışdır. Belə təsvirlər oğuz türklərinin adı ilə bağlı olub Azərbaycanda erkən orta əsrlərdən yayılmağa başlamışdır. Nərgiztəpə qəbiristanlığındakı sonuncu məzarlar XX əsrin ortalarına aiddir. XIII-XIV əsrlərdən etibarən buradakı baş daşları üzərinə epiqrafik mətnlər ərəb qrafikası ilə Azərbaycan dilində həkk olunmuşdur. XX əsrə aid başdaşıları üzərində



kiril əlifbası ilə Azərbaycan dilində yazılara da rast gəlinir. Bəzi qəbirlərin üstündə, eləcə də ətraflarda iri yumru daşlar diqqəti cəlb edir.

Rəvayətə görə, "Kitabi Dədə Qorqud" dastanlarında təsvir olunan hadisələrin bir çoxu, xüsusilə Qaraca Çobanla bağlı əhvalatlar məhz bu ərazilərdə baş vermiş, həmin iri daşlar isə Çobanın "sapand daşları", yaxud "daşa dönmüş qoyunlarıdır". Ümumiyyətlə, Nərgiztəpə və onun ətrafındakı toponimlər bu ərazinin qədim oğuz türklərinin yurd yerləri olduğunu təsdiq edir: dastan qəhrəmanı Qazan xan "Qaraçuğun qaplanı" adlandırılır. Nərgiztəpə yaxınlığındakı Qarabağ dağ silsiləsinə məxsus yüksəkliklərdən birinin adı da məhz "Qaraçuğ"dur. Onun hündürlüyü 632 metrdir (5, s.70). XIX əsrdə və XX əsrin əvvəllərində çəkilən hərbi-topoqrafik xəritələrdə də bu dağın adına təsadüf edilir (Bax:1, xəritə). Orta əsrlərdə bu ərazidə Qaraçuğ adlı kəndin olması haqqında məlumat da var. XVIII əsrin əvvəllərində Rusiya,



Xəzərsahili vilayətləri işğal edəndə Osmanlı qoşunu Cənubi Qafqaza daxil olmuş, onun böyük bir hissəsini nəzarət altına almışdır. Osmanlı məmurları vergi sistemini nizama salmaq məqsədilə buradakı bütün yaşayış məntəqələrinin dəqiq siyahısını tərtib etmişlər. 1727-ci ildə tərtib olunan və "Dəftəri-müfəssəl əyaləti Gəncə" adı ilə İstanbuldakı Başbakanlıq arxivində saxlanılan bu siyahıda Dağlıq Qarabağın da 5 mahalına mənsub kəndlərinin adı yer almış, o cümlədən Qaraçuğ kəndi Vərəndə mahalına daxil olan 60 kəndin sırasında göstərilmişdir (Bax: 6, s. 148-150).

Qeyd olunan siyahıda "Oxçu" adlı kəndin də adı çəkilir. Qaraçuğ yaxınlığında Böyük Oxlu və Kiçik Oxlu adlı dağlar var. Bir tərəfdən bu toponimlər, digər tərəfdən isə Nərgiztəpə ətrafındakı ox işarəli qəbir daşları təsdiq edir ki, VII əsrdən başlayaraq bəhs olunan ərazidə aramsız olaraq Oğuz türkləri həyat sürmüşlər. Məlumdur ki, oğuzlar hər birinin öz damğası – fərqləndirici möhürü olan 24 tayfadan ibarət idi. Məsələn, Bayat boyuna məxsus damğada ox işarəsinin təsviri vardı. 24 tayfadan biri olan avşarlar isə oğuzların Bozox qoluna mənsub idilər. Qarabağda VII əsrdən əvvəl də türk tayfalarının yaşadığını göstərən dəlillər vardır. Onlardan biri Hunaşen hidronimidir. Qədim hunların adı ilə bağlı olan və Qarabağ silsiləsinin şərq ətəklərindən başlayan, yağış və yeraltı sularla qidalanan bu çay (rus dilində "h" hərfi olmadığından əksər ədəbiyyatda o, "Xonaşen" kimi qələmə verilmiş, A.A.İessen isə onu "Xanaşen" şəklində işlətmişdir) 62 km uzunluğunda olub Xocavənd və Ağcabədi rayonlarının ərazisindən axır, Araz çayı ilə Qarqarçay arasında çəkilmiş kanala – Azərbaycanın qədim suvarma sistemlərindən olan Gavurarxa çatmadan quruyur (5, s. 236).

Q.Qeybullayev Azərbaycanın etnik və siyasi tarixinə dair araşdırmalarında Dağlıq Qarabağ ərazisindəki Hun etnoniminə də xüsusi yer ayırmışdır. O, 1727-ci ilə aid sənəddə Bərgüşad mahalında Honabad adlı kəndin olmasını ayrıca vurğulayır (6, s. 108). XIII-XIV əsrlərin qovşağında yaşamış Həmdullah Qəzvini Qarabağda sonralar İsfahancıq kimi tanınan Dih-İsfahan kəndinin adını çəkir (3, s. 56). Q.Qeybullayev həmin kəndin digər adının XIX əsrdə Xunaşin olduğunu yazır və nəzərə çatdırır ki, Mardakertin ilkin adı Hunaşen, yaxud Xonaşen olmuş, Qarabağ düzünün 36 min desyatinlik hissəsi Xonaşen adlanmış və Bizans tarixçisi Feofanın bəhs etdiyi "Hun ölkəsi" isə məhz Xonaşen adlı yer olmuşdur (6,





s.108). Qeyd edək ki, "şen" sözü qədim türk mənşəlidir və "məskun, əhali yaşayan" mənasını verir. "Şen", "şenlik" sözləri Azərbaycan dilində də çox işlənən və həmin mənanı verən sözlərdir.

Nərgiztəpənin üzərində və ətraf sahələrdə müxtəlif dövrlərə aid daş, şüşə və saxsı məmulatından ibarət nümunələrə rast gəlinir. Əkin sahəsindən toplanan obsidian alətlərdən biri diqqəti cəlb edir. Uzunluğu 7,7 sm, eni 3,2 sm, qalınlığı 3,5 sm-ə çatan bu alətin bir üzü yastı, digər tərəfi isə qabarıqdır. Üzərindən qoparılmış qəlpələrin izləri var. Uclarının kütləşməsi, nəzərə çarpacaq aşılanması ondan döymə, zərb etmə aləti kimi istifadə olunduğunu göstərir.

Təsadüfi tapıntılar arasında bir ədəd açıq yaşıl rəngli şüşə qabın oturacağına aid fraqment var. Onun diametri 3 sm-dir. Hər iki üzü ərplə – bərk gillə, gəclə örtülmüşdür. Qabın oturacağına yaxın hissə 7 ləçəkvarı batıqla naxışlanıb. Oxşar şüşə qablar erkən orta əsrlərdə Azərbaycanda geniş yayılmışdır (7, таб., 42-45).

Yerüstü materiallar arasında ənənəvi olaraq dövr etibarilə qarışıq və müxtəlif çeşidli keramika üstünlük təşkil edir. Nərgiztəpənin saxsı nümunələrinin ümumi xüsusiyyətlərindən biri onların əsasən tərkibində iri qum dənələri olan gildən hazırlanması, yaxşı bişirilməsi və möhkəm divarlı olmasıdır. Orta əsrlərin şirli qabları bu sırada istisnalıq təşkil edir: onlar bir qayda olaraq narın gildən hazırlanmışlar. Boşqab tipli belə qabların içərisi həndəsi naxışlarla bəzədilmiş və yaşıl, qəhvəyi və süd rəngli boya ilə örtülmüşdür. Şirsiz saxsı məmulatı içərisində isə küp və küpə tipli qablar çoxluq təşkil edir. İri tutumlu küplərin ağızının diametri 53 sm-ə çatır (kənardan). Onların geriyə qatlanan ağız hissələrinin eni 3- 4,5 sm-dir. Bəzilərinin ağızlarının kənarı kəndirvari naxışlanıb. Bu küplər antik dövr dəfn küplərini və orta əsrlərin təsərrüfat küplərini xatırladır. Küpə tipli qab fraqmentlərinin əksəriyyətinin üzərində, bəzilərinin həm də içərisində yanıq izləri diqqəti çəkir. Qabların bir çoxunun çiyin hissəsində qabartma və batıqlardan, cızma və çərtmələrdən ibarət naxışlar çəkilmişdir. Təsadüfi tapıntılar arasında orta əsr saxsı nümunələri ilə yanaşı orta tunc dövrünə, erkən dəmir dövrünə və antik dövrə aid nümunələrə də rast gəlinmişdir. Orta tunc dövrünə aid boz rəngli xaşal gövdəli qabın ağız və çiyin hissəsinə aid fraqment nəzəri cəlb edir. Onun ağız haşiyəsi azca geriyə qatlanmışdır. Möhkəm divarlıdır. Hər iki üzü yaxşı şüyrələnmişdir. Qabın çiyin hissəsində deşmə üsulla çəkilən dairəciklərdən və cızma üsulla çəkilən, iti ucları ağıza doğru yönələn həndəsi

xətlərdən ibarət naxış var. Nərgiztəpə ətrafından rast gəlinən qara cilalı keramika nümunələri bölgənin erkən dəmir dövrü saxsı məmulatı ilə oxşarlıq təşkil edir. Antik dövrə aid fraqmentlər isə əsasən narın gildən hazırlanmış, üzəri yaxşı hamarlanmış və şüyrələnmiş, daha çox nazik divarlı, üzərində qırmızı boya izləri olan qablara məxsusdur. Onların sırasında çəhrayı rəngli kasa və küpə tipli nümunələr də var.

Nərgiztəpə yaşayış məskəninin stratiqrafiyasını müəyyən etmək məqsədilə onun şimal-qərb hissəsində aparılan yoxlama qazıntı işləri bu abidənin əsasən üç mədəni təbəqədən ibarət olduğunu göstərdi: orta tunc, antik və orta əsrlər. Erkən dəmir dövrünə aid seyrək halda saxsı qırıqlarına (qara və boz rəngli, cilalı qabların ağız, gövdə və qulp hissələrinə) təsadüf edilməsi abidədə bu dövrə aid mədəni təbəqənin də olduğundan xəbər verir. Qazıntı zamanı 2,5 m dərinlikdə aşkara çıxarılan iri oval daşlardan və möhrədən ibarət divar diqqəti cəlb etmişdir. 2,7 m eni olan bu divarın abidə yerləşən təpənin bütün çevrəsi boyu uzandığını düşünmək olar. Bu divar və həmin qatdan seyrək də olsa əldə edilən orta tunc dövrü saxsı məmulatı Nərgiztəpənin Ağdam rayonu ərazisindəki Üzərliktəpə kimi orta tunc dövrü şəhər məskəni olduğunu göstərir. Divardan altdakı gilli torpaqdan əldə edilən gil insan fiquru daha çox maraq doğuran tapıntılardan olmuşdur. Hündürlüyü 4,2 sm olan bu fiqur bozumtul rəngli narın gildən hazırlanmışdır. Onun baş hissəsi, sağ qolu və ayaqları sınıq haldadır.







Nərgiztəpədən cənubdakı geniş sahələrdə iri daşlardan inşa olunmuş mürəkkəb quruluşlu, mükəmməl tikili qalıqlarının – divarların izləri müşahidə olunur. İki cərgə yumru və iri çaydaşlarından 1 m enində inşa olunmuş, aralarına xırda daşlar və torpaq doldurulmuş bu divarların əsasən bünövrə hissəsi qalmışdır. İlkin tədqiqatların gedişində onların 60 metrə yaxın hissəsi təmizlənərək açılmışdır.

Tikintidə istifadə edilmiş minlərlə iri, yumru, ağır bazalt daşlarının təxminən bir kilometrlik məsafədə olan Hunaşen çayının yatağından gətirilməsi ehtimal olunur. Divarların ətrafından aşkar edilən saxsı və şüşə qab nümunələri bu tikili qalıqlarının erkən orta əsrlərə aidliyini təsdiq edir. Sonralar əhəmiyyətini itirən bu ictimai tikililərin daşlarından müxtəlif məqsədlər üçün istifadə olunmuşdur.

Nərgiztəpədən 0,2 km şərqdə, bu abidəyə gedən yolun solunda vaxtilə qazılmış səngər yerində təmizlənən profildə qalınlığı 1,5 metrə çatan mədəni təbəqə müəyyən edilmiş və çoxlu saxsı qırıqları toplanmışdır. Qum qarışıqlı gildən hazırlanan bu nümunələrin əksəriyyəti erkən orta əsrlərə aiddir. Onların bəzilərinin üzərinə qırmızı boya çəkilib hamarlanmışdır. Çərtmə və cızma naxışlı nümunələr də var. Nazik divarlı, nisbətən narın gildən hazırlanaraq yaxşı bişirilən saxsı qaba məxsus bir fraqment diqqəti çəkir. Onun qırmızı rəngdə olan üzərinə çərtmə və cızma üsulla çəkilmiş perpendikulyar kəsişən haçavari xətlərdən naxış və sünbülşəkilli bəzək vurulmuşdur. Saxsı qablar, xüsusilə məişət keramikası üzərindəki naxışlar alban tayfalarının bədii zövqünü əks etdirir.



Son illər T.Əliyev və B.Helvingin rəhbərlik etdiyi Azərbaycan-Almaniya Beynəlxalq ekspedisiyası Mil-Qarabağ bölgəsində Neolit-Eneolit dövrlərinə aid Kamiltəpə yaşayış məskənində intensiv araşdırmalar aparmaqla yanaşı bölgədə – xüsusilə Şpartı, Qarasu, Hunaşen və Qarqarçay hövzələrində müxtəlif tarixi dövrlərə aid yüzdən artıq arxeoloji abidə qeydə almışdır. Bu abidələrin bir qismi Nərgiztəpənin yaxınlığında yerləşir. Almaniya, İngiltərə, İtaliya və başqa ölkələrdən olan əcnəbi tədqiqatçılarla Nərgiztəpədə görüşlər keçirilmiş, müzakirələr aparılmışdır.

Beləliklə, Nərgiztəpədə aparılan ilkin tədqiqatlar Azərbaycanın maddi mədəniyyət abidələri sırasında onun önəmli yer tutduğunu üzə çıxardı və ona elmi ictimaiyyətin marağını artırdı. Bu abidədə tədqiqatların davam etdirilməsi və genişləndirilməsi nəzərdə tutulur.

## Ədəbiyyat

1. Авдеев М. Мильско-Карабахская степь. Кочевое и оседлое хозяйство (Обследование 1926-1928 гг.). Баку, 1929, 267 с.
2. Cəmşidov Şamil. Kitabi-Dədə Qorqud. Bakı: Elm, 1977, 176 s.
3. Хамдуллах Газвини. Нузхат ал-Кулуб. (Материалы по Азербайджану). Пер. З.М.Буниятова и И.П.Петрушевского. Баку: Элм, 1983, 65 с.
4. Иессен А.А. Из исторического прошлого Мильско-Карабахской степи //МИА СССР, № 125. Труды Азербайджанской археологической экспедиции, том 2 (1956-1960 гг.). Москва-Ленинград: Наука, 1965, с. 10-36.
5. İzahlı coğrafi adlar lüğəti. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1960, 266 s.
6. Qeybullayev Q. Qarabağ (Etnik və siyasi tarixinə dair). Bakı: Elm, 1990, 248 s.
7. Нуриев А.Б. Ремесло Кавказской Албании (III-VIII вв). Баку, 2009, 433 с.

**Qeyd:** Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir –
**Qrant № EİF/ MQM-2Şuşa-2013-3(9)-10/03/5**

# FIRST ARCHAEOLOGICAL INVESTIGATIONS IN NARGIZTEPE

**Tevekkul Aliev, Bahlul Ibrahimly, Gulana Huseynova**

## Summary

**Keywords: Karabakh monuments. Nargiztepe settlement, Oghuz yurdu, grave signs and stamps, Turkish toponyms.**

During archaeological reconnaissance works on the territory of Khojavend district Nargiztepe and nearby areas underground materials were examined and collected, new monuments were unearthed.

Nargiztepe is located on a natural elevation, located on the eastern slope of the Karabakh Mountains. The height of the monument - 8 m, and the area comes to 1.3 hectares. There are medieval settlement, remains of dwellings and cemeteries around Nargiztepe. On some tombstones marked signs and hallmarks. Such images are associated with the Turkish-Oghuz tradition and begin to spread in Azerbaijan since the Early Middle Ages.

Exploratory excavations in Nargiztepe determined that the monument is composed mainly of three cultural layers: medium bronze, antiquity and medieval. During the excavation at a depth of 2.5 m defensive wall with a thickness of 2.7 m of large stones and mudbricks were found. This wall and revealed ceramics from the same layer shows that Nargiztepe was urban-type settlement of the Middle Bronze Age.

# ПЕРВИЧНЫЕ АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ НА НАРГИЗТЕПЕ

**Таваккул Алиев, Бахлул Ибрагимли, Гюлана Гусейнова**

## Резюме

**Ключевые слова: памятники Гарабаха, поселение Наргизтепе, Огуз юрду, надгробные знаки и клеймы, топонимы тюркского происхождения.**

Во время проведения разведывательно-поисковых работ на территории Ходжавендского района Азербайджана были обследованы поселение и могильник Наргизтепе и близлежащие территории, собран подъемный материал, выявлены новые памятники.

Наргизтепе расположен на естественной высоте, находящейся на восточном склоне Гарабагских гор. Высота памятника 8 м, а плоская вершина и пологие склоны холма занимают площадь около 1,3 га. Вокруг Наргизтепе находятся средневековое поселение, остатки жилищ и кладбище. На некоторых надгробных камнях зафиксированы знаки и клеймы. Такие изображения связаны с тюрками-огузами и в Азербайджане они начинают распространяться с раннего средневековья.

Разведочные раскопки в Наргизтепе определили, что данный памятник состоит из трех культурных слоев: среднебронзового, античного и средневекового. В ходе раскопок на глубине 2,5 м была обнаружена оборонительная стена толщиной в 2,7 м из крупных камней и глинобита. Эта стена и выявленная керамика из того же слоя показывает, что Наргизтепе являлся поселением городского типа эпохи средней бронзы.

# ŞƏMKİR ŞƏHƏR YERİNDƏN TAPILMIŞ QAŞLI ÜZÜKLƏR

Sənurə Dostiyeva
(Azərbaycan Dövlət Pedaqoji Universiteti)
sanuradostiyeva@gmail.com

**Açar sözlər: Şəmkir, orta əsr, qaşlı üzük, daş qaş, zərgərlik.**

Orta əsr Şəmkir şəhər yerində Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Regionların İnkişafı İctimai Birliyinin birgə layihəsi üzrə aparılan geniş miqyaslı arxeoloji qazıntılar nəticəsində əldə olunan bəzək əşyaları geyilmə tərzinə görə baş, boyun və sinə, qol-bilək, barmaq və geyim bəzəkləri ilə təmsil olunublar (3, s.444-463). Əl-barmaq bəzəyi olan üzüklər şəhər sakinlərinin məişətində geniş yayılmışdı. Onlar qızıldan, gümüşdən, mis və tuncdan, şüşədən hazırlanıb (3, s.446, 454-455). "Xatəm" adlandırılan qaşsız, sadə üzüklər əsasən misdən hazırlanıb və azlıq təşkil edir. Həmin bəzək əşyaları en kəsiyi dairəvi və ya yarımdairəvi mis çubuqdan halqa formasında hazırlanıb. Onlar uzun müddət torpaqda qaldıqlarından bu və digər dərəcədə oksidləşməyə məruz qalıblar.

Qaşlı üzüklər müxtəlifliyi ilə fərqlənir. Onlar əsasən qızıldan, gümüşdən, mis və tuncdan hazırlanıb. Hazırkı məqalədə məqsəd 2007-2014-cü ildə Şəmkir şəhər yerindən tapılmış qaşlı üzükləri araşdırmaq, onların tipoloji təsnifatını aparmaq, onların şəhər sakinlərinin məişətindəki yerini müəyyənləşdirməkdən ibarətdir.

Qızıldan hazırlanmış qaşlı üzüklər iki nüsxə ilə təmsil olunub. Şəmkir şəhər yerində, IV qazıntı sahəsində monumental binanın qazıntısından tapılmış həmin qızıl üzüklər X əsrin sonu-XI əsrin əvvəlində şəhərdə yerli zərgərlərin yüksək peşəkarlıq səviyyəsini sənədləşdirən artefaktlardır. Onlardan birinin en kəsiyi dairəvi yoğun məftildən hazırlanmış halqa hissəsinin üstünə oval biçimli qaş yuvası birləşdirilib (4, s.65). Yuvanın səthi bayırdan qabarıq nöqtələrin əmələ gətirdikləri üçbucağa yaxın həndəsi fiqurların düzümündən ibarət dekorla bəzədilib. Yuvanın içərisinə isə firuzə qaşı yerləşdirilib. Qaş diqqətlə cilalanıb (I tablo, 1). Qeyd edək ki, firuzə daşı orta əsrlərdə Müsəlman Şərqində zərgərlik sənətində geniş tətbiq olunur və semantik məna daşıyırdı. Firuzə daşı, görünür, Azərbaycana Xorasandan gətirilirdi. Məlum olduğu kimi, firuzənin başlıca yataqları Mərkəzi Asiya və Sinay yarımadasındadır. Orta əsrlərdə Nişapur firuzə yataqları Müsəlman dünyasında məşhur idi və buranın firuzəsi yüksək qiymətləndirilirdi (15, c.144). Nəsrəddin Tusi firuzənin yeddi növünün olduğunu, ən yaxşı firuzənin Nişapur mədənində çıxarıldığı, oradakı firuzənin çox təmiz və saf olduğunu qeyd edir (8, s. 21-22). Əbu Reyhan əl-Biruni firuzənin emalından bəhs etməklə yana-

şı həm də "firuzə" adının etimalogiyasına diqqət yetirmiş, onun fars dilində "qələbə", "uğur" mənasını bildirdiyini və bu qiymətli daşın qələbə və xoşbəxtlik gətirdiyini xüsusi qeyd etmişdir (12, c. 436).

Monumental binadan tapılmış digər qızıl üzük kiçik ölçülü olub, görünür, uşaq bəzəyi imiş. Onun barmağa taxılan hissəsi oval şəklindədir. Üstündə tacvari monolit yuvada yerləşdirilmiş qırmızı qaşı var. Qaş çoxüzlü formadadır. Üzüyün hündürlüyü 2 sm-dir (I tablo, 2).

Qızıl üzüklərin hazırlanma texnikası fərqlidir. Kiçik ölçülü qızıl üzük qəlibdə hazırlanıb. Görünür, zərgər əvvəlcə üzüyü qəlibdə hazırlamış, sonra qırmızı rəngli monolit mineral daş-qaş üzüyün qaş yuvasına taxılmış və lehimlənmişdir. Digər qızıl üzüyün halqa və qaş hissəsi, yuxarıda qeyd olunduğu kimi, ayrı-ayrılıqda hazırlanmışdır. Qızıl məftil qızdırılaraq halqa formasına salınmış və onun üstünə qaş yuvası qaynaq edilmişdir. Yuvaya isə firuzə qaş taxılaraq bərkidilmiş və lehimlənmişdir.

Qaşlı gümüş üzük Şəmkir şəhər yerinin III qazıntı sahəsindən tapılmış və XI əsrə aid edilir. Onun oval formalı geyilən hissəsinin üst tərəfində dördbucaqlı qaş düzəldilmişdir. Qaşın üzərindəki naxış isə pis qaldığından xarakterini müəyyənləşdirmək çətindir. Üzüyün diametri 18-20 mm-dir (3, s. 454, inv. 595/2009). Üzüyün qaşı metaldandır. Belə üzükləri hazırlamaq üçün gümüş məftildən əvvəlcə onun halqası hazırlanırdı. Bunun üçün üzüyün ölçüsünə uyğun gümüş məftil kəsilir və qızdırıldıqdan sonra tədricən əyilərək ucbauc birləşdirilərək qaynaq edilirdi. Daha sonra üzüyün qaşı yastılanaraq təbəqə halına salınır, nəzərdə tutulan formada düzəldilir və zərb texnikası ilə naxışlanırdı (6, s. 96).

Mis və tuncdan qaşlı üzüklər daha çoxdur. Onların üst tərəfində metal təbəqədən kvadrat, dairəvi, rombvari və çoxbucaqlı formasında qaş hazırlanaraq qaynaq edilmişdir (3, s.455). Belə üzüklərdən birində en kəsiyi yastı halqasının üst tərəfində dairəvi, üzəri hamar, saya lövhədən ibarət qaş vardır. Halqa hissə qismən qırılıb (I tablo, 3). Digər mis üzüyün halqa hissəsi en kəsiyi yastı-qabarıq çubuqdan hazırlanmış, üstündəki qaş konusvari formadadır. Diqqəti çəkən qaş hissəyə keçiddə yanlarda kiçik konusvari çıxıntıların olmasındadır. Üzüyün diametri 19 mm, hündürlüyü 22 mm (I tablo, 4). Diametri 18 mm, hündürlüyü 20 mm olan qaşlı üzük formasının incəliyi ilə fərqlənir. Onun üstündəki qaşı dördbucaqlı lövhə formasındadır (I tablo, 5). En kəsiyi yastı mis çubuqdan hazırlanmış üzüyün geyilən halqa hissəsinin diametri 18 mm olub üst tərəfində düzbucağa yaxın formada lövhə qaş vardır (I tablo, 6). Qeyd etmək lazımdır ki, mis və tuncdan hazırlanmış lövhədən ibarət qaşı olan üzüklərin şəhər əhalisinin məişətində geniş yayılması Şəmkir şəhərinin məhəllə xüsusiyyəti olmayıb Azərbaycanın digər orta əsr şəhərləri üçün də səciyyəvidir. Bunu arxeoloji qazıntılar nəticəsində Beyləqan, Bakı, Şabran və digər orta əsr şəhərlərinin arxeoloji qazıntılarından əl-

də olunmuş qaşlı üzüklər əyani nümayiş etdirir (2, s.141, şəkil 39, 4-6; 5, s.56, şəkil 62, j-i; 7, s.48-49; 10, s.50-51;13, с. 114, рис. 38, -3,5).

Metal qaşlı üzüklər arasında kiçik ölçülü nüsxələr də vardır. Kiçik ölçülü üzüklərdən birinin yastı, nazik mis çubuqdan halqası dördkünc mis lövhədən ibarət qaşı vardır. Halqasının diametri 16 mm (I tablo, 7). Digər kiçik ölçülü misdən qaşlı üzüyün halqa hissəsinin diametri 16 mm olub üzərində dördkünc lövhədən ibarət qaş vardır (I tablo, 8). Görünür, bu üzüklər nazik barmaqlı qadınlar və ya uşaqlar üçün nəzərdə tutulubmuş.

Oksidləşməyə məruz qaldıqlarından mis və tunc üzüklərin metal lövhə qaşların üzərində naxışın olub-olmamasını müəyyən etmək çətindir.

Bəzən qaşlı mis və tunc üzüklərdə mineral qaşa rast gəlinir. VI qazıntı sahəsindən tapılmış XI əsrə aid mis üzüyün en kəsiyi oval, mis məftildən halqa hissəsinin yarısı qırılıb (3, s. 455). Üstündəki oval yuvanın içərisində ağ süd rəngi, oval formalı mineral qaşı vardır. Üzüyün yuvasının diametri 1,3 sm (I tablo, 10). En kəsiyi yastı, mis çubuqdan halqası olan üzüyün üstü kəsilmiş konus formasında qaş yuvası vardır. Qaşı düşmüşdür. Diametri 1,7 sm, hündürlüyü 2 sm (I tablo, 9).

Şüşədən hazırlanmış qaşlı üzüklər bir nüsxə ilə təmsil olunub. Narınqalada, IV qazıntı sahəsindən tapılan bu üzük açıq yaşıl çalarlı şüşədən hazırlanmış, üst tərəfində düzbucaqlıya yaxın formada lövhə düzəldilmişdir (I tablo, 11). Şüşə üzük nümunələri arxeoloji qazıntılar nəticəsində Mingəçevir, Şabran, Şamaxı, Qəbələ, Dərbənd şəhərlərindən də tapılıb (1, s.166;10, s.54). Qeyd edək ki, şüşədən qaşlı üzüklər əhalinin məişətində geniş yayılmamışdı, arxeoloji tədqiqatlar nəticəsində tapılmış belə bəzək əşyaları bir neçə nüsxə ilə məhdudlanır. Misal olaraq, Qəbələ qazıntılarından aşkarlanmış nüsxəni göstərmək olar (9, s. 157, I tablo, 11).

Daş qaşlı üzüklərin istehsalında üzüyün halqa və qaş hissəsi əksər hallarda ayrı-ayrılıqda hazırlanırdı. Daş qaş üçün xüsusi hazırlanmış qaş-yuva hissə halqanın üstünə qaynaq edilirdi. Qaşı saxlamaq üçün yuvada qarmaqlar düzəldilirdi ki, bu da üzüyün dekorativliyini bir qədər də artırırdı. Qaş-yuvanın forma və ölçüsü daş-qaşın forma və ölçüsündən asılı olurdu. Daha sonra mineral daş-qaş yuvaya taxılır və lehimlənirdi (6, s. 97; 11, s.71).

Şəmkir şəhər yerinin Narınqala sahəsində aparılan arxeoloji qazıntılar zamanı bir neçə mineral üzük qaşı da tapılıb. Monumental binadan tapılmış mineral daşdan hazırlanmış ağ rəngli qaş kündə formasında olub diametri 11,5 mm-dir (I tablo, 12). Həmin binadan tapılmış digər kiçik ölçülü üzük qaşı açıq çəhrayı rəngli əqiqdən hazırlanmış və yumurtavari formadadır (I tablo, 13). Onun uzunluğu 11 sm.

Rombvari formada, 7x5 mm ölçülərdə olan göy və yaşıl rənglərin qarışığından alınan firuzəyi rəngdə qaş görünür şüşədəndir (I tablo, 14).

Üzük bəzək əşyası olması ilə yanaşı həm də Azərbaycan xalqının məişətində hifzedici funksiya daşımışdır. Azərbaycan ailəsində yeni doğulmuş körpənin ilk dəfə çimizdirilməsi üçün hazırlanan suya duz və kömürlə yanaşı həm də üzük salınırdı. Üzüklə bağlı digər adət qadının xörək bişirərkən barmağında üzük olmasını tələb edir (11, s. 185). Xalq anlamına görə üzüyün itməsi xoşagəlməz hal olub baş verəcək arzuolunmaz hadisə üçün xəbərdarlıqdır. Məşhur Şərq mütəfəkkiri Ömər Xəyyamın üzüklə bağlı fikirləri orta əsr müsəlman Şərqində üzüklə bağlı inamları əks etdirir. Ömər Xəyyama görə hər bir kəs barmağında şəxsi üzüyünü gəzdirməlidir. Üzüyün itirilməsi və ya zədələnməsi, korlanmsı arzuolunmaz hadisənin müjdəsidir. Ömər Xəyyamın tarixdən gətirdiyi misallar da maraqlıdır. O, qeyd edir ki, Süleyman padşah şahlığını ona görə itirdi ki, öz üzüyünü korlamışdı"(14, c. 199).

Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş qaşlı üzükləri araşdıraraq belə nəticəyə gəlmək olar ki, Şəmkir şəhərinin zərgərlik sənəti orta əsr Azərbaycan zərgərliyinin səciyyəvi xüsusiyyətlərini özündə əks etdirir və bütövlükdə Müsəlman Şərq zərgərliyi dairəsinə daxildir.

## Ədəbiyyat

1. Azərbaycan arxeologiyası. Altı cilddə. VI cild. Bakı, "Şərq-Qərb", 2008, 632s.
2. Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı, Bakı Universiteti nəşr., 2001, 396 s.
3. Dostiyev T.M., Bəşirov R.Y., Mirzəyev R.H., Hüseynli N.N. Orta əsr Şəmkir şəhəri: arxeoloji qazıntılar və artefaktlar. Bakı, Çaşıoğlu, 2013, 516 s.
4. Dostiyev T.M., Bəşirov R.Y., Hüseynli N.N.,Mirzəyev R.H. Şəmkir şəhər yerində 2013-cü ildə aparılan arxeoloji tədqiqatların elmi hesabatı. Bakı, 2014, 68 s.
5. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, Elm, 1979, 197 s.
6. İbrahimov F. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (IX-XIII əsrlər). Bakı, Elm, 1988, 176 s.
7. İbrahimov F. Bakıda metalişləmə tarixi (IX-XVII əsrlər). Bakı, Elm, 1995, 88 s.
8. Nəsrəddin Tusi. Tənsuqnameyi-Elxani (Cavahirname). Bakı,Elm, 1984, 30 s.
9. Osmanov F.L. Qəbələnin şüşə məmulatı.// Azərbaycanın maddi mədəniyyəti. V cild. Bakı, Azərbaycan SSR EA nəşr., 1964, s.149-160.
10. Rəcəbova B.Ə. Azərbaycanın orta əsr qadın bəzəkləri (IV- XIII əsrlər). Bakı, 2000, 136 s. + 22 tablo
11. Rəcəbova B.Ə. Azərbaycanın ənənəvi sənətkarlıq məmulatı və istehsalı tarixindən (IV-XVII əsrlər). Bakı, Elm, 2009, 303 s. + 41 ill.
12. Ал-Бируни. Собрание сведений для познания драгоценностей. Москва, 1963, 518 с.
13. Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва, 2000, 176 с.
14. Омар Хайам. Трактаты. Москва, Изд-во Восточ. лит., 1961, 338 с.
15. Петров И.П. Рассказы о драгоценных камнях. Москва, Наука,1985, 175 с.

## SIGNET-RINGS OF SHAMKIR TOWN

**Sanureh Dostieva**

### Summary

**Key words: Shamkir, middle ages, signet-rings, insertion, jewelry.**

The article investigates the signet-rings found from the medieval town of Shamkir. They are mainly metallic, made of gold, silver, copper and bronze. There is an example of glass as well. Golden rings have insertion of precious stones. Silver, copper and bronze rings basically have metal shields in rectangular, square, diamond and oval shape. Some of them are decorated with ornaments. Some examples have mineral stones inserted in a slot. Glass ring is presented with an example of a monolithic rectangular shield. Different techniques are used in the manufacturing of rings jewelers: forging, drawing, molding, embossing, stamping, soldering, polishing and etc.

## ПЕРСТНИ ИЗ ГОРОДИЩА ШАМКИР

**Санура Достиева**

### Резюме

**Ключевые слова: Шамкир, средние века, перстень, вставка, ювелирное дело.**

В статье рассматриваются перстни, выявленные из средневекового городища Шамкир. Они, в основном, металлические и изготовлены из золота, серебра, меди и бронзы. Имеется также один экземпляр из стекла. Золотые перстни имеют вставки из драгоценных камней. Перстни из серебра, меди и бронзы, в основном, имеют металлические щитки в прямоугольной, квадратной, ромбовидной, овальной форме. Некоторые из них украшены орнаментом. Интересны экземпляры с минеральные камнями, вставленными в гнезда. Стеклянный перстень представлен монолитным образцом с прямоугольным щитком. При изготовлении перстней ювелиры Шамкира применяли различные приемы: ковка, волочение, литье, чеканка, тиснение, пайка, полировка и т.д.

1 Tablo



# ŞƏMKİR ŞƏHƏR YERİNDƏN TAPILMIŞ "MİNAİ" TİPLİ FAYANS QABLAR

Tarix Dostiyev
(Bakı Dövlət Universiteti)
E-mail: dostiyev_tarikh@yahoo.com

**Açar sözlər: Şəmkir, fayans, minai, miniatür, şürüstü naxış.**

2007-2014-cü illərdə Şəmkir şəhər yerində aparılan geniş miqyaslı arxeoloji qazıntılar nəticəsində xeyli miqdarda fayans qab nümunələri aşkarlanmışdır. Tapılmış fayans qab-qacağın böyük əksəriyyəti yerli istehsalın məhsuludur. Arxeoloji qazıntılar zamanı yerli istehsal məhsulu olması şübhə doğurmayan fayans məmulatı ilə yanaşı xeyli miqdarda zərnaxışlı və "minai" tipli fayans qablar - kasa, boşqab, piyalə və bardaq nümunələri da tapılmışdır (1, s.368-388). Qeyd edək ki, zərnaxışlı fayans qablar Azərbaycanın az və ya çox dərəcədə arxeoloji qazıntılar aparılmış orta əsr şəhərlərindən məlumdur. Bu tip fayans qablar qızıl, gümüş və zərnaxışlı şüşə məmulatına bənzəməklə zinət əşyaları sırasına daxil idi, digər keramika məmulatından dəyəri daha yüksək idi (5, p. 26; 8, c. 40). M.M.Dyakonov hələ keçən əsrin 30-cu illərində zərnaxışlı qabların Qafqaz və Orta Asiyada nəinki istifadə olunduğunu, müəyyən dərəcədə həm də orada istehsal olunduğunu bildirir (7, s. 196). V.N.Leviatov da arxeoloji tədqiqatların nəticələrinə əsaslanmaqla zərnaxışlı fayans qabların yerli istehsala məxsusluğunu, Gəncə şəhərində zərnaxışlı fayans qabların istehsal edildiyini bildirərək şəhərin sənətkarlar məhəlləsindən arxeoloji qazıntılar zamanı istehsal olan zərnaxışlı fayans qab tapıldığını qeyd edir (9, s. 33).

Tədqiqatçıların böyük əksəriyyəti bu tip fayans məmulatının, xüsusilə də "minai" tipli qabların başlıca istehsal mərkəzlərinin Kaşan və Rey şəhərləri olduğunu bildirirlər. Bu şəhərlər XII əsrin ikinci yarısı və XIII əsrin əvvəllərində Azərbaycan Atabəylər dövlətinin mühüm dulusçuluq mərkəzləri idi. Bəzi tədqiqatçılar zərnaxışlı və "minai" tipli fayans qabların yalnız bir mərkəzdə, Kaşan şəhərində istehsal edildiyini vurğulayırlar (5, p. 59; 6,p. 44; 8, c. 41). "Minai" tipli fayans qablar yüksək bədiiliyi ilə fərqlənir. Qeyd edək ki, elmi ədəbiyyatda yer almış "minai" istilahı XIX əsrdə Avropanın əntiqçi dairələri arasında meydana çıxmışdı. Onlar Yaxın və Orta Şərqdən gətirilən orta əsr keramikası arasında yaraşığı, əlvanlığı ilə seçilən bu keramikanı, görünür, fars tacirlərindən alırdılar və onların adlandırdığı kimi həmin qabları "minai" qablar adlandırırdılar (8, s.48). Orta əsr yazılı qaynaqlarında isə bu keramika "Yeddi rəng" ("həft rəng") adı ilə məlumdur (11, s.198).

Şəmkir şəhər yerindən tapılmış “minai” tipli fayans qab nümunələri texnoloji xüsusiyyətlərinə görə iki qrupa ayrılır: a) ağ, südrəngi şir üzrə polixrom şirlər və şirsiz rənglərlə işlənmiş qablar; b) firuzəyi şir üzrə polixrom şirlər və şirsiz rənglərlə işlənmiş qablar. Birinci qrupa daxil olan nümunələr daha çoxdur və mürəkkəb süjetli, yüksək bədiiliyi ilə fərqlənən, miniatürləri xatırladan nümunələr məhz bu qrupda qərarlaşıb.

Hündür, halqavari oturacağı olan kasa tipli qabın alt hissəsi yüksək bədii tərtibatı ilə fərqlənir. Qabın dibində, kompozisiyanın mərkəzində qırmızı-narıncı rənglə çəkilmiş dairə içərisində nəbati fonda süvari təsvir olunub. At qəhvəyi, qara, mavi rənglərlə işlənərək, qaçış anında təsvir edilib. Atlı enli sifət, qıyıq göz, saçları arxaya tökülmüş gənc insandır. Başında göy rəngdə sarğıyabənzər geyim vardır. Əyninə göy rəngdə qollu, ətəyədək uzanan üst geyimi və mavi rəngdə şalvar geyibdir. Ayağında dabansız dəri çəkməyə bənzər ayaqqabı vardır. Süvarinin başının üzərində halə olması onun seçilmiş şəxs olmasına dəlalət edir. Bunu habelə atın bəzədilməsi, quyruğunun isə düyünlənmiş vəziyyətdə təsvir edilməsi də təsdiqləyir. Nəbati naxış göy rənglə, qönçə qırmızı rənglə işlənmişdir. Kasanın divarında, qurşaqda tor naxışı çəkilib. Tor göy rənglə çəkilmiş, rombvari damalarında kənarı göy rənglə işlənmiş mavi dairəcik, üçbucaqlı damalarında isə qırmızı dairəcik vardır. Kasanın oturacağının diametri 8,2 sm, hündürlüyü 1,7 sm, fraqmentin diametri 12 sm, hündürlüyü 4,8 sm (I tablo, şəkil1). Qeyd edək ki, tapılan minai tipli qablar üzərindəki at təsvirlərinin, onun əsləhələrinin vahid üslubda işlənməsi diqqəti çəkir. Digər tərəfdən diqqəti çəkən dövrün miniatür rəsmlərində olduğu kimi atın quyruğunun düyünlənmiş vəziyyətdə təsvir edilməsidir. Xatırladaq ki, atın quyruğunun düyünlənməsi adəti səlcuqlarda olmuş və süvarinin əyanlar təbəqəsinə mənsubluğuna dəlalət edir. Sədrəddin Əli əl-Hüseyni “Səlcuq dövləti haqqında məlumat” adlı əsərində Malazgird döyüşündən bəhs edərkən yazdığı, İbn əl-Əsirin təkrarladığı məlumatda bildirilir ki, sultan əsgərlərinə müraciət edərək “Kim dönmək istəyirsə dönsün, burada Allahdan başqa “get və ya getmə”- əmr edən hakimiyyət yoxdur. O, oxu və yayı tulladı, sonra qılıncı götürdü, öz əli ilə atının quyruğunu düyünlədi. Əsgərlər də bunun kimi etdilər. Ondan sonra bir ağ paltar geydi və ətirləndi və “Əgər mən ölərəmsə, bu mənim kəfənimdir” deyərək rumlara tərəf yeridi” (2, s. 147; 10, c. 59).

Kiçik tutumlu kasa tipli qaba məxsus digər bir fraqment üzərində də süjetli səhnə, süvari təsviri çəkilib. Atlı çatma qaşlı, iri gözlü, saçları çiyninə tökülmüş gəncdir. O, cübbə tipli uzun ətəkli üst geyimi, şalvar, başına üstündə çıxıntısı olan baş geyimi, ayağına uzunboğaz dəri çəkmə geymişdir. Başının üzərində halə vardır. Çiyindən qola keçiddə xüsusi zolaq verilib (I tablo, şəkil 2). Burada təsvirdəki dinamika, açıq-qəhvəyi, solğun qəhvəyi,

boz rəng çalarlarının, qara və qırmızı- qəhvəyi rənglərlə uğurlu ahəngi, süvari və atın təsvir travtovkası bədii ifadəliyi gücləndirir.

Piyalə tipli qabın iki kiçik fraqmenti incə işlənməsi ilə diqqəti çəkir. Qabın divarında gənc atlı təsvir olunub. Onun enli sifəti, qıyıq gözləri, çiyninə tökülmüş qara saçları vardır. Əyninə tütün rəngində qollu, uzun ətəkli cübbə geyinib. Cübbənin üzəri torabənzər, boz xətlə işlənmiş naxışla bəzədilib. Torun hər bir damasında nöqtə vardır. Çiyin hissə əlavə olaraq həddən artıq nazik qızıl zolaqla bəzədilib. Qızıl nazik zolaq at əsləhələrinin işlənməsində tətbiq olub. Atın yəhəri açıq qəhvəyi rəngdə verilib. Atın yalı və gözləri qara rənglə, gövdəsi boz rəngin fərqli çalarında işlənib. Yəhər isə qəhvəyi və solğun qəhvəyi rəngdədir. İkinci fraqmentdən aydın olur ki, təsvirdən yuxarıda göy və qəhvəyi rənglərlə nəbati naxış elementi yerləşdirilib. Qabın ağzından aşağıda tünd mavi rəngli qurşaqda ərəb əlifbasının kufi xətti ilə yazından ibarət epiqrafik naxış vardır. Kompozisiyanı qabın ağzındakı damcıvarı xırda dairəciklərin düzümündən ibarət haşiyə tamamlayır. Piyalənin divarı bayır tərəfdən sadə həndəsi naxışla bəzədilib (II tablo, şəkil 4). Nazik divarlı digər bir piyalənin ağzının fraqmentində də oxşar dekora rast gəlirik. Piyalənin ağzından aşağıdakı ornamental qurşaqda culğalaşmış həndəsi və epiqrafik ornament, qabın ağzında isə damcıvarı xırda dairəciklərin düzümü verilib. Piyalənin divarı bayır tərəfdən qara mürəkkəblə epiqrafik naxışla - nəsx xətti ilə yazı ilə bəzədilib (I tablo, şəkil 3-4).

“Minai” tipli fayans genboğazlı, iki qulplu və ya tayqulp tipli qab bir nüsxə ilə, fraqmentlərlə təmsil olunub. Fraqmentlər kənarı düz ağzı, qısa, gen boğazı, bikonik gövdəsi, zoomorf formalı qulpu olan genboğazlı, iki qulplu və ya tayqulp tipli qaba məxsusdur. Qabın üzəri bayır tərəfdən ornamental qurşaqlara bölünüb. Dekorun tektonikası qabın forması ilə ahəngdarlıq təşkil edir və onun ifadəliyini daha da gücləndirir. Qabın boğazındakı qurşaqda mürəkkəb, nəbati naxış elementləri ilə qarışan epiqrafik naxış çəkilib. Naxış işləmələri boz kül rəngi və qırmızı-qəhvəyi rənglə yerinə yetirilib. Gövdənin yuxarı yarısındakı qurşaqda nəbati naxış elementi bir növ dairə əmələ gətirir və onun içərisində insan təsviri çəkilib. Fraqmentdəki insan təsvirlərinin ikisi də enli sifət, çatma qaşlı, iri gözlü, qara saçları boyunadək tökülmüş insanı əks etdirir. Onların başında göy rəngdə baş geyimi, əynində dizədək uzanan cübbə və ya xalat vardır. Təsvirin birində geyim açıq mavi rəngdə olub qara və boz rənglərlə bəzədilmiş, digərində boz kül rəngində və göy rəngdə işlənmişdir. Təsvirləri ayıran nəbati naxışda budaqlar qara xətlə, yarpaqlar boz kül rəngi ilə, qönçələr isə qırmızı-qəhvəyi rəngdə işlənib. Gövdənin aşağısındakı qurşaqda boz kül rəngi rənglə tor çəkilib. Torun rombvari damalarında içərisi mavi oval, üçbucaq damalarda qəhvəyi dairəcik vardır. Dolçanın qulpu iri bədənli aslan formasındadır. Fiqurun ayaqları gövdənin yuxarısına, əlləri boğazın aşağısına, ağzı isə qabın ağzına yapışdı-

rılıb. Fiqurun başı qırmızı-qəhvəyi rəngdədir. Bədəni boz kül rəngi və qəhvəyi-qırmızı rənglərlə nəbati naxışla bəzədilib. Qabın içərisində ağ, süd rəngi şir üzrə qara mürəkkəblə epiqrafik dekor salınıb. Fraqmentin hündürlüyü 9,6 sm (III tablo).

Şəmkir şəhər yerindən tapılmış "minai" tipli fayans qabların üzərindəki süjetli təsvir motivləri, bir növ, o dövrün kitab miniatürlərini xatırladır. Bu nöqteyi- nəzərdən "minai" tipli fayans qabların üzərindəki təsvirlərin İstanbulda Topqapı sarayının kitabxanasında qorunan, miniatürçü rəssam Xoy şəhərindən olan Əbdül Mömin ibn Məhəmmədin "Vərqa və Gülşa" əlyazmasına çəkilmiş miniatürlərlə müqayisəsi diqqətəlayiqdir (3; 4). İstər ikonoqrafiya, istərsə rəng çalarlarında yaxınlıq o qədər aydın izlənilir ki, hətta "minai" tipli fayans qabların miniatürçü rəssam tərəfindən bəzədildiyini düşünmək olar. Müqayisəli təhlil həm də səlcuqlar dönəmində təsviri sənətdə vahid üslub halında özünü göstərən ikonoqrafik sxemlərin formalaşdığını təsdiqləməyə əsas verir.

Şəmkir şəhər yerindən tapılmış "minai" tipli fayans qab nümunələrinin digər iki nümunəsində də təsvir motivi dekorda aparıcıdır. Onlardan biri kasa tipli qabın oturacağının fraqmenti olub üzərində at təsvirinin fraqmenti və minai tipli qablar üçün səciyyəvi olan nəbati naxışla bəzədilib (IV tablo, şəkil 2). Başqa bir kasa tipli qabın da yalnız oturacaq hissəsi salamat qalmışdır, lakin onun dekoru mürəkkəbliyi ilə fərqlənir. Bu nümunədə göy, mavi, açıq narıncı və qara toxuma həndəsi, qıvrılan budaq, palmetta, üçləçəklərdən ibarət nəbati naxış elementləri, insan əlinin təsviri mürəkkəb bir dekor yaradır (IV tablo, şəkil 1). Ümumiyyətlə, təsvir motivli "minai" tipli fayans qablar orta əsr dekorativ-tətbiqi sənətin parlaq nümunələri olub maraqlı kompozisiya və kolorit əlvanlığı ilə insanı valeh edir. Bu qabların üzərindəki miniatürlərin şərtiliyinə baxmayaraq onlarda dekorativliyə əsaslanan realist meyl aydın izlənir, əlvan rənglər, ritmik dəyişən cizgilər, kompozisiya aydınlığı bədii ifadəliyi gücləndirir. Bütün bunlar süjetli motivlərə malik "minai" tipli fayans qabların bədii keramikanın nadir örnəkləri sırasına daxil edilməsini şərtləndirir.

Şəmkir şəhər yerindən tapılmış digər "minai" tipli fayans qab nümunələrinin bədii tərtibatında nəbati, həndəsi və epiqrafik naxışlar aparıcıdır. Bəzi tədqiqatçılar süjetli motivlərin olmamasını əsas götürərək belə fayans qabların "minai" tipli olmadığını bildirirlər (11, s.205). Əlbəttə, bu fikirlə razılaşmaq olmaz. Belə ki, V.Y.Kovalın haqlı olaraq qeyd etdiyi kimi, "minai" tipli fayans qabları səciyyələndirən başlıca meyar dekor motivi deyil, istehsal texnologiyasıdır (8, c. 49).

Hündür divarlı, ağzının kənarı düz kasa və ya boşqab tipli qabın fraqmentində ağ yerlik üzrə boz kül rəngi, narıncı, mavi və qəhvəyi rənglərlə naxış salınıb, Dekor, görünür, konsentrik tektonikayaya malik olub. Fraq-

mentin aşağısındakı qurşaqda boz kül rəngi boya ilə düz xətlə hüdudlanan dalğalı, şaquli xətlər çəkilib. Onunla növbəti ornamental qurşaq arasında ensiz, narıncı zolaq vardır. Növbəti qurşaqda stilizə olunmuş, həndəsiləşdirilmiş nəbati naxış elementlərinin düzülüşü yerləşir. Onu narıncı xətt növbəti ornamental qurşaqdan ayırır. Növbəti qurşaqda dörd dalğalı xətt çəkilib. Həmin qurşaq aşağıdan düz xətlə, yuxarıdan, qabın ağzına vurulmuş kiçik üçbucaqlar düzümü ilə hüdudlanır. Qabın bayır tərəfində, divarın yuxarısında narıncı xətlər ilə salınmış qurşaqda epiqrafik naxış vardır (II tablo, şəkil 3). Kiçik bir fraqment üzərində ağ, südrəngi şir üzrə qırmızı, mavi, qara və boz rənglərlə stilizə olunmuş nəbati naxış salınıb (II tablo, şəkil 1). Kasa və ya boşqab tipli qabın ağzının qırığı olan digər bir kiçik fraqmentin üzərində ağ, südrəngi şir üzrə göy, boz qara, qəhvəyi rənglərlə həndəsi və nəbati naxış elementləri, arxa tərəfində isə qara mürəkkəblə yazı vardır (II tablo, şəkil 2). Bikonik gövdəli, ağzının kənarı bayıra meylli piyalə məxsus fraqmentdə ağ, süd rəngi şir üzrə firuzəyi, qırmızı-qəhvəyi və mavi rənglərlə həndəsi, nəbati və epiqrafik naxışlardan ibarət dekorla bəzədilib (1, s. 386, inv. 302/2009). Fraqment kiçik olduğundan kufi xətli yazını tam oxumaq olmur.

İkinci qrupa daxil olan, yəni firuzəyi şir üzrə polixrom şirlər və şirsiz rənglərlə işlənmiş nümunələr kiçik fraqmentlərdən ibarətdir və onlar əsasən nəbati naxış elementləri ilə bəzədilib. Belə fraqmentlərdən biri qara, boz, qırmızı rənglərdən istifadə etməklə həndəsiləşdirilmiş nəbati naxışla bəzədilib (I tablo, şəkil 5). Eyni üslubda işlənmiş dekora başqa bir fraqment üzərində də rast gəlirik (I tablo, şəkil 6).

“Minai” tipli qabların istehsal texnologiyası haqqında XIV əsr müəllifi əl-Kaşani maraqlı məlumat verir. Onun dövründə artıq “minai” tipli qabların istehsalı tənəzzül etmişdi. Dulusçu ustalar bu tipli qabların istehsalında yeddi rəng əvəzinə dörd rəng işlədirdilər. Klassik dövrdə dəbdə olan süjetli motivlər unudulmuşdu (11).

Şəmkir şəhər yerindən tapılmış «minai” tipli qabların fraqmentlərinin forma və bədii tərtibatını tam təsəvvür etməyə imkan verən bütöv nüsxələr dünyanın müxtəlif muzeylərindən və şəxsi kolleksiyalardan məlumdur və onların hamısının Kaşan şəhərində istehsal olunduğu bildirilir. “Minai” tipli qabların istehsalına XII əsrin son rübündə başlanılmışdı və Azərbaycan Atabəylər dövlətinin mühüm dulusçuluq mərkəzi olan Kaşan şəhərində monqol işğalına qədər bu tip qabların istehsalı çiçəklənmə çağını yaşamışdı. Şəmkir şəhər yerindən tapılmış «minai” tipli qabların fraqmentləri də məhz həmin dövrə aiddir və görünür Kaşanda istehsal olunmuş, ticarət əlaqələri nəticəsində Şəmkir şəhərinə gətirilmiş və yerli sakinlərin məişətində istifadə edilmişdir. Keramika üzərində bu miniatür təsvirlər Azərbaycan Atabəylər dövlətində əhalinin məişəti, zövq və əxlaqı, bədii idealları haqqında mötəbər

mənbədir. Həmin keramika məmulatının yaradıcıları öz dövrünün mütərəqqi bədii baxışlarının ifadəçiləri idilər.

## Ədəbiyyat

1. Dostiyev T., Bəşirov R., Mirzəyev R., Hüseynli N. Orta əsr Şəmkir şəhəri: arxeoloji qazıntılar və artefaktlar. Bakı, Çaşıoğlu, 2013, 516 s.
2. İbn əl-Əsir. Əl-Kamil fi-t-tarix. Bakı, Azərbaycan SSR EA nəşr.,1959, 216 s.
3. Kərimov K. Azərbaycan miniatürləri. Bakı, İşıq, 1980, 222 s.
4. Cultural heritage of Azerbaijan. Miniatures. Baku, Chashioglu, 2012, 244 p.
5. Caiger-Smith A. Lustre pottery: technique, tradion and innovation in İslam and the Western world. London, Faber and Faber, 1985, 246 p.
6. Watson O. Persian lustre ware. London, 1985, 209 p.
7. Дьяконов М.М. Люстровое блюдо с изображением царского двора. // Памятники эпохи Руставели. Ленинград, Изд-во АН СССР, 1938, с. 193-212
8. Коваль В.Ю. Керамика Востока на Руси IX-XVII вв. Москва, Наука, 2010, 269 с.
9. Левиатов В.Н. Керамика Старой Гянджи. Баку, Изд-во Аз.ФАН, 1940, 44 с.
10. Садр ад-Дин Али ал-Хусайни. Ахбар ад-даулат ас-селжукиййа. Изд. текста, перевод, введение и примечания З.М.Буниятова. Москва, Наука, 1980, с. 273 с.
11. Стародуб Т.Х. Иранская керамика с надглазурной полихромной росписью (минаи). // Музей. Вып.9. Москва, 1988.

## THE “MINAI” SORT OF FAIENCE CROCKERY FROM MEDIEVAL TOWN OF SHAMKIR

**Tarikh Dostiev**

**Summary**

**Key words: Shamkir, faience, minai, miniatures, overglaze paintings.**

The article is dedicated to the minai sort of faience crockeryfound in different years in Shamkir town. This pottery is represented by two sub-groups: a) milky white glaze; b) turquoise glaze. Samples with milky-white glaze are dominated. They are decorated with painted polychrome glazes and unglazed colors. One sample of this subgroup is further embellished with the finest gold foil lining.Samples of this subgroup, that stand high artistry, decorated with a subject image resembling book illustrations - miniature era.

Floral ornaments are dominated in the décor of faience products covered with turquoise glaze.

The “Minai” sort of faience crockery from medieval town of Shamkir date back to the last quarter of the XII and the beginning of the XIII century.

## ФАЯНСОВАЯ ПОСУДА «МИНАИ» ИЗ СРЕДНЕВЕКОВОГО ГОРОДИЩА ШАМКИР

**Тарих Достиев**

**Резюме**

**Ключевые слова: Шамкир, фаянс, «минаи», миниатюра, надглазурная роспись.**

Статья посвящена образцам фаянсовых изделий «минаи», обнаруженных в разные годы на городище Шамкир. Эта керамика представлена двумя подгруппами: а) молочно-белой глазурью; б) бирюзовой глазурью. Преобладают образцы  с молочно-белой глазурью. Они  украшены росписью полихромными глазурями и неглазурованными красками. Один из образцов этой подгруппы дополнительно украшен накладками тончайшей золотой фольги. Образцы этой подгруппы, которые выделяются высокой художественностью, декорированы сюжетными изображениями, напоминающие книжные иллюстрации – миниатюры эпохи.

В декоре фаянсовых изделий, покрытых бирюзовой глазурью с надполивной росписью, доминируют растительные орнаменты.

Фаянсовые изделия «минаи» из городища Шамкир датируются последней четвертью XII и началом XIII века.

**I Tablo**


1


2


3


4


5


6

# II Tablo



**III Tablo**



**IV Tablo**



1



2

# MARAQLI TAPINTILAR
# INTERESTING EXPLORATIONS
# ИНТЕРЕСНЫЕ НАХОДКИ

## ŞAHTAXTIDA YENİ TAPINTILAR

**Qəhrəman Ağayev**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
kahramanaqaev@mail.ru

**Açar sözlər: Naxçıvan, Şahtaxtı, son tunc, erkən dəmir, astral işarələr.**

Şahtaxtı arxeoloji abidələr kompleksində keçən yüzilliyin 30-cu illərindən etibarən aparılan arxeoloji tədqiqat işləri sübut edir ki, Kəngərli rayonundakı Şahtaxtı kəndi Araz çayı sahilində yaranmış ilk yaşayış məskənlərindən biridir. Bu qədim ərazi böyük inkişaf yolu keçmiş, tarixin müəyyən mərhələlərində inkişaf etmiş mədəniyyət mərkəzinə çevrilmişdir. Şahtaxtı



yaşayış məskənində və nekropolunda son zamanlarda aparılan arxeoloji tədqiqatlar zamanı, qədim mədəniyyətimizin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edən bir sıra maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Qazıntılar nəticəsində məlum olmuşdur ki, ərazidə qısa fasilələr olmadan belə, qədim tayfalar intensiv sürətdə məskunlaşmışlar. Bunun nəticəsində də sübut olunmuşdur ki, ərazinin müasir əhalisinin qədim tayfalarla müəyyən etnogenetik əlaqələri olmuşdur (1, s.48). Qazıntı sahəsinin A kvadratı ilə D kvadratı arasında kişi skeletinin yaxınlığında üzərində petroqliflər olan daş tapılmışdır. Tədqiqatlar və arxeoloji ədəbiyyatla aparılan müqayisələr nəticəsində müəyyən olunmuşdur ki, daşın üzərindəki cizgilər təsadüfi deyil, insanlar tərəfindən oyulmuşdur. Qırmızı rəngli bu daşın hündürlüyü 12 sm, eni 11,7 sm, qalınlığı 2,5 sm. olmaqla insan sifəti forma-



sındadır. Balaca olmasına baxmayaraq bu çay daşının tərkibində dəmirin miqdarı çox olmaqla, ümumi çəkisi 785 qramdır. Daşın üzərində həndəsi, zoomorf və astral təsvirləri ifadə edən çizgilər açıq gözlə görünür. Bu tip təsvirləri olan daşlara digər arxeoloji qazıntılarda da rast gəlinmişdir. Daşların üzərindəki ornamentlərin nə anlam verməsi tədqiqatçılar arasında fikir ayrılığına səbəb olmuşdur. Bu çür kiçik daşlar üzərindəki cizgilərin qarışıq olmasına baxmayaraq bunların müəyyən məqsədlə yaradılması haqqında müxtəlif fikirlərə elmi ədəbiyyatda çox rast gəlinir.

Azərbaycan ərazisində bu tip ornamentasiyanın öyrənilməsinə hələ keçən əsrin 20-çi illərindən başlanılmışdır. A.P.Fituni 1924-cü ildə Şamaxı rayonu ərazisində bu cür petroqliflərə rast gəlmiş və onların surətlərini çıxarmışdır (2, s.185). Bəzi tədqiqatçılar, o cümlədən A.P.Fituni də bu tip şərti işarələrin yerli əhali tərəfindən qazılması ehtimalına üstünlük vermişlər. Ancaq Şahtaxtıda tapılmış bu daş 2,5 metr dərinlikdə, uçqun altında qalan skeletin yanından tapılmışdır ki, bu cür ehtimalı da buna aid etmək olmaz.

İ.İ.Meşşaninov da A.P.Fituninin topladığı 200-dən artıq bu tip şərti işarələri təhlil edərək onun fikirləri ilə razılaşmamış və bunların yaranma köklərinin başqa sahələrlə əlaqəli olması ehtimalını irəli sürmüşdür (5, s.40).

Şahtaxtıda tapılmış daşın üzərindəki cizgilər kiçik olsa da, onun üzərindəki işarələr kompüter texnologiyasının köməyi ilə böyüdülmüşdür. Bu zaman aydın olmuşdur ki, bu ornamentlər çəkilmə texnologiyasına görə, Gəmiqaya təsvirlərinə bənzəyirlər. Gəmiqaya təsvirlərinə bənzərlərinin Govurqala yaşayış yerindən və Şahtaxtı nekropolundan tapılmış keramika nümunələri üzərində rast gəlmək olar. Bu da onu göstərir ki, Şahtaxtı ərazisində yaşamış qədim maldar tayfalar Gəmiqaya ətrafı yaylaqlardan istifadə etmişlər.



1954-cü ildə Qazax rayonunun Qazaxbəyli kəndindəki Eşşəktəpə adlanan yerdən arxeoloji qazıntılar zamanı da, bu cür şərti işarələr olan daş tapılmışdır. Daşın üzərində yeddi və on dörd guşəli qabarıq ulduz və günəş təsvirlərindən

başqa, xırda ölçülü oymalar, yay və ox olduğu güman edilən cizgilər, müxtəlif həndəsi rəsmlər vardır. S.M.Qazıyev bu rəsmləri tədqiq edərək bu qənaətə gəlmişdir ki, bunlar sadəcə naxış kimi vurulmuşdur (2, s.187). Onun fikrinə görə, bunlar müəyyən bir fikri ifadə etmişdir. Şahtaxtıda tapılan daşın üzərindəki cizgilər də iti bir alətlə salınmışdır. Üzərində bu cür işarələr olan daşlara qəbir abidələrində də rast gəlinmişdir.




Xocalı ərazisində daş qutu qəbirləri tədqiq edən E.Resler, daha sonra İ.İ.Meşşaninov bu daşların qəbirlərlə eyni dövrə- e.ə. I minilliyin əvvəllərinə aid olması qənaətinə gəlmişlər. Ancaq qeyd edək ki, bu daşlar üzərindəki işarələr haqqında fikir söyləyən tədqiqatçıların heç biri eyni fikrə gəlməmişlər (5, s. 40). İstər Gəmiqaya, istər də Qobustanda rast gəlinən bu işarələri, mütəxəssislər (3, s.21) qədim tayfaların məişət və təsərrüfat həyatlarına, onların dini və fəlsəfi dünyagörüşünə, səma cisimləri ilə bağlı olmasını qeyd etmişlər. Qədim zamanlarda bunların müəyyən təlim tərbiyə əhəmiyyətini göstərən tədqiqatçılar da olmuşdur.

V.İ.Şerstobitov qeyd edir ki, ov təsvirləri təkcə ovda qazanacaqları uğurları ifadə etməmiş, eyni zamanda yetişən gənc nəsli öyrətmək məqsədi də daşımışdır (8, s.88-89). Etnoqrafik baxımdan bunları qədim tayfaların adət ənənəsilə, «daş kultu» ilə bağlılıq əlaqəsi haqqında fikirlər də söylənilmişdir. Bu fikirlərin hamısı məntiqi cəhətdən doğru olsa da, işarələr formasına görə qədim türk runi əlifbasının işarələrinə daha çox bənzəyirlər. Lakin bunun nə qədər həqiqətə uyğun olmasını təsdiqləyən digər faktlar da olmalıdır. Çünki, tədqiqatçıların fikir söylədiyi abidələrin heç də hamısı eyni dövrə aid deyildir.



Bu cür daşlara təkcə Azərbaycan ərazisində deyil, eyni zamanda dünyanın fərqli yerlərində də rast gəlinmişdir. Dünya praktikasında rast gəlinən bu cür şərti işarəli daşlar haqqında fikir söyləyənlər əsasən bunların astral simvolika ilə bağlı olmasını söyləmişlər. Doğrudur, bunları maldar tayfaların həyatında rol oynayan səma cisimləri ilə, məişət həyatlarının yalnız bir sferasını əhatə edən işarələr kimi də qəbul etmək olar.

Çünki, səma cisimləri maldar tayfaların yerdəyişməsində mühüm rol oynamışlar. Belə ki, dünyada bu gün belə kompas olmadıqda yolu təyin etmək üçün tanınan 26 naviqasiya ulduzu hələ çox qədimdən insanlara məlum olmuşdur.

1882-ci ildə rus arxeoloqu P.A.Putyatin Beloqoye kəndi yaxınlığında üzərində batıqlar və nöqtələr olan daş parçası tapmışdır. Daşları tədqiq etmək üçün fransız astronomu K.Flamariona göndərmişdir. O, isə bu daşların e.ə. VI-IV minilliklərə aid olmasını və daşın üzərindəki təsvirlərin isə, Böyük Ayı, Əjdaha və Köpək bürclərinin ən parlaq ulduzlarının təsvir edildiyi qənaətinə gəlmişdir (6, s.23).

1979-cu ildə A.A.Stolbinov Simferopol yaxınlığında daşlaşmış heyvan qabırğası üzərində batıqlar olan sümük parçası tapmışdır. Astronom V.M.Çernov bunları e.ə. X-IX minilliklərdə yaşamış qədim tayfalara məxsus olduğunu, üzərindəki batıqların 12 müxtəlif bürcün təsviri olması qənaətinə gəlmişdir (6, s.25). Doğrudur, ərazimizdə tapılmış onlarla belə daşın qədim tayfaların astral inamları ilə bağlı olması haqqında yazılsa da heç bir astronom bu sahəyə maraq göstərməmiş və fikir söyləməmişdir.

Üzərində bu cür təsvirlər olan daş parçası Şahbuz rayonunun Kolanı kəndi yaxınlığında da tapılmışdır. Bu tip daşlara Çingirdağ, Böyükdaş, Kiçikdaş dağları sahələrində olan qaya və daşlar üzərində də rast gəlinmişdir. Günəş, svastika, xaç, ulduz və bu kimi işarələr diqqəti cəlb edir. Bunların əksəriyyətinə qədim insanların yaşaması üçün əlverişli olan yerlərin yaxınlığında təsadüf olunur (2, s. 186).

V.İ.Lebedinski qeyd edir ki, qədim insanların daşlara qarşı böyük marağı olmuşdur. Onlar öz tələbatlarını ödəmək üçün bunları tanımaq zorunda qalmışlar. Müasir insanın tələbatını metal ödədiyi kimi, ibtidai insanların tələbatını daşlar və minerallar ödəmişdir. Zaman keçdikcə onlar bu sahədə biliklərini artırmışlar ki, bu da metalların kəşfinə gətirib çıxarmışdır (4, s. 6). Etnoqrafik materiallar da göstərir ki, qədim insanların həyatında bu daşlar magik xüsusiyyətlər də daşımışdır. Onların ilkin inamlarına görə, bu daşlar müəyyən xəstəlikləri sağaltmış, müəyyən uğurlar gətirmişdir. Z.İ.Yampolski Qobustan qayaüstü rəsmlərində də ibtidai magiyanın öyrənilməsinin Azərbaycan arxeologiyası üçün önəmli olmasını göstərmişdir (9, s.202). D.M.Uqrinoviç isə, qeyd edir ki, incəsənətin magiya ilə bağlılığı olmuşdur ki, buna əsasən də qədim insanlar maqik yollarla insanın dərk edə bilmədiklərinə çatmağın mümkün olduğunu güman etmişlər (7, s.35).

Təbii ki, bütün bunlarla yanaşı, daşlar insanların yazı mədəniyyətlərinin də inkişafında rol oynamışdır. Bu daşlar üzərində işarələr isə onların fəlsəfi dünyagörüşlərinin inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Daşlar qədim tayfaların məişət və təsərrüfat həyatlarında baş vermiş hadisələrin öyrənilməsi baxımından da maraqlıdır.

Sonda bu nəticəyə gəlmək olar ki, orta tunc dövrünün əvvəllərində belə Şahtaxtı ərazisində yaşamış maldar tayfalar Gəmiqaya ərazisindəki otlaq sahələrindən istifadə etməklə yanaşı, qonşu tayfalarla da sıx mədəni-iqtisadi əlaqələrə və dini-ideoloji dünyagörüşünə malik olmuşlar. Tapılmış bu daş üzərindəki rəsmlərin digər türkdilli tayfaların sənətkarlıq nümunələri üzərində də rast gəlinməsi, bir daha sübut edir ki, hələ qədim zamanlardan türkdilli tayfalar bu ərazilərdə məskunlaşmış və vahid etnosun formalaşmasında hərəkətverici rol oynamışlar.

## Ədəbiyyat

1. Ağayev Q.H, Rzayev Z.H. Şahtaxtı abidəsinin arxeoloji tədqiqi/ Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı: Elm, 2008, s.45-48.
2. Muradova F.M. Azərbaycanda daşlar üzərində qazılmış işarə və damğaların öyrənilməsinə dair. Azərbaycanın maddi mədəniyyəti VII c., Bakı: Elm, 1973, s.185-190.
3. Джафарзаде И.М. Наскальные изображения Гобустана. Изв. Института истории АН Аз. ССР. Баку, Элм, 1958, том 13, с.18-25.
4. Лебединский В.И. В удивительном мире камня. Москва: Недра, 1973, 222 с.
5. Мещанинов.И.И. Загадочные знаки Причерноморья. Изв. ГАИМК, вып.62, Баку: Елм, 1933, с.35-40.
6. Сегодня какое число. Атеистические чтения, Москва: 1987, №18, с.14-32.
7. Угринович Д.М. Искусство и религия. Москва: Госиздат, 1963, 80 с.
8. Щерстобитов.В.И. У истоков искусства. Ленинград: Наука, 1967.
9. Ямпольский З.И. История первобытной магии. // Материальная культура Азербайджана т. VII. Баку, Элм, 1973, с.202-207.

## NEW FINDINGS OF SHAKHTAKHTI

**Gahraman Agayev**

**Summary**

**Keywords: Nakhchivan, Shakhtakhti, Late Bronze, Early Iron, astral images.**

During the archeological excavations in the ancient monument of Shahtakhty archaeological complex, a unique stone finding resembling human face was found which belongs to The Late Bronze - Early Iron Age. Stone is light brown colour with a length of 12 cm, width of 11.2 cm, thickness of 2.5 cm and weight of 785 grams. The figures shown in this stone are also found in samples of handicraft production of other Turkish-speaking tribes. This substantiates once

again that the Turkish tribes since ancient times settled in this region and played crucial role in the formation of unified Turkish ethnicity.

## НОВЫЕ НАХОДКИ ИЗ ШАХТАХТЫ

**Гахраман Агаев**

**Резюме**

**Ключевые слова: Нахчыван, Шахтахты, поздняя бронза, раннее железо, астральные знаки.**

Во время археологических раскопок на древнем памятнике Шахтахтинского комплекса обнаружена уникальная каменная находка, похожая на человеческое лицо. Находка относится к эпохе поздней бронзы – раннего железа. Камень светлокоричневого цвета, длина -12см., ширина - 11,2 см., толщина - 2,5 см., вес -785 грамм. Рисунки, изображенные на этом камне встречаются также на ремесленных изделиях. Это еще раз доказывает, что тюркоязычные племена еще с древних времен поселились в долине реки Аракс.

# ELM TARİXİ
# SCIENTIFIC HISTORY
# ИСТОРИЯ НАУКИ

## FRANS KORTHAUSUN VƏ GRAF VON ŞVEİNİTZİN AZƏRBAYCANDAN APARILMIŞ KOLLEKSİYALARI BERLİN MUZEYİNDƏ

**Nuridə Atəşi Qədirova**
(AMEA, Arxealogiya və Etnoqrafiya İnstitutunun doktorantı)
ateshi@nourida.com

**Açar sözlər**: **G.V.Şveinitz, F.Korthaus, Qafqaz kolleksiyası.**

Arxeoloji ədəbiyyatda Mərkəzi Cənubi Qafqaz, eyni zamanda Gəncə Qarabağ mədəniyyəti kimi də tanınan Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələr Azərbaycan arxeologiyasının, o cümlədən Qafqazın hərb tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malik olduğu üçün bu mədəniyyətin indiyə qədər elm aləminə məlum olmayan tərəflərinin araşdırılması Azərbaycan arxeologiyasının qarşısında duran ən vacib məsələlərdən biridir. Bu mədəniyyətə aid abidələrin tədqiqi zamanı aşkar edilmiş maddi-mədəniyyət nümunələrinin böyük bir hissəsi Avropa muzeylərinə satıldığına və bu tarix alman müəllifləri tərəfindən yazılmış olduğuna görə onları tədqiq edərək, tariximizin gizli qalmış sahələrini ortaya çıxarmaq indiyə qədər mümkün olmamışdır.

Məlum olduğu kimi, 1864-cü ildə Gədəbəydə inşa edilən və 1865-ci ilin avqustunda istifadəyə verilən (7, s. 32) Siemensin mis zavodunda 1883-cü ildə çalışan mühəndis Kox Şamxor (Şəmkir) şəhərində bir həvəskar olaraq apardığı qazıntılar zamanı aşkar edilən 40-a qədər çaxmaq daşından hazırlanmış daş aləti (3, s. 67) zavodun sahibinə bağışlamış, zavod rəhbəri isə onu Qafqazın maddi mədəniyyətinə, tarixinə böyük marağı olan, dostluq etdiyi Berlində yaşayan R.Virxova hədiyyə olaraq göndərmişdi (1, s. 7). 1884-cü ildə isə zavodun digər əməkdaşı Krome zavodun ərazisində qazma-torpaq işləri apararkən bir neçə daş qutu qəbir aşkar edir. Helenendorfda müəllim işləyən Kirxover isə öz kolleksiyasındakı daş çəkiclərin bir neçəsini Gədəbəyə yenicə gələn V.Belkə göstərərək ən yaxşı nümunələri R.Virxova göndərəcəyini qeyd etmişdir (MVF).

Mənşəcə alman zabit olan Graf von Şveinitz 1840- cı ildən Berlin Antropologiya, Etnoqrafiya və Qədim Tarix cəmiyyətinin üzvü (4, s. 64) olmuşdur. Hazırda "Berlin tarixə qədər və qədim tarix muzeyi"də (MVF) Graf von Şveinitz tərəfindən Azərbaycanın Dağlıq Daşkəsənin tarixi abidələrindən əldə edilmiş çoxlu sayda nadir artefaktlar (içərisində tunc kəmər də var) vardır ki, bu kolleksiya 1913-14-cü illərdə 3600 Alman Markı qarşılığında muzey tərəfindən satın alınmış və materiallar indiyə qədər tədqiq olunmamışdır.

Şveinitzin toplusunun böyük bir əhəmiyyəti ondan ibarətdir ki, o eksponatların əl ilə təsvirini vermiş və onlar haqqında müfəssəl hesabatlar yazmışdır ki, (4, s. 64) bu hesabatlar hazırda Berlin Muzeyinin (MVF) İA 14, Bd23,E2051/13 nömrəli aktı ilə qorunur. Lakin Şveinitz bu günki Şəmkir mahalı yaxınlığında olan Zəyəm dəmir yolu stansiyasından Gədəbəy mis zavoduna qədər olan ərazini erməni torpaqları adlandırmışdır (4, s. 64).

Gədəbəydəki Simens fabrikində çalışan Korthaus adlı alman əsilli bir məmur da özünə muzey açmaq məqsədi ilə Gədəbəy və ətraf bölgələrin tarixi abidələrdən böyük bir kolleksiya toplamışdır (1, s. 69). Bundan xəbər tutan V.Belk eksponatların R.Virxova satılması üçün hərəkətə keçmiş və Korthaus razı salınaraq 130-dan çox qiymətli maddi mədəniyyət nümunəsi təxminən 1902-ci ildən sonra Berlin muzeyinə gətirilmişdir.

V.Belk əvvəlcə F.Korthausun arxeoloji qazıntılardan topladığı materialların elmi cəhətdən qiymətləndirilməsi üçün ona təqdim edildiyini, daha sonra isə bütünlüklə onun sərəncamına keçdiyini (6, s.11) bildirmişdir.

Deməli, hələ V.Belk 1888-ci ildə Gədəbəyə gəlmədən öncə R.Virxov artıq Xocalı-Gədəbəy maddi mədəniyyət nümunələrini Verner von Siemensin vasitəsi ilə Berlinə gətizdirirdi. Bundan sonra isə Rudolf Virxovun açıq-aşkar himayəsi və maliyyəsi ilə "Siemens" şirkətinə elektrotexnik vəzifəsinə Virxovun öncədən tanıdığı və etimad etdiyi Valdamer Belk təyin edilərək 1888-1891-cı illərdə həmin dövrün filoloqlarının, arxeoloq və antropoloqlarının çox müzakirə elədiyi indoariyalıların qədim vətənlərinin bu torpaqlarda olması cavabını tapmaq məqsədi ilə (4, s. 15) Gədəbəy qəsəbəsi və ətraf ərazilərdə yerləşən 350-dən artıq (bəzi mənbələrdə 300 ) tarixi arxeoloji abidəni (əsasən, qədim qəbir abidələrini, kurqanları, daş qutu qəbirləri və s.) açmış və minlərlə eksponat toplamışdır. R.Virxov "Siemens"in rəhbərliyi ilə əlbir olaraq "Siemens" Direktorlar Şurasının (geheimrat) xəbəri olmadan V.Belki gizlincə və açıq maliyyələşdirmişdir (6, s. 20). V.Belk məktublarında və məqalələrində onu həm maddi, həm də mənəvi dəstəkləyən R.Virxov, Verner və Siemensin adını çəkmiş, maliyyə dəstəyi aldığını dəfələrlə təsdiqləmişdir (4, s. 47). Virxovun V.Belkin Gədəbəy və ətrafında çox zaman qanunsuz aparmış olduğu qazıntılarından xəbəri var idi və bunları həm maddi, həm mənəvi, həm də öz dostluq əlaqələri ilə hər vasitə ilə dəstəkləyirdi (6, s.









32). Belkin bu artefaktları Almaniyanın Hamburg, Münhen və o zamankı Danziq və başqa muzeylərinə göndərməsindən də onun xəbəri olmuşdur (6, s. 32).

Berlindəki Qafqaz kolleksiyası hələ Böyük Vətən müharibəsindən öncə invertarlaşdırılmış, 6563-dən artıq obyekt və obyekt qrupundan ibarət olsa da 1939-cu ilə qədər bunlardan əlavə təxminən 2000-ə yaxını muzeyin inventar kitablarına salınmamış, kataloqlaşdırılmamış və tədqiq edilməmişdi (2). Lakin müharibə zamanı bu kolleksiyaların böyük bir hissəsi yoxa çıxmışdır (2).

Muzeydə olan Qafqaz kolleksiyasının kataloqu (Sammlungsverzeichnisse) 1945-46-cı illərdə Sovet ordusu tərəfindən qəsb edilmişdir. Kataloq bu günə qədər Rusiyada saxlanılmaqdadır (2).

Rusiyaya aparılan eksponatlar (Berlin MVF muzeyinin Qafqaz kolleksiyasında olanlar) isə Rusiyanın müxtəlif muzeyləri arasında paylanılmış və indiyə qədər elmi cəhətdən tədqiq edilməmişdir.

Moskva şəhərindəki Rusiya Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin (РГАЛИ - Российский государственный архив литературы и искусства, ранее ЦГАЛИ), Комитет по делам исскуств при Совмине СССР (Опись 6-7, Фонд № 962, Опись № 6), 1945-ci ilin fond materialları içərisində və bir çox digər aktlarda Almaniyadan gətirilmiş maddi mədəniyyət nümunələrinin A.S.Puşkin adına Dövlət Təsviri İncəsənət Muzeyinə (Государственный музей изобразительных искусств имени А.С.Пушкина) verilməsi, aktların, qənimətlər olan yeşiklərin Ermitaja verilməsi, 1946-cı ilin materialları içərisində isə Almaniyadan gətirilmiş qənimət yeşiklərini müvəqqəti qorumaq üçün Ermitajın Şərq şöbəsinə və digər muzeylərə verilməsi haqqında məlumatlar vardır. Lakin təəssüflər olsun ki, Moskva şəhərindəki Rusiya Dövlət Ədəbiyyat və İncəsənət Arxivi bu materiallardan tədqiqatçıların istifadə etməsinə hələlik icazə vermir.

1958-ci ildə "Qafqaz və Luristan" adı altında Qafqaz kolleksiyasının yalnız kiçik bir hissəsi sərgi vasitəsilə Berlin ictimaiyyətinə təqdim edildi (4, s. 16).

1983-cü ildə Prussiya Mədəni İrs Fondu, Berlin Tarixə qədər və Qədim Tarix muzeyi və Berlin Antropologiya, Etnoqrafiya və Qədim Tarix cəmiyyətinin birgə əməkdaşlığı ilə "Ermənistanın və Qafqazın qədim dağ xalqları" (*Frühe Bergvölker in Armenien und im Kaukasus*) və "Berlinin XIX əsr tədqiqatları" (*Berliner Forschungen des 19. Jahrhunderts*) başlığı altında Berlin şəhərindəki muzeydə olan eksponatların bir hissəsini əhatə edən sərgi keçirilmişdir. Sərgiyə həsr edilmiş eyniadlı kataloqun müəllifləri K.Kohlmeyer və G.Sahervala Belkin, Şveinitzin və Korthausun qazıntılardan əldə edilən eksponatlar haqqında səthi və ümumi məlumat verdilər (4). Təəssüflə qeyd etmək lazımdır ki, sərgidə müəlliflər e.ə II minilliyin ikinci

yarısında hind – alman hesab edilən atlı nomad tayfalarının Cənubi Qafqaza gəlib bu torpaqlara sahib olmaları (4, s. 46), Qafqazın qədim dağ xalqlarının urartulu olması və Xocalı-Gədəbəy mədəniyyətinin mövcud olduğu ərazinin urartu torpaqları olması (5, s. 56), ilə bağlı Virxovun, Reslerin, Belkin yalnış tezislərinin təsirində olmuş və yeni tədqiqatlar aparmağa səy göstərməmişlər.

Xocalı-Gədəbəy mədəniyyətinin öyrənilmə səviyyəsi müasir arxeologiya elmində qənaətbəxş hesab edilə bilməz. Bunun bir neçə səbəbi vardır. Əsas səbəblərdən biri bu eksponatların Azərbaycanın hüdudlarından kənarda–Avropanın bir çox şəhərlərində, o cümlədən, Almaniyanın, Fransanın və Rusiyanın muzeylərində saxlanılması və bu günə qədər elmi tədqiqatlara cəlb edilməməsidir. İkinci çox önəmli bir səbəb, bu arxeloji qazıntıları aparan şəxslərin qazıntıları elmi məqsəd daşımamış, əksinə daha çox qazanc əldə etmək olmuşdur. Üçüncü vacib bir məsələ ondan ibarətdir ki, alman əsilli həvəskar arxeoloqların - R.Virxov, V.Belk, F.Bayern, E.Resler, Q.Rozendorf, C.F.L.Haupt və başqalarının müasir elmdə öz təsdiqini tapmayan elmi tezislərinin geniş yayılması, sonrakı dövrlərdə bu tezislərin alman, rus, Qafqaz, o cümlədən Azərbaycan alimləri tərəfindən uzun illər boyu etibarlı mənbə kimi istifadə edilməsidir. Göstərilən bu səbəblər üzündən Cənubi Qafqaz arxeologiyasında Mərkəzi Cənubi Qafqaz, eyni zamanda Gəncə Qarabağ, Xocalı-Gədəbəy mədəniyyətinin genişmiqyaslı və hərtərəfli tədqiq edilməsi mümkün olmamışdır.

Tədqiqatların nəticəsi olaraq beynəlxalq elmi ictimaiyyət qarşısında Rusiya muzeylərində saxlanılan Qafqaz materiallarının tədqiqatlara açılması məsələsi qaldırılır ki, bu da çox vacib bir məsələdir. Çünki Qarabağ, Gədəbəy və s. yerlərin materialları, məsələn bir kurqanın materialları həm Qafqaz, həm Rusiya həm də Almaniya muzeyləri arasında paylanılması bu abidələrin tədqiqatlarını mümkünsüz edir və Qafqazın ümumi tarixinin yazılmasında da indiyə qədər bir əngəl olmuşdur.

Berlin Tarixə qədər və Erkən Tarix Muzeyində qorunan Korthausun və Graf von Şveinitzin kolleksiyalarında Xocalı-Gədəbəy mədəniyyətinə aid olan 10 orijinal tunc kəmər saxlanılır. Təəssüfedici haldır ki, bunlar da indiyə qədər tədqiq olunmamışdır. Şveinitsin 29 qəbir abidəsində apardığı tədqiqatların orijinal hesabatları xoşbəxtlikdən indiyə qədər Berlin Tarixəqədər və Qədim tarix muzeyində qorunur**(şəkil 1).**Əldə edilən məlumatlara görə, Hans-Hermann von Schweinitz tərəfindən Berlin Muzeyinə 180 arxeoloji material verilmişdir. Muzeydə eyni zamanda Şveinitz tərəfindən Gədəbəy və ərtafında tapılmış materialların orijinal özü tərəfindən çəkilmiş şəkilləri də qorunur **(şəkil 2).**

Əlyazma şəklində 29 qəbir haqqında hesabatlar ilk dəfə olaraq bu məqalədə tədqiq edilmişdir. Şveinitz və Korthausun kolleksiyaları geniş tədqiq olunmalı və elmi dövriyəyə buraxılmalıdır. Berlin arxivində Zəyəm mate-

rialları haqqında orijinal sənədlər vardır ki, bunların da bəziləri dissertasiyamda çap olunmuşdur.

Almaniyanın digər muzeylərində də Xocalı-Gədəbəy mədəniyyətinə aid maddi mədəniyyət nümunələri qorunur və indiyə qədər üzərində əsaslı tədqiqatlar aparılmamışdır. Bu muzeylərdən biri Mainz şəhərində olan Roma-German Mərkəzi Muzeyi (Römisch-Germanisches Zentralmuseum Mainz) adlanır. Muzeydə bir neçə tunc kəmər saxlanılır. Bunların Gədəbəy və ətraf bölgələrdən göndərilən tunc kəmərlər olduğunu zənn edir və üzərində tədqiqatlar aparılmasını zəruri hesab edirik.

Beləliklə, Almaniyanın muzeylərində Qafqazın Son Tunc, Erkən Dəmir dövrünə aid olan materiallarının qənaətbəxş tədqiq olunmadığı ortaya çıxır və beynəlxalq elm qarşısında bu kolleksiyaların yenidən tədqiq olun-


21

und zwischen den Füssen in der Kniegegend war ein Lanzenfuss mit dazugehörigem Ringe. Zwischen den Scherben fast aller Töpfe und Urnen lagen viele Schafknochen. Der Tote scheint in einem besondern Ansehn gestanden zu haben da er vom gewöhnlichen Ritus abweichend beerdigt war und sowohl die Urnenkammer, als auch die Kiste keramisch ungewöhnlich reich ausgestattet wurde. Gewöhnlich sind in den Kisten nur 6-8 Urnen vorhanden.



Das Charakteristische des Bestattungs-Typus der drei Gräber, 12, 13 u. 14 ist die Urnenkammer über der Kiste. Die keramischen Objekte sind meist nicht ornamentirt, von grauschwarzer Farbe, aus einem guten Ton sorgfältig hergestellt und fest gebrannt. Töpfe und flache, tellerartige Gefässe sind vorwiegend. Die oft schönen Formen und reiche Decorations-Motive der Urnen aus den Doppel-Gräbern findet man in den Kisten nicht mehr, die Gefässe sind einfacher und praktischer geworden. Bronze ist

ması və yeni elmi nəticələrin süzgəcindən keçirilməsinin vacib olduğu məsələsi bir problem olaraq qaldırılır.

**Nəticə**

Hazırda "Berlin Tarixə qədərki və Qədim Tarix Muzeyi"ndə (MVF) Graf Şveinitz tərəfindən Azərbaycanın Dağlıq Daşkəsənin tarixi abidələrindən əldə edilmiş çoxlu sayda nadir sənət əsərləri (içərisində tunc kəmər də var) vardır ki, bu kolleksiya 1913-14-cü illərdə 3600 Alman Markı qarşılığında muzey tərəfindən satın alınmış, lakin materiallar indiyə qədər tədqiq olunmamışdır. Əldə edilən məlumatlara görə, Hans-Hermann von Schweinitz tərəfindən Berlin Muzeyinə 180 arxeoloji material verilmişdir.

Şveinitzin toplusunun böyük bir əhəmiyyəti ondan ibarətdir ki, o eksponatların əl ilə təsvirini vermiş və onlar haqqında müfəssəl hesabatlar yazmışdır. Bu orjinal hesabatlar da hazırda Berlin Muzeyinin (MVF) İA 14, Bd 23, E2051/13 saylı aktı ilə qorunur. Dəftər halında əlyazma şəklində 29 qəbir haqqında hesabatlar ilk dəfə olaraq bu məqalə vasitəsi ilə elmə qazandırılır. Şveinitz bu günki Şəmkir mahalı yaxınlığında olan Zəyəm dəmir yolu stansiyasından Gədəbəy mis zavoduna qədər olan ərazini yanlış olaraq Erməni torpaqları adlandırmışdır (4, s. 64).

Gədəbəydəki Siemens fabrikində çalışan Korthaus adlı alman əsilli bir məmur da özünə muzey açmaq məqsədilə Gədəbəy və ətraf bölgələrdəki tarixi abidələrdən böyük bir kolleksiya toplamışdır. Bundan xəbər tutan V.Belk eksponatların R.Virxova satılması üçün hərəkətə keçmiş və Korthausu razı salaraq 130-dan çox qiymətli maddi mədəniyyət nümunəsini təxminən 1902-ci ildən sonra Berlin muzeyinə gətirtmişdir. V.Belk əvvəlcə F.Korthausun arxeoloji qazıntılardan topladığı materialların elmi cəhətdən qiymətləndirilməsi üçün ona təqdim edildiyini, daha sonra isə bütünlüklə onun sərəncamına keçdiyini bildirmişdir.

Şveinitz və Korthausun kolleksiyalarının geniş tədqiqi 2015-ci ildə start verilməsi planlaşdırılmış beynəlxalq proyektin əsas hədəflərindən biridir.

**Ədəbiyyat**

1. Yusif Səfərov. Qədim Azərbaycan: nə bilirik. Bakı: Azərnəşr, 1989, 157 s.
2. Archivauskunft des Museums für Vor- und Frühgeschichte Berlin, Horst Junker, vom 2.11.2013. Zu den einzelnen Sicherungs- und Verlagerungsmaßnahmen vergleiche Staatliche Museen zu Berlin-Preußischer Kulturbesitz, Dokumentation der Verluste, Band IV. MVF, s. 11-19 und s. 24-25.
3. Belck Waldemar. Waldemar Belck berichtet über archäologische Forschungen in Armenien // ZfE 25, 1893, s. 61-82
4. Kohlmeyer K; Saherwala G. Frühe Bergvölker in Armenien und im Kaukasus. Berliner Forschungen des 19 .Jahrhunderts. Ausstellung für Vor- u.

Frühgeschichte Berlin, Staatliche Museen Preußischer Kulturbesitz und der Berliner Gesellschaft für Anthropologie, Berlin, 1983, 84 s.
5. Lehmann C.F.-Haupt.Armeinen, einst und jetz. Berlin: B.Behr´s Verlag, 1910, 543 s.
6. Nagel W., Strommenger E. Kalakent. Fruheisenzeitliche Grabfunde aus transkaukasischen Gebeit von Kirovabad/Jelisavetopol. - BBV, Neue Folge 4. Berliner Beitr.z.Vor-und Frühgesch. Berlin: Wissenschafsverlag Volker Spiees, 1985, 192 s.
7. Nourida Ateshi. Siemens in Aserbaidschan / Yeni Körpü, 2004, № 2, s. 32-33
8. http://www.rgali.ru/object/353284038?lc=ru

## COLLECTIONS OF GRAF VON SCHWEINITZ AND FRANSKORTHAUS EXPORTED FROM AZERBAIJAN AT THE BERLIN MUSEUM

**NouridaAteshi**

### Summary

**Key words: G.V.Şveinitz, F.Korthaus, Caucasus collection.**

Today there are quite a lot of artefacts in the Berlin Museum for prehistory and early history (including bronze belts), which have been taken away by Graf von Schweinitz from the historic monument in Dagliq-Dashkesen in Azerbaijan. This collection had been bought by the museum in the years 1913 and 1914 at a price of 3600 German Marks, but till today this material has not been the object of any research yet. As far as we know, Hans-Hermann von Schweinitz had given the Berlin museum 180 archeological artefacts.

The collection of von Schweinitz is of great importance because he recorded them in hand-drawings, and he described them in a detailed inventory. The original inventory is documented in file IA 14, volume 23, E 2051/13 in the Berlin Museum for prehistory and early history. The hand-written inventories of 29 graves are published in this article for the first time. At that time, von Schweinitz called the territory between the Zayam railway station near Shemkir and the copper mine in Gedabek “Armenian territory”.

F. Korthaus, a German employee working in the Siemens factory in Gedabek had been collecting a lot of artefacts from the historic monuments in Gedabek and its surroundings in order to open his own museum. When V. Belck heard about that, he wanted to sell the collection to R. Virchow, and he agreed with Korthaus to send more than 130 examples of the material culture of great value to the Berlin museum after the year of 1902. V. Belck first carried out a scientific evaluation of the material collected by F. Korthaus during his excavations; subsequently he took total control on it.

An in-depth research into the collections of von Schweinitz and Korthaus are one of the main topics of an international project which is due to start in 2015.

© Staatliche Museenzu Berlin, Museum fürVor- und Frühgeschichte, MVF.

# КОЛЛЕКЦИИ ГРАФА ФОН ШВЕЙНИТЦА И ФРАНСА КОРТХАУЗА, ВЫВЕЗЕННЫЕ ИЗ АЗЕРБАЙДЖАНА И ХРАНЯЩИЕСЯ В БЕРЛИНСКОМ МУЗЕЕ

**Нурида Атеши**

## Резюме

**Ключевые слова: Г.В.Швеинитз, Ф.Кортхаус, Кавказская коллекция.**

В настоящее время в Берлинском Историческом музее хранятся редкие исторические произведения и находки (там есть и бронзовый пояс), которые заполучил Граф Швеинитц. Эти исторические памятники Азербайджана найдены в Нагорно-Дашкесанском районе. Эти коллекции Берлинский музей закупил в 1913-14 годах за 3600 немецких марок, но до сих пор эти материалы не исследованы. По полученным сведениям со стороны Ганс-Нерман фон Швеинитца в Берлинский музей было отдано 180 археологических материалов. Эти сведения Швеинитца очень важны, потому что эти экспонаты изображены ручным способом и о них написаны точные данные отчеты. Эти оригиналы сейчас хранятся в Берлинском музее под актовым номером ИА 14, Бд 23. Э.2051/13. Эта рукопись о 29 могилах впервые получила научную известность и предстала перед учеными в тетрадной форме. В своих материалах Швеинитц называет территорию от станции Дседамской железной дороги Шамкирского района до Гедабекского медного завода территорией армян. Немецкий чиновник по имени Кортаис тоже хотел открыть в Гедабеке собственный музей. Тогда он работал на Гедабекской Сименской фабрике. Чтобы прийти к своей цели, он собрал на территории Гедабека и в близких окрестностях большую коллекцию исторических памятников. Узнав об этом, В.Белк старается продать экспонаты Р.Вихову и, согласившись с Кортаусом, после 1902 года более 130 материально-культурных ценностей привез в Берлинский музей. В.Белк заявил о том, что материалы об археологических ископаемых Е.Кортауса были предоставлены ему, чтобы дать оценку этим находкам, а потом полностью перешли в его распоряжение. Коллекции Швеинитца и Кортауса были спланировано предоставлены к исследованию в 2015 году. Эта работа является основной целью Международного проекта этих исследований.

# GÜLLƏLƏNMİŞ ARXEOLOQ

**Qüdrət İsmayılzadə**
**Seyid Nicat İbrahimli**
(Bakı Dövlət Universiteti,
iqudrat@yahoo.com
Strasburq Universiteti)

**Açar sözlər: Azərbaycan, arxeologiya, etnoqrafiya, muzey, Yaloylutəpə.**

Azərbaycan arxeologiyasının təşəkkülü və inkişafında mühüm xidmətləri olan ziyalılarımızdan biri də Davudbəy Şərifovdur. Bir vaxtlar o, istedadlı və bacarıqlı arxeoloq kimi şöhrət tapsa da peşəkar etnoqraf və coğrafşünas kimi də tanınmışdı.

Əsl insan kimi yaşamaq, daim axtarıb tapmaq və yaratmaq arzusu, elmə təmənnasız xidmət, doğma torpağa məhəbbət və xalqını maarifləndirmək Davudbəy Şərifovun həyatının əsas amalını təşkil etmişdi.

Davudbəy Şərifov uzun ömür sahibi olmuş, keşməkeşli yollardan keçmiş, mənalı bir həyat yaşamışdır. Az adama məlumdur ki, Davudbəy Şərifovun həyatında necə də ağlasığmaz dəhşətli anlar olmuşdur. 1918-ci ilin qanlı hadisələri zamanı Qazax bölgəsinin Əskipara kəndi ərazisində axtarışlarda olan Davudbəy erməni - daşnak quldurları tərəfindən tutulmuş və vəhşicəsinə güllələnmişdi. Ağır yaralanmış Azərbaycan türkünü ölmüş bilən mənfur erməni cəlladları onu dərin xəndəyə atıb getmişdilər. Xoşbəxtlikdən yerli kənd qadını hələ sağ olan Davudbəyi tapmış, yardımını ondan əsirgəməmiş, onu gizlicə Qazaxa çatdırmışdı. Davudbəy Şərifov ikinci dəfə dünyaya göz açmışdı. Tanrı onu hifz etmişdi.

Davudbəy Şərifov 1885-ci ilin iyul ayının 8-də Tiflis şəhərində hərbçi ailəsində anadan olmuşdu. Polkovnik rütbəli atası Mikayılbəy hərbi topoqrafiya sahəsində bacarıqlı və istedadlı mütəxəssis kimi tanınmışdı. Mikayılbəy oğlunun təhsilinə xüsusi diqqət yetirmiş və ağır peşəsinə sevgini ona da aşılamışdı.

Davud bəy ilk təhsilini Tiflis şəhərindəki ali rus oğlan məktəbində almışdı. 1902-ci ildə gimnaziyanı bitirdikdən sonra Kiyev Universitetinin hüquq fakültəsinə daxil olmuş, bir müddətdən sonra təhsilini filologiya-tarix fakültəsində davam etdirmişdi.

Həmin illər bütün Rusiyanı bürüyən inqilabi hərəkat gənc Davudbəy Şərifovdan yan keçməmişdi. O, gündən-günə genişlənən xalq hərəkatının fəal iştirakçısına çevrilmişdi. Şübhəsiz, belə vəziyyət universitet rəhbərliyinin diqqətindən yayınmamışdı. Davudbəy Universitetdən çıxarılmışdı. Lakin çox keçmədən Davudbəy Novorossiyski Universitetinə bərpa olunmuş-

du. Burada o, coğrafiyaşünas peşəsinə yiyələnmişdi. İstedadlı gənc 1908-ci ildə həmin universiteti birinci dərəcəli diplomla bitirmişdi.

Davudbəy Şərifov ilk əmək fəaliyyətinə müəllim kimi başlamışdı. O, eyni zamanda Azərbaycanın zəngin mədəni irsindən xəbər verən tarixi abidələri öyrənməyə maraq göstərmişdi. 1908-1920-ci illər ərzində Qazaxda, Qars şəhərinin fəhlə məktəbində vaxtı ilə oxuduğu Tiflis oğlan gimnaziyasında və Bakı oğlan məktəbində müəllimlik etmişdi. O, tarix və coğrafiya fənlərini tədris etmiş və geniş maarifçilik fəaliyyətində olmuşdu. Davudbəy Qazaxda işləyərkən torpaq komitəsinə sədr seçilmiş və müxtəlif vaxtlarda məsul vəzifələr daşımışdı.



Davudbəy Şərifovun rəsmi elmi fəaliyyətinin ilk mərhələsi 1922-ci ilə təsadüf edir. Həmin ilin oktyabr ayında o, Azərbaycan Ali Qiyabi Pedaqoji İnstitutunda müəllimliyə başlamış, eyni zamanda diqqətini elmi axtarışlara yönəltmişdi.

Geniş və hərtərəfli elmi fəaliyyəti ilə diqqəti cəlb edən Davudbəy Şərifov 1923-cü ildə Azərbaycan Dövlət Tarix Muzeyinə müdir təyin olunmuşdu. Beş il böyük inadkarlıqla bu çətin vəzifəni davam etdirən Davudbəy həmin müddətdə muzeydə zəngin arxeoloji və etnoqrafik fondlar yaratmışdı.

Davudbəy Şərifov 1923-cü ildə arxeoloji materiallar əsasında «Bizim mədəni irsimiz» adlı dərs vəsaiti yazmışdı. Rus dilində buraxılan kitab tezliklə Azərbaycan dilinə tərcümə olunmuşdu. Kitabda olan fəsil və bölmələr («Müasir insanın əcdadı», «İlk əmək alətləri», «Daş dövrü», «Daş dövrünün adamı», «Odla tanışlıq», «Gilin kəşfi», «Tunc dövrü», «Dini görüşlər», «Millətin yaranması») onun müəllifinin nə qədər hərtərəfli və dərin biliyə malik olduğunu göstərmişdi. Kitabda Azərbaycanın tarixi abidələrini əks etdirən şəkillərin verilməsi onun dəyərini daha da artırmışdı.

Daim elmi axtarışda və yaradıcılıq fəaliyyətində olan Davudbəy Şərifov 1924-cü ildə müəllimlər üçün «Coğrafiya» adlı dərslik çap etdirmişdi. Kitabda Azərbaycanın zəngin təbii şəraiti tədqiq edilmiş və onun özünəməxsus xüsusiyyətləri diqqətə çatdırılmışdı.

1924-cü ildə Bakıda «Birinci Ümumazərbaycan diyarşünaslıq qurultayı» keçirilmişdi. İctimai və mədəni tədbirlərdən heç vaxt kənarda qalmayan Davudbəy Şərifov həmin qurultayın plenar iclasında «Azərbaycanda Muzey işi» mövzusunda böyük proqram məruzə ilə çıxış etmişdi. Məruzədə respublikada Muzey işinin vəziyyəti və gələcək inkişaf perspektivləri dərindən

təhlil olunmuşdu. Əhəmiyyətlidir ki, Davudbəy Şərifovun məruzəsi əsasında vaxtı ilə Azərbaycandan qanunsuz çıxarılmış maddi mədəniyyət nümunələrinin geriyə qaytarılması haqqında xüsusi qətnamə qəbul edilmişdi.

Bu qətnamədən dəyərlənən Davudbəy Şərifovun səyi nəticəsində az vaxt içərisində Tiflis, Moskva, Leninqrad muzeylərində saxlanılan Azərbaycana məxsus yüzlərcə nadir və dəyərli maddi mədəniyyət nümunələri vətənə geri qaytarılmışdı. Onların içərisində mis, gümüş və qızıldan zəngin sikkə kolleksiyaları, yüksək zərgərlik məmulatı, Azərbaycan xanlıqlarının rəmzləri, silah və bəzək nümunələri, vaxtilə mahir azərbaycanlı sənətkarları tərəfindən toxunmuş xalılar və digər sənət əsərləri olmuşdu.

1927-ci ildə Azərbaycan Tarixi Muzeyində toplanan eksponatların sayı artıq 50 minə çatmışdı. Qeyd etməyə dəyər ki, muzey fondlarındakı misilsiz xalı nümunələri həmin il Moskvada açılan Ümumittifaq sərgisində nümayiş etdirilərkən yüksək tərifə layiq görülmüşdü.

Azərbaycanın qədim tarixinin öyrənilməsində arxeoloji tədqiqatların fövqəl əhəmiyyət kəsb etdiyini yaxşı bilən Davudbəy Şərifov 1925-ci ildə o zamankı Şəki qəzasına və Qəbələ mahalına ilk arxeoloji səfər təşkil etmişdi.

Səfər zamanı elmə məlum olmayan bir sıra tarix və mədəniyyət abidələri qeydə alınmış, adı antik və orta əsr tarixçilərinin əsərlərində çəkilən qədim Qəbələ şəhərinin yeri dəqiqləşdirilmişdi. Çöl axtarışlarına Davudbəy Şərifovun özü rəhbərlik etmişdi. Bu səfər əslində Azərbaycan arxeologiya tarixində milli mütəxəssislər tərəfindən təşkil edilən ilk elmi ekspedisiya olmuşdur.

Ekspedisiya 1926-cı ildə öz axtarışlarını daha da genişləndirmişdi. Nic kəndi yaxınlığındakı Yaloylutəpə adlanan qədim dəfn yerində aparılan qazıntı işləri ilə Qafqaz Albaniyasına aid mükəmməl bir mədəniyyətin izləri üzə çıxarılmışdı. Qafqaz Albaniyasına aid bu qədim mədəniyyət Azərbaycan arxeologiyasına Yaloylutəpə mədəniyyəti adı ilə daxil olmuşdu. Qazıntılar zamanı qədim dəfn yerindən özünəməxsus özəllikləri ilə seçilən müxtəlif biçimli nəfis gil qablar, tunc və digər metallardan hazırlanmış əmək alətləri, silah və bəzək nümunələri və çoxlu sayda digər tapıntılar üzə çıxarılmışdı. Onların çoxu yüksək bədii xüsusiyyətlərə malik əsl sənət nümunələri idi. Sonrakı illərin tədqiqatları ilə Yaloylutupə mədəniyyətinə aid yeni abidələr aşkar olunmuş və bu mədəniyyətin geniş coğrafiyaya malik olması müəyyən edilmişdi.

Davudbəy Şərifovun başçılıq etdiyi arxeoloji axtarışlarda qədim Qəbələ şəhərinin tədqiqi xüsusi yer tutmuşdu. Axtarışlar zamanı qədim şəhərin müdafiə divarları, giriş yolu, bürcləri dəqiq ölçülmüş və təsvir olunmuşdu. Şəhərin mədəni təbəqəsini müəyyən etmək məqsədilə onun müxtəlif yerlərində kəşfiyyat qazıntıları aparılmışdı. Əldə edilən maddi mədəniyyət nümunələri şəhərin əsasən orta əsrlər tarixi ilə bağlı olmuşdu.

Davudbəy Şərifovun rəhbərliyi ilə Qəbələ şəhərinin yerində başlanan ilk arxeoloji işlər onun öyrənilməsinin perspektivlərini üzə çıxarmış, gələcək geniş miqyaslı qazıntılar üçün əsas olmuşdu.

Yaloylutəpə və Qəbələdə uğurlu çöl axtarışlarından sonra Davudbəy Şərifov 1928-ci ildə Gəncə qəzası ərazisindəki Çovdar adlı nadir abidənin tədqiqinə başlamışdı. Bu qədim dəfn yerindən ibarət olan abidədə müxtəlif illərdə qısa müddətli axtarışlar aparılsa da onun haqqında tarixçilər üçün əhəmiyyət daşıyan dəyərli arxeoloji dəlillər əldə edilməmişdi.

Davudbəy Şərifovun yeni qazıntıları ilə Çovdar abidəsində daş qutulardan ibarət 42 qəbir açılmışdı. Bunların hər birində bükülü vəziyyətdə dəfn olunmuş insan qalığına və zəngin avadanlığa təsadüf olunmuşdu. Müxtəlif ölçülü və biçimli nəfis gil qablar, tuncdan hazırlanmış müxtəlif və mükəmməl döyüş ləvazimatı, çoxlu sayda bəzək əşyaları aşkara çıxarılan qədim qəbirlərin avadanlığını təşkil etmişdi. Onların hərtərəfli tədqiqi və təhlili Çovdar dəfn abidəsinin e.ə. II minilliyinin sonlarına və I minilliyin əvvəllərinə – Son tunc və ilk dəmir dövrünə aid olmasını sübuta yetirmişdi. Çovdar abidəsinin öyrənilməsi ilə həmin dövrdə Azərbaycan ərazisindəki mövcud cəmiyyətlərin zəngin maddi mədəniyyəti yüksək iqtisadi və ictimai durumu, Qərb və Şərqlə geniş mədəni əlaqələr haqqında biliklər əsaslı şəkildə genişlənmişdi. Onu da diqqətə çatdırmaq lazımdır ki, Davudbəy Şərifov Çovdar abidəsində aparılmış arxeoloji qazıntıların nəticələrinə xüsusi əsər həsr etmişdi.

Çox təəssüf ki, Çovdar qazıntıları daima çöl axtarışlarına can atan zəhmətkeş alim Davudbəy Şərifovun arxeologiya sahəsində son tədqiqatları olmuşdur. Tezliklə Tarix Muzeyinin direktoru vəzifəsindən çıxarılan istedadlı alim həmişəlik arxeoloji fəaliyyətdən kənar düşmüşdü. İnamlı və uğurlu addımları ilə ön sırada duran, nüfuzu gündən-günə artan Azərbaycanın Tarix Muzeyi ilə bəzi təşkilatlar arasındakı düşünülmüş münaqişələr milli mədəni irsini böyük əzm və inadkarlıqla öyrənən vətənpərvər alimdən də yan keçməmişdi.

Qəribədir ki, Davudbəy Şərifovdan sonra Azərbaycanın milli tarix muzeyinə başçılıq iki erməni şəxsə - S.Manuçyan (1928-1932-ci illər) və A.Melkumyana (1932-1934-cü illər) tapşırılmışdı. Təəccüblü deyildir ki, onların başçılığı dövründə muzeyin milli mütəxəssislərinə qarşı təqiblər başlanmış, onların bir çoxu muzeydən uzaqlaşdırılmışdı. Eyni zamanda muzeyin Davudbəy Şərifov tərəfindən böyük çətinliklə əldə edilən bir çox dəyərli eksponatları Moskvaya - İnqilab muzeyinə göndərilmiş və daha geri qaytarılmamışdı. Böyük vətənpərvər alimin on il bundan əvvəl erməni gülləsindən aldığı sağalmaz yaranın üstünə sanki duz tökmüşdülər.

Hansı şəraitdə olursa-olsun xalqının şanlı tarixini, zəngin mədəni irsini öyrənməyi və onu geniş ictimaiyyətə, xüsusən - gənclərə çatdırmağı özü-

nə borc və şərəf bilən möhkəm iradə sahibi Davudbəy Şərifov bundan sonra əsl vətəndaşlıq vəzifəsini müəllimlikdə görmüşdü. O, Bakının orta məktəblərində coğrafiya və tarix fənlərindən dərs deməyə başlamışdı. Bu şərəfli işi Davudbəy Şərifov böyük əzmlə ömrünün sonlarınadək davam etdirmişdi. Bununla yanaşı o, vaxtaşırı Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda da müəllimlik etmişdi. Məlumdur ki, 1944-46-cı illərdə Davudbəy Şərifov Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində Etnoqrafiya, Coğrafiya fakültəsində isə Azərbaycan coğrafiyasına aid silsilə mühazirələr oxumuşdu.

Yorulmaz alim 1950-ci ildə Universitetdə «Avtaranın morfologiyası» mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmiş və coğrafiya sahəsində yüksək elmi ada layiq görülmüşdü.

Acı təəssüf hissi ilə onu da qeyd etməliyik ki, ilk elmi fəaliyyətini bilavasitə Arxeologiya sahəsində başlayan, gözəl nəticələr və yetkin təcrübə əldə edən, adı və əsərləri Azərbaycandan çox-çox uzaqlarda tanınan Davudbəy Şərifov ömrünün son zaman kəsiyində sanki yaddaşlardan silinmiş və biganəliyin qurbanı olmuşdu. Kamillikdən uzaq olan, sevincə şərik olmağı bacarmayan ayrı-ayrı adamların xislətlərindəki pis və qərəzli əməllər istedadlı və işgüzar alimi daim izləmişdi.

İkinci Dünya müharibəsindən sonra Azərbaycanda başlanan geniş miqyaslı arxeoloji tədqiqatların heç birinə yeni axtarışlar aparmaq, işləmək arzusunda olan təvazökar alim dəvət olunmamışdı. Bütün bunlara baxmayaraq, qüdrətli alim Davudbəy Şərifovun adı elm tarixindən silinməmişdir.

İllər illəri ötür… Qərinələr əsrlərə çevrilərək sanki görkəmli alimi bizdən uzaqlaşdırır. Lakin o, bizdən uzaqlaşdıqca Azərbaycan arxeologiyasında onun nurlu yeri daha aydın bilinir. Bu gün Azərbaycan arxeologiyasının tarixindən, böyük nailiyyətlərindən söhbət açarkən onun bizə ərməğan etdiyi zəngin elmi irsin nə qədər geniş, dərin və lazımlı olduğunu bir daha hiss edirik.

Bu gün biz vaxtilə Davudbəy Şərifovun keçdiyi sonu bilinməyən çətin axtarış yollarının yolçusuna çevrilərək onun həyatını özümüzə örnək bilirik.

**Davudbəy Şərifovun çap edilmiş əsərləri**

1. Şərifov D. Bizim mədəni irsimiz. Bakı, 1923.
2. Şərifov D. Coğrafiya. Bakı, 1924.
3. Шарифов Д. Программа для собирания этнографических материалов в АССР. Изд-во Общества обследования и изучения Азербайджана. Баку, 1924, 17 с.
4. Шарифов Д. О музейном деле в АССР. Резолюция I Всеазербайджанского краеведческого съезда в г. Баку, 21-24 сентября 1924 г. Баку. 1924, с. 67-76.

5. Шарифов Д. Некоторые памятники искусства древности Нухинского уезда. ООИ Аз.ССР, 1926, №2, с. 67-76.
6. Шарифов Д. Обследование развалин Кабалы. ООИ Аз.ССР, 1927, №4, с. 174-184.
7. Шарифов Д. Раскопки в Ялойлутепе (Нухинский уезд, 1926 г.). Изд-во ООИ Аз. ССР. Баку, 1927, с. 5-32.
8. Шарифов Д. Крестьянская усадьба III – IV районов Нухинского уезда. Изд-во ООИ Аз. ССР. Баку, 1927, №4, с. 64-73.
9. Шарифов Д. Раскопки близ села Човдар Гянджинского уезда. Изв. АЗКОМСТАРИСА, вып. IV, Баку, 1929.
10. Шарифов Д, Финкильштейн Л. Замок в селе Мардакан. ААЭН №2, Баку, 1947, с. 525.

## THE SHOT ARCHAEOLOGIST

**Gudrat Ismailzade**
**Seyid Nijat Ibrahimli**

### Summary

**Keywords: Azerbaijan, archaeology, ethnography, museum, Yaloylutepe.**

Davudbey Sharifov is one of those intellectuals of Azerbaijan, which have a great contribution to the establishment and development of the archaeology of Azerbaijan . He was also a professional ethnographer, geographer and talented teacher. Shot and thrown into a ditch in 1918 by Armenian nationalists, ordinary teacher D.Sharifov miraculously survived.

In 1922, after many years of teaching, he first began to study science and in 1923 was appointed director of the Azerbaijan State Museum of History. For 5 years of work at the Museum, he created a rich archaeological and ethnographic fund.

D.Sharifov organized an archaeological expedition for the first time in Soviet Azerbaijan. Expedition discovered a unique archaeological culture of Yaloylutepe related to Caucasian Albania. The first scientific work of D.Sharifov is his monograph "Our cultural heritage", released in 1923 in Russian language, which at that time was very necessary to university and secondary school students and teachers.

The hard way of life of the talented Azerbaijani scientist and educator D.Sharifov should be an example for all of us.

# РАССТРЕЛЯННЫЙ АРХЕОЛОГ

**Гудрат Исмаилзаде**
**Сейид Ниджат Ибрагимли**

## Резюме

**Ключевые слова: Азербайджан, археология, этнография, музей, Ялойлутепе.**

Давудбей Шарифов один из тех интеллигентов Азербайджана, который имеет большие заслуги в создании и развитии азербайджанской археологии. Он был также профессиональным этнографом, географом и талантливым педагогом. Растрелянный и брошенный в канаву в 1918 году армянскими националистами, Д.Шарифов чудом выжил.

В 1922 году после педагогической деятельности он впервые начинает заниматься наукой и в 1923 году назначается директором Азербайджанского Государственного Исторического Музея. За 5 лет своей работы в Музее, он создал богатый археологический и этнографический фонд.

Д.Шарифов впервые в Советском Азербайджане организовал археологическую экспедицию, которая открыла уникальную Ялойлутепинскую археологическую культуру, относящуюся к Кавказской Албании. Первым научным трудом Д.Шарифова является монография, выпущенная в 1923 году на русском языке «Наше культурное наследие», которая в то время очень нужна была студентам ВУЗов и преподавателям средних школ и ученикам.

Трудный жизненный путь талантливого азербайджанского учёного и педагога Д.Шарифова должен быть примером для каждого из нас.